Qəşəm Aslan Seçilmiş əsərləri



Qəşəm Aslan

# Seçilmiş Əsərləri

# QƏŞƏM ASLAN

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

**(*Povest, hekayə, miniatür və məqalələr)***

**"Nurlan"**
**Bakı - 2013**

**Redaktor və ön sözün müəllifi:**

**Almaz ÜLVİ (Binnətova)**
*filologiya elmləri doktoru*

**Qəşəm ASLAN. Seçilmiş əsərləri : povest, hekayə, miniatür və məqalələr (redaktor və ön söz filologiya elmləri doktoru Almaz Ülvi. - Bakı, "Nurlan", 2013. 252 s.**

*Yazıçı Qəşəm Aslanın bu kitabı "Saymazovun salamı" və "Məğlub ölüm" kitablarında nəşr olunmuş əsərlərinin məcmuusudur. Hər iki kitab vaxtilə kiril əlifbası ilə nəşr olunmuşdu. Bu kitabın nəşrində məqsəd yazıçının bu gün də aktuallığını itirməyən əsərlərini ilk dəfə latın qrafikasında yeni nəslə təqdim etməkdir.*

*Kitabda ədibin müxtəlif illərdə qələmə aldığı özkeçmişi, povest və hekayələri, uşaqlara aid lirik-bədii lövhələri, hikmətli sözləri, məqalələri, miniatür və satiraları oxuculara təqdim olunur.*

© ***Almaz Ülvi, 2013***

*Ön söz əvəzi*

# QƏŞƏM ASLAN - FİTRƏTƏN FAZİL ŞƏXSİYYƏT, GÖZƏL PUBLİSİST, DÜŞÜNDÜRƏN YAZIÇI

Qəşəm Aslan – şirin, duzlu qələmi olan, sadə yazı üslubu, düşündürücü və real həyati mövzuları nəsrlə oxucusuna çatdıran istedadlı, zəhmətkeş yazıçı idi. Ədəbi aləmə 50-ci illərdə gəlmişdi. Ədəbiyyat dostlarının adlarını onun öz əli ilə yazdığı gündəliyindən oxumuşdum: Şıxəli Qurbanov, Bəxtiyar Vahabzadə, Xəlil Rza, Əli Kərim, Qasım Qasımzadə, ... .

Gündəliklərindən oxuduğum qeydlərdən məlum olur ki, onun ədəbiyyat adamları, o cümlədən qələm dostları ilə əlaqələri yaradıcılığının formalaşmasında xüsusi stimul olmuşdu. Bu gündəliklərdə tez-tez görüşdüyü, məktublaşdığı saysız-hesabsız yaradıcı- ziyalılar barədə qeydləri vardır. Bir sözlə, gənclik illərini bütövlükdə ədəbiyyat dünyasına bağlamışdı. Qəşəm Aslanın uşaqlıq dostu, gənc aspirant (sonralar biologiya elmləri doktoru, professor) Məhəmmədhəsən Qafarova yazdığı məktublardan birinə təkrar nəzər salıram –

*Truskovesdən yazdığın məktubu alıb, yolunu gözlələdim. Gəlmədiyini hiss edib, cavab yazıram.*

*Özüm barədə: Kişinin sözü də özü kimi bir olar, yenə səhhətim əla, işlərim yaxşı, oxumağım ortadır. Deyə bilərsən ki, niyə belə? Cavab verirəm ki, özümdə sabitlik, dönməzlik, yenilməzlik tərbiyə edirəm.*

*... Məsləhət edərdim ki, Ç.Aytmatovun heç olmasa azərbaycanca olan "Köşək gözü" (povestləri) kitabı ilə tanış olasan. Qəhrəmanları sadə peşə sahibləri olan bu əsərləri ürək döyüntüsü ilə oxuyursan. Çaykovskinin ev-muzeyində olmuşam. Keçən bazar da Tula şəhərinin 15km-də olan Yasnaya-Polyanaya getmişdim. L.Tolstoyun malikanə-muzeyindən çox şey öyrəndim. Lenin adına kitabxanada hər gün onlarla azərbaycanlıya rast gəlmək olur. Onlar elmin ən mühüm problemlərilə məşğul olur, böyük ümid doğururlar. Onların fərqlənən cəhəti, bir də "vətən", "xalq" məfhumlarını çox düzgün başa düşmələrindədir. O.Sarıvəllinin oğlu Rafiq (aspirant-fizik), əslən kəlbəcərli, şair-tərcüməçi (ingilis dili üzrə) Ənvər Rza mənə xüsusilə yaxşı təsir bağışlayıb.*

*Təəccüb edirəm... . Göygölə, İstisuya, Xoşbulağa niyə qayğı çəkilməsin? Klassiklərimizə özlərinə layiq abidə qoyulmasın, adları, xatirələri əbədiləşdirilməsin? Gənclik H.Zərdabi, N.Nərimanov, Ü.Hacıbəyov, R.Axundov və H.Hüseynovun fədakarlığını təkrar etməyə ruhlandırılmasın? Altı hər gür sərvətlə dolu, üstü min bir nemətlə zəngin ana torpağın köksü əfsanələrdə təsvir olunan cənnətə döndərilməsin?*

*...Təlatüm keçirirəm. Daxili aləmim məni hər şeydən ayırır. Başqalarının dodaqlarından mahnı, mənim qəlbimdən isə uzaqlara axan Bakı qanı süzülür... Arzum, diləyim vətən torpağına ayaq basmaq, vətən övladlarının xoşbəxtliyi naminə heç olmasa xırdaca bir fədakarlıq göstərmək, bir dəstə adamasa nümunə olmaq, yanmaq, yana-yana səcdə etdiyim müqəddəs*

*torpağa gömülməkdir. Vətən, vətən torpağı mənim idealımdır. Bu torpağın hər qarışı mənim Kəbəmdir. Onun şoranlığına, daşlığına baş qoyub can vermək mənim üçün ən böyük səadətdir. Xoşbəxtliklərin zirvəsini fəth etməkdir. Mənim ziyarətgahım vətən torpağıdır. Bakı həyatı necədir? Şixəli (Şıxəli Qurbanov-A.Y.) püstələri gülə dönə bilirmi, yoxsa qınında, qabığında qovrulur? Hamıya salam yetir.*

*Dərin ehtiramla:*

*Qəşəm ASLANOV. 1968. Moskva.*

Yaradıcılığa başladığı ilk vaxtlardan Qəşəm Aslanın müxtəlif mətbuat səhifələrində (institut qəzetində, rayon orqanı "Bolluq uğrunda", mərkəzi qəzetlər - "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət", "Sovet Erm.", eləcə də "Azərbaycan" dərgisi və s.) xeyli sayda ədəbi-bədii, publisistik yazıları çap olunmuşdur.

1986-93-cü illərdə "Ədəbiyyat və incəsənət" qəzetində işləyərkən ayda bir dəfə qəzetin axırıncı – 8-ci səhifəsində "Ədəbi Göyçə" səhifəsi hazırlayırdım (baş redaktorumuz sevimli şair Nəriman Həsənzadə idi). Hər dəfə Qəşəm Aslanın bir yazısını haradansa tapıb hökmən həmin səhifəyə qoyurdum. Elə bu məqsədlə araşdırma apararkən müxtəlif mətbuat orqanlarında onun "Eloğlu" imzası ilə yazdığı şeirlərlə rastlaşdım.

Bütün bunlardan əlavə yazıçının ikinci kitabını nəşr etdirərkən arxivi ilə tanış olmaq qərarına gəldim. 7 ədəd 96 vərəqlik ümumi dəftərlərə səliqəli və gözəl xətlə yazılmış *"Xatirələr, düşüncələr, təəssüratlar"* adlı *Gündəliklərini* gördüm. Yazıçının əsil xəzinəsinin hələ

"sandıq"da olduğuna şahid oldum. Bir neçəsini vərəqlədim. Hamısı mükəmməl əsərlər – geniş məzmunlu gündəlik, eləcə də lirik-bədii lövhələr idi. Düzü, əlim gəlmədi ki, onlardan "kəsib" götürərək yazacağım 6-7 vərəqlik "Ön söz"ə daxil edim. "Bunlar ki, mükəmməl və qiymətli qənimətlərdir" – deyərək onlara əl vurmadım, sadəcə 2-3 məlumat götürdüm, sonra yazıçının öz səsi ilə yazılmış lent yazısından bir-iki fraqment köçürdüm.

Oxuduğum *"Xatirələr, düşüncələr, təəssüratlar"* *g*ündəliyindən sətirlər –

- *Xəlil Rzadan məktub almışam. O, yazır:"Cəsur qardaşım Qəşəm Aslan! Məktubun bizi sevindirdi. Əzizim,*
*50-dən artıq azərbaycanlı ilə əlaqə yaratmağınız təqdirəlayiq bir işdir.*

- *Bu gün Basarkeçərə telefon etmişəm. Dədəmlə danışdım. "Yoldaşlarınla mehriban ol, dostluq elə".*

*Məni xeyirxahlığa, alicənablığa səsləyr. Dədəmin səsi gümrahlığından xəbər verir. Eşq olsun sənə, sənin mənəviyyatına.Vəzifən böyük olmasa da, böyük, işıqlı ürəyin var. Kaş mən də insanlıqda sənin yüksəkliyinə qalxa biləm, sənin kimi ali duyğular sahibi olam, Dədə!*

Ayrılarkən oğlu Rövşənə (onda hələ IX sinifdə oxuyan Cavanşir də yanımızda idi) xahiş etdim ki, bunları beləcə saxlayın, bir gün fürsət düşən kimi olduğu kimi – elə gündəlik olaraq və ya lirik - bədii lövhələr kimi nəşr edərik (Allah qoysa! İnanıram ki,

yaxın vaxtlarda həmin dəftərləri olduğu kimi sizlərə çatdırılacaq).

*"Azərbaycana pərvanə vurğunluğu ilə yanan oğul: Həyat məktəbi, qeyrət simvolu"* - adlı giriş sözü ilə dediyim kitab nəşr olundu. İndi sizlərə təqdim etdiyimiz bu kitab "Saymazovun salamı" (1968, İrəvan) və "Məğlub ölüm" (1997, Bakı) kitablarında nəşr olunmuş əsərlərinin latın qrafikasında məcmuusudur.

Qeyd edim ki, hər iki kitabı kiril əlifbası ilə nəşr olun-
muşdu.

Əslində bu kitabı nəşr etməkdə məqsədimiz yazıçının əsərlərini latın qrafikasında yeni nəslə təqdim etmək, eyni zamanda, Qəşəm Aslanın qarşı ildə gələn 80 illik yubileyinə ilkin hazırlıq mərhələsi kimi dəyərləndirə bilərik.

Yazıçının öz tərcümeyi-halını əks etdirən
"Ömürdən səhifələr" adlı bədii lövhədən ibarət yazısı ilə açılan kitab hər kəsin ürəyincə olacaq, onu sevə-sevə oxuyacaqdır. Çünki, orada hər kəs öz həyatında şahidi olduğu yaşantılarla yenidən tanış olacaq, nostalji hisslərə dalacaq, bədii-publisistik əsərlərin - bu günlə səsləşən mövzuların hələ də aktual əhəmiyyət daşıdığını görəcəkdir.Yazıçı "Ömürdən səhifələr"də keçdiyi həyat yolunun vacib məqamlarını, tarixlərini əhatəli təqdim etdiyindən, daha onun haqqında rəsmi şəkildə tərcümeyi-hal verməyə ehtiyac duymadıq.

*Babamın sözüdü, yaxşı qulaq as,*
*Torpaqla namusda güzəşt olmaz.*

Bu sətirləri – xalq hikmətini Qəşəm Aslan vaxtilə ikinci kitabını hazırlayarkən özü seçib yazıb. Elə bu kitabı üçün də başlanğıc seçdik və ya belə deyək ki, kitab belə bir epiqrafla açılır..

"Unuda bilmədiyim gün" povestini yazıçı Ali Partiya
məktəbində təhsil aldığı illərdə (1968-1970, Moskva-Ba-
kı) yazmışdır. Əsərdə qoyduğu problemə, daha doğru-su, süjet xəttinə uyğun hissələrdə yaradıcılıqlarına dəyər verdiyi yazıçı və şairlərin əsərlərindən sitat gətirərək epiqraf kimi təqdim edir. Məsələn -

Rəşad Nuri Güntəkindən -*"Nə deyirlər desinlər, dünyada iztirab və ələm qədər yaxşı tərbiyəçi yoxdur*".

Şamilin qılıncı üzərində yazı-*"Döyüşə girərkən onun nə ilə nəticələnəciyini düşünən adam igid ola bilməz".*

Sovet dönəmində Türkiyə yazıçısından sitat gətirmək və ya Şamilin qılıncından danışmaq elə də asan məsələ deyildi. Bu məqam müəllifin yalnız milli hisslərinə hakim kəsildiyi açıqca görünür. Abbasqulu ağa Bakıxanovdan, Universitet müəllimi, yazıçı-publisist Nurəddin Babayevdən, Bəxtiyar Vahabzadədən, Amerika fizioloqu Frank Nayt Zandersdən götürdüyü kəlimələr ibrətamizdir. Dahi Nizamidən gətirdiyi sitat isə sanki birbaşa "lirik mən"in xarakterinin tərcümanıdır:

*Xidmət etmək sayılır kişilikdən nişana,*
*Xalqına xidmət etmək bir şərəfdir insana.*

Yaradıcılığına diqqətlə nəzər yetirdikdə onun nə qədər zəngin mütaliəyə sahib olduğu da aydınca fərq edilir. Yazıçı-publisist Qəşəm Aslan dövlət xadimi, böyük vətəndaş, Azərbaycanına canı ilə bağlı olaraq məhz belə ömür yaşamışdır.

"Unuda bilmədiyim gün" əsərinin mövzusu yazıçının həyat müşahidələrinin, sənədli faktların və təbii ki, yüksək yaradıcı təxəyyülünün məhsuludur.

"Vicdanımın hökmü", "Rəna", "Əgər layiqəmsə" və "Oğul istəyirəm" hekayələri də yazıçının gerçək həyat müşahidələri və gənclik illərinin xoş duyğuları, ılıq yaşantılarıdır.

"Qeyrət haqqında hekayələr": bu bölmədə 9 miniatür hekayə verilmişdir. Azyaşlı oğlu Qeyrət haqqında, yaxud da belə deyək, hazırcavab bir uşağın davranış və hərəkətlərində izlənən xarakterik cizgilər, səmimiyyət və saf uşaqlıq dünyası bədii dillə lakonik təqdim edilir.

Ümumiyyətlə, ədəbiyyatda "Ata-oğul məsələsi" bir janr olaraq xüsusi yer tutur. Üzü Nizamidən tutmuş ta bu günkü ədəbiyyatımıza qədər. Burada saf, sular qədər dupduru, təfəkkürlü uşağın dili ilə söylənən ağıllı məntiq oxucu diqqətinə çatdırılır. "Dədə" başlığı altında verilmiş kiçik bir dialoqa – ata-oğul söhbətinə nəzər yetirək -

*Qeyrət məndən soruşdu:*

- *Babam sənin nəyindir?*
- *Atamdır, - dedim.*
- *Bə niyə ona dədə deyirsən?*
- *Dədə yaxşı sözdür. Evin böyüyü, ailənin başçısı deməkdir.*

*O, xeyli fikirləşdi. Sonra:*

- *Onda, bu gündən mən də sənə dədə deyəcəyəm.*

"Eloğlunun dediklərindən" bölməsində təqdim olunan "Məqamında deyilən söz" və "Şəhər yenilikləri" maraqlı yazı üslubu ilə diqqəti cəlb edir. Məsələn -

- *Tanınmış yer axtarma, getdiyin yeri tanı.*
- *Məqamı çatmamış deyilən söz – tuşlanmadan atılan*
*güllə kimidir.*
- *Özünü insana borclu bilənlər göstərdikləri*
*xidmət, yaxşılıq üçün heç kəsdən əvəz gözləmirlər.*
- *Ən böyük xoşbəxtlik başqalarına xoşbəxtlik bəxş etməkdir.*
- *İxtiyar sahibləri mərhəmətli olmalıdır.*
- *Qane etmək çətindir, rədd etməyə, könülə toxunmağa nə var ki?!*

- və s. kimi deyimlərə söykənib qeyd edə bilərik ki, həyata sərrast və düzgün baxış, haqq-ədalətli münasibət, nizam-intizamlı davranış, humanizm, xeyirxahlıq, nəciblik, alicənablıq, səmimiyyət və s. keyfiyyətlər əsil insana xas xarakterik məziyyətlərdir. Qəşəm Aslanın bu bölmədəki deyimlərini diqqətlə oxuduqda qəti bir fikir üzərində dayanırsan – "lirik mən" fitrətən fazil şəxsiyyətdir.

"Məqalələr" bölməsində bu gün də aktual məzmun daşıyan 6 publisistik qeyd-düşüncə verilmişdir. "Azərbaycanın zümrüd qaşı" adlı ilk məqaləsini –

"*Hüsnünə şairlərin min bir söz qoşduğu gözəl diyar! Təbiətin hər cür gözəlliklərinin təcəssümü olan nazlı dilbər.! Natəvan kəramətli, Nəvvab hikmətli,*

*Üzeyir qüdrətli, Bülbül məlahətli, Süleyman sədaqətli, Aslan qeyrətli şəhər”*

– kimi epiqrafla açır. Yazıçı Qəşəm Aslan bir neçə il Şuşanın rəhbəri vəzifəsində çalışmışdır. O, bu gözəl şəhərin, indi yağılar əlində darmadağın olan şəhərin yüz illiklər tarixinə bələd olmuşdur. Bi kiçik həcmli məqalə faktlarla çox zəngindir. Şuşa haqqında tədqiqatçı üçün ədəbi-mədəni həyatına aid əhatəli və konkret mənbələr, ictimai-siyasi məlumatlar, gözəl publisistik düşüncələr təqdim olunur. Qəşəm Aslan Şuşa rayonunun raykom katibi (indiki İcra başçısı) vəzifəsində çalışarkən böyük quruculuq işləri aparmış, maarif və mədəniyyət sahəsində, tikintidə, tarixi abidələrin, yolların, işməli su xətlərinin çəkilişində və bərpasında, eləcə də digər sahələrdə illərlə yığılıb qalmış problemləri çətinliklə olsa da həll etmişdir. Qəşəm Aslan Şuşa əhli tərəfindən həmişə hörmətlə,sevgiylə anılmış, onu əsl Azərbaycan təəssübkeşi, Vətən oğlu təki xatırlayırlar.

“*Torpaq deyir*” – Şuşadan sonra İsmayıllı rayonuna rəhbər vəzifəyə təyin edilən yazıçı qələminin mürəkkəbini torpaqdan götürür.

“*Dünyaya kənddə göz açmışam. Torpağın ətrini, nəfəsini uşaqlıqdan hiss edib duymuşam. ... Torpaq deyir: öldür məni, dirildim səni.*”

– yazıçının həmin məqaləsindən götürdüyüm qeyddir. Torpaq haqqında belə düşüncəyə sahib olan qələm əhlinin fikirlərinə əlavə şərh vertməyə lüzum qalmır.

İsmayıllı rayonunda raykom katibi işlədiyi vaxtdan 35-iləcən zaman keçməsinə baxmayaraq hələ də İsmayıllılar onu əzizləritək xatırlayırlar. O zamanlar İsmayıllıda baş vermiş bir hadisə az qala əfsanə kimi hələ də söylənir, sanki yaddaşlara yazılıb:

- *Qoca bir kişi qışın oğlan çağında üz tutur meşəyə. Gücü çatan bir ağacı baltalayıb yanı üstə yıxır. Kol-budaq edir, tutarlı bir odun şələsi düzəldir və gəldiyi cığırla yönəlir evinə. Meşəbəyi bu mənzərəni görcək dəli olur, qırdırma yolla odunçunun başının üstünü kəsir: nə deyir, nə demir, ürəyi soyumayır, kişini şələsi qarışıq gətirir hökumət idarəsinin qabağına. Hay - küyə hamı çölə çıxır. Hadisəni bilən hökm sahiblərinin hərəsi qocaya qarşı bir cəza növü buyurur: min manat cərimə olunsun;var-dövləti müsadirə olunsun; həbs edib iki-üç il iş kəsilsin və s. Bunları eşitdikcə qoca bədbəxt qorxusundan tir-tir əsir. Elə bu vaxt katib Qəşəm Aslanov gəlib çıxır. Əhvalatdan xəbər tutur: sağ-solda gəzişənlərin "fərmanlarına" qulaq asır. Meşənin "Qoruq" əmrini imzalayan katib bir az fikirləşir və meşəbəyini yanına çağırır: "qocanı burax, evinə getsin. Min manatı olsa, gedib özünə odun-oduncaq olar, soyuqda meşəyə üz tutmaz, müsadirə olunası əmlakı varsa, kasıb yaşamaz, iki-üç illik həbs edib iş kəsilsə, bəs evdəkiləri kim dolandıracaq? Bu kişinin odununu ver getsin. Yaz açılcaq qapısını döyərsən və ona bir ağac əvəzi on ağac əkdirərsən və üç il həmin ağacların qulluğunda durmasına göz yetirərsən".*

*Yekun fərmana sevinən qocanın gözləri yaşarır.*

Qəşəm Aslanın ədəbiyyat adamı, qələm əhli olmasını deyəsən "sağ-solda gəzişənlər" unutmuşdular. Deməyim odur ki, hansı vəzifədə, harada işləməyindən asılı olmayaraq o, həssas yazıçı ürəyinə sahib idi.

İsmayıllıda tikdirdiyi "Qəşəm körpüsü", "Qəşəm bulaqları" o illərinin əziz xatirəsi oldu.

"Bu günün publisistikası" – Moskvada Ali Partiya məktəbini bitirib Bakıya qayıdan Qəşəm Aslanov ixtisasca jurnalist olduğundan respublikanın rəsmi gənclik orqanına – "Azərbaycan gəncləri" qəzetinə baş redaktor təyin edilir. İşinin ustası olduğundan elə ilk olaraq gəncliyə üz tutur və günün aktual mövzularına üstünlük verməyi tövsiyə edir:

*Nədən yazırsınızsa yazın, milli hissi, milli qüruru, milli dəyəri başınız üstündə tutun. Haqqı, ədaləti unutmayın, haqqı nahaqq ayağına verməyin. Yaxşıya yaxşı, pisəpis deməkdən çəkinməyin.*

Bu cür tərbiyəvi, öyüdverici, ibrətamiz fikirlərini gəncliyə çatdırmaqdan çəkinmir.

"*Adət və ənənələrimiz haqqında*" – bu məqalədə milli adət-ənənələrimizdə yersiz baş alıb gedən qondarma, yad adətlərə toxunur. Yazıçının düz 40 il bundan əvvəl dedikləri məsələlər bu gün də aktualdır. Toy-düyün, yas mərasimlərindəki israfçılıqdan, yerinə düşməyən dəbdəbəli adətlərdən bəhs edilir. Bu məsələdə əhalinin bütün təbəqələrinin yaşayış, dolanışıq vəziyyətini göz önünə gətirilməsinin vacibliyinə toxunur.

"*Təzadlar ölkəsində*" – Böyük Britaniyaya, İngiltərəyə - Qərb ölkələrinə səfər təəssüratıdır. Amma

yazıçı-publisist dünyanı heyrətdə qoyan hökmran İngiltərənin – qərbin ictimai həyatdakı mənəvi iyrəncliklərindən danışır. Həmin iyrənc və əxlaqsızlıqlar (milli dəyərlərimizi darmadağın edən) artıq bu gün bizim şəhərlərdə, ictimai-siyasi həyatımızda da tüğyan edir. İrlandiya və Şotlandiya əhalisinin milli azadlıq mübarizələrindən danışır. Ümumiyyətlə, publisist burada nəyə işarə edirsə, eynən öz ölkəsində baş verən hadisələrlə üstüörtü - olsa da müqayisəli təhlilinə toxunur.

*"Yaradıcı gənclərimizə nə arzulayıram"* – *"Tər əməyin göz yaşıdır"* – bir alman şairinin bu fikrinə isnad edərək, bütün gəncliyi əməyə, zəhmətə, sədaqətə, halallığa, düzgünlüyə, milli dəyərləri göz bəbəyitək qorumağa çağırır. Azərbaycan xalqının adına layiq şərəfli övladlar olmasını arzulayır.

*Miniatürlər, satiralar* – təqdim olunan satira və yumorların mövzusu gerçək həyatdan götürülmüşdür. Bildi-
yimiz kimi, yazıçı əmək fəaliyyətinə mətbuatdan başlamışdır. Tələbəlik illərində, sonrakı illərdə də, məktəbdə ədəbiyyat müəllimi kimi çalışanda da, rəsmi dövlət işində olanda da bir əli mətbuatda olmuşdur. Günün aktual mövzularından bəhs edən məqalələri o vaxtkı qəzetlərin saralmış vərəqlərində - indi tarixi əhəmiyyət kəsb edən səhifələrində qalmışdır. Tam əminliklə deyə bilərik ki, Qəşəm Aslan qələm adamı kimi mükəmməl bir məktəb keçmişdir. 1968-ci ildə İrəvanda nəşr olunan ilk kitabı (104 səh.) bütünlüklə satirik janrda yazılmış əsərlərindən ibarət idi. Kitaba 173 miniatür

satira və 4 hekayə daxil edilmişdir. Həmin illərdə Qəşəm Aslan rayon Komsomol Komitəsinin sədri vəzifəsində işləyirdi. Məsul vəzifə sahibi idi. Cəmiyyətdə baş verən hadisələrin birbaşa şahidi olurdu. Onun yazıçı qələmi, yazıçı qəlbi məmurçuluq hədlərini aşaraq vətəndaşlıq mövqeyinə təslim olmuşdu. Gördüklərini olduğu kimi yazmışdı. O vaxtkı cəmiyyətdə baş alıb gedən özbaşınalıqlar, haqsızlıqlar, insanlara qarşı laqeydliklər elə indi də var, ona görə qətiyyətlə deyə bilərik ki, Qəşəm Aslanın satiraları bu gün də aktualdır, daha doğrusu, günümüzün ədəbiyyatıdır. Yazıçının II kitabı ("Məğlub ölüm", 1997) vəfatından 13 il, I kitabından isə 30 il sonra nəşr olunmuşdu. Zaman məsafəsi xeyli aralı olsa da, hətta ölümündən sonra belə nəşr olunan "Məğlub ölüm"ün tərtibatını, redaktəsini yazıçı özü etmişdi. Lakin amansız ölüm onu vaxtsız haqlasa da, onun bu arzusunu böyük oğlu Qeyrət həyata keçirmək istəmişdi (1989-90). Amansız ölüm bu dəfə də Qeyrətin ömür qapısını vaxtsız döydü. Nəhayət, 1997-ci ildə yazıçının həyat yoldaşı Cəvahir xala həmin qovluğu mənə əmanət etdi. Qovluğun üstünə "Tikdim ki, izim qala..." yazılmışdı. Lakin qovluğu yenidən redaktə edərkən, nəşrə hazırlayarkən yazıçının əsərindən bir məqamı seçib onu "Məğlub ölüm"lə əvəzlədim. Mənası ora gedib çıxırdı ki, ölüm vaxtsız gəlsə də, insanın yazıb-yaratdıqları, qoyub getdiyi xeyirxahlıqları, böyüklüyü, ali şəxsiyyəti ölümə qalib gəlir, bir sözlə, Ölüm Məğlub olur.

Qəşəm Aslan haqqında evdə-ailədə, kənddə, el-oba dilində, ayrı-ayrı şəhər və kəndlərdə, elm xadimləri, dövlət məmurları yanındakı söhbətlərdə yüksək fikirlər, səmimi sözlər eşitmişəm. Universiteti bitirən ili irihəcmli "Nəbi Xəzri. Biblioqrafiya" (300 səh.) kitabı yazmışdım. Xalq şairi Nəbi Xəzri elə həmin il Lenin mükafatına təqdim olunmuşdu. Bu iş isə onu o qədər sevindirmişdi ki, sonralar dedi ki, vallah bu biblioqrafiyanın yazılması məni təqdim olunan ali mükafatı almamağıma təəssüfləndirmədi. Onda 1984 - cü il idi. Aradan bir-iki ay ötmüşdü. Bir gün Nəbi Xəzri ilə telefon söhbəti zamanı dedi ki, ay qızım, sən mənim əziz dostum Qəşəm Aslanovun yaxın qohumu imişsənki. Hətta atan onun müəllimi olub. Soruşdum ki, Nəbi müəllim, haradan bilirsiniz? Bildirdi ki, dünən Xırdalanda keçirilən bir tədbirdə idim. Raykom katibi Qəşəm Aslanovla yanaşı oturmuşduq. Söhbətarası bildirdim ki, göyçəli bir qız mənim haqqımda irihəcmdə biblioqrafiya yazıb. Sonra da sizin adınızı, familiyanızı dedim. O, çox sevindi və dedi ki, mənim qohumumdur. Bu söhbətdən iki-üç gün ötmüşdü ki, qardaşım Vahid həkim dedi ki, bu gün bir yas məclisində Qəşəm müəllimlə görüşdüm. Mənə dedi ki, bir bazar günü bacın Almazı da götür bizə qonaq gəl". Mən də "baş üstə" dedim. Vahid həkim əlavə etdi ki, Qəşəm müəllim səni haradan tanıyır? Nəbi Xəzrinin dediklərini ona dedim. Aradan az müddət ötdü, məlum qəza baş verdi, nə mən onlara get
dim, nə də Qəşəm Aslanovu gördüm.

Qəşəm Aslan həyata jurnalist, ədəbiyyatçı kimi atıldı, lakin onun iti zəkası, fitrətən fazilliyi məsul vəzifələrə - dövlət işinə aparıb çıxardı. Tam əminliklə deyə bilərəm ki, əgər Qəşəm Aslan bütün enerjisini, gücünü, vaxtını, zamanını ədəbiyyata həsr etsəydi, o, XX əsr Azərbaycan ədəbi aləmində xüsusi yeri, sanbalı olan yazıçı ola bilərdi. Lakin, həyat başqa istiqamətə, daha vacib məqsədlərə yol almışdı...

İndi sizinlə birgə vərəqlədiyimiz bu əsərlər elə günümüzün ədəbiyyatıdır, oxuyun, təkrar bir də oxumaq istəyəcəksiniz, çünki həyatda rastlaşdığınız tipik obrazların hamısı ilə orada rastlaşacaqsınız.

**Prof. Dr. Almaz ÜLVI**
**(Binnətova)** *2013, mart*

*Babamın sözüdü, yaxşı qulaq as,*
*Torpaqla namusda güzəşt olmaz.*

## ÖMÜRDƏN SƏHİFƏLƏR

1935-ci ilin payız fəslində məşhur Göyçə gölünün (indi Sevan gölü adlanır) sahilində Kəsəmən kəndində kolxozçu ailəsində anadan olmuşam.

Nə gizlədim, uşaqlığım da, gəncliyim də çox nadinc keçib. Bir gün qonşu uşaqları ilə əlbəyaxa olanda məni bərk döydülər. Ağlaya-ağlaya evə qayıtdım, anamı köməyə çağırdım. Anam məni nə qədər çox istəsə də mənə acıqlandı.

- Mənə döyülüb evə gözüyaşlı qayıdan oğul lazım deyil, - dedi.

Mən də o gündən çalışdım ki, getdiyim yerdən "məğlub", "gözüyaşlı" qayıtmayım…

Birinci sinfə dərs ilinin yarısından sonra qəbul edilmişəm. Belə ki, məndən böyük bacım Sonanın yanına düşüb hər gün məktəbə gedirdim. Çantam və kitabım da var idi. Bir gün sinif müəllimi İslam Abbasov məni ayağa qaldırdı. Aydın oldu ki, mən bütün "Əlifba"nı əzbər bilirəm. Yazmağım da pis deyildi.

Əlavə olaraq rus və ermənicə də yazıb-pozmağı bacarıram.

Aradan üç gün keçdi. Məni məktəb direktoru Hüseyn müəllimin yanına apardılar. O, ermənicə hərflər yazmağı tələb etdi. Mən yazdım, qabağına da ərəb hərfləri düzdüm. Beləliklə, oldum qanuni şagird. Həmin günün sabahı Hüseyn müəllim cəbhəyə getdi. Lakin qayıtmadı. Müəllimlərimiz bir ildə 4-5 dəfə dəyişdirildi. Dərs ilinin üçüncü rübünü əlaçı çıxdım və sinif nümayəndəsi oldum. Sonrakı illərdə şagird komitəsinin sədri seçildim.4-cü sinifdən başlayaraq dərsdən sonra azad günləri və yay tətilində kolxozda işlədim. 7-ci sinfə keçəndə hodaqlıqdan məcgəlləyə "irəli çəkildim".

1949-cu ildə kənd yeddillik məktəbini fərqlənmə ilə qurtarıb Xanlar pedaqoji məktəbinə daxil oldum. Lakin müəllimlərlə yerli-yersiz mubahisəyə girişməyimə görə dəfələrlə "məsələmə" baxıblar, hətta bir dəfə Qazax və ya Gəncə pedməktəbinə dəyişmək istəyiblər. Lakin pedaqoji şurada ağsaqqal müəllim Sadıx Heydərzadə, dərs hissə üzrə direktor müavini Şəkər Kərimova və partkom Məmmədəli Cəfərov mənə havadar çıxıb, "müalicəyə" götürüblər. Axı, bu nadinc uşaq, - deyiblər, - məktəbimizə həmişə şərəf gətirir. Şəhər özfəaliyyət dərnəyinin fəal üzvüdür, şeir və məqalələri rayon qəzetində tez- tez çap edilir. Məktəbdə və şəhərdə neçə yaxşı təşəbbüs onunla bağlıdır ...

Nadincliyə görə pedməktəbdən fərqlənmə diplomu ala bilmədim. Lakin dövlət imtahan komissiyasının sədri Əsgər Əsgərov mənim işimi özü götürüb işlədiyi

V.I.Lenin adına APİ-nin riyaziyyat fakültəsinin rus bölməsinə apardı. Lakin Azərbaycan SSR Maarif Nazirliyi bizim imtahan verməyimizə razılıq vermədi. Ən azı iki il işləmək lazım gəlirdi.

Mən Basarkeçərə qayıtdım. Hər yay uşaqları təşkil edib kolxozda işləməyimizdən, bir neçə faydalı təşəbbüs göstərdiyimizdən məni az-çox tanıyırdılar. O vaxt "Sovet Erm." respublika qəzetinin xüsusi müxbiri işləyən Yunis Abdullayev məni Basarkeçər rayon qəzeti redaksiyasına apardı. Qəzetin redaktoru Qara Məmmədov mənimlə söhbət edib, elə oradaca bir məqalə yazmağı tapşırdı. Yazdım. Rayon partiya komitəsinin birinci katibi Talıb Musayevə zəng etdi. Az sonra yazımı və məni katibin yanına apardı. Talıb Qurbanoviç dedi:

- Haqqında eşitmişəm, zəhmətkeş ailədənsən. Pis də oxumamısan. İşə götürürük. Gələcəyin özündən asılıdır. Ləyaqətlə işləsən yolun yüksəlişə aparacaq. Bəd hərəkətlər etsən, onda özündən küs.

Bələliklə,1953-cü ilin 13 avqustunda - bu qeydləri yazdığımdan tam 20 il əvvəl məni rayon qəzetinə ədəbi işçi götürdülər. 1954-cü ilin yayında həmin qəzetin xüsusi müxbiri Yunis Abdullayevlə birlikdə Azəbaycan Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika bölməsinin qiyabi şöbəsinə daxil oldum. Həmin ildə müəllimliyə keçdim. Birinci kursu qurtarandan sonra Kəsəmənə qonşu olan Qaraiman kənd məktəbinə dərs hissə müdiri göndərdilər. Sonra öz kəndimizdə müəllim və dərs hissə müdiri işlədim. Universitetdə qiyabi oxusam da əsasən əlaçı olmuşam və

dövlət imtahanlarini əla qiymətlə vermişəm. Harada işləmişəmsə də bir qayda olaraq orada ilk komsomol təşkilatının katibi olmuşam. Nəhayət, 1959-cu ilin 15 oktyabrında məni Basarkeçər rayon komsomol komitəsinin birinci katibi seçiblər. Tam bir ay sonra partiya komitəsinin büro üzvü seçilmişəm. Komsomolda fəal işimə görə 1961-ci ildə mənə respublika Ali Sovetinin fəxri fərmanını veriblər.

1962-ci il sentyabrın 1-də məni rayonlararası "Sevan" qəzetinin redaktor müavini (Azərbaycan nüsxəsinin redaktoru) təyin ediblər. Həmin ilin dekabr ayında Basarkeçər rayon partiya komitəsi katibinin ideoloji iş üzrə müavini (o vaxt katib və onun iki müavini vardı), sonra isə raykomlar indiki formasına düşdükdə katib seçiblər. Daim yazı-pozu ilə məşğul olduğumdan 1966-cı ildə məni SSRİ Jurnalistlər İttifaqının üzvü qəbul ediblər.

Erm. Dövlət Nəşriyyatı "Saymazovun salamı" adlı satirik hekayələr və miniatürlər kitabımı buraxıb.

1966-cı ilin sentyabrında Sovet Ittifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi yanında ikiillik Ali Partiya məktəbinə oxumağa göndərilmişəm.1968-ci ildə Ali Partiya məktəbini qurtarıb, elə orada da xarici dildən - türk dilindən namizədlik minimumu vermişəm. Ali Partiya məktəbində mədəni işlər təşkilatçısı idim.

1968-ci ilin avqustunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin məsul təşkilatçısı (inspektoru) təsdiq edilmişəm. Orada işləyəndə Lenin yubiley medalı ilə təltif edilmişəm.

1970-ci ilin 12 noyabrından "Azərbaycan gəncləri" qəzetinin redaktoru təyin edilmişəm. Redaktorluq fəaliyyəti ərzində Bakı şəhər Sovetinin deputatı, respublika Jurnalistlər Ittifaqı idarə heyətinin üzvü seçilmişəm.1972-ci il 10 maydan Azərbaycan Kommunist Partiyası Şuşa rayon komitəsinin birinci katibi işləmişəm.

Şuşada olduğum müddətdə iş saatım təxminən səhər saat 6-dan gecə saat 12.00-a qədər olub. Yol boyu maşında yuxulamağa vərdiş etdiyimdən yorğunluqdan şikayət etmirəm. İstirahət günləri günün birinci yarısına qədər qəzet və jurnallara baxıram. Təsərrüfat fəalları məktəbinin təbliğatçısı kimi vaxtaşırı olaraq əxlaq-etika, şəxsiyyət bütövlüyü, əmək və ləyaqət, ləyaqət və sədaqət və s. mövzularda çıxış edirəm. Mühazirədə ancaq qeydlərə istinad edirəm. Əslində heç üzündən oxumağı bacarmıram da. Başqalarının fikrini məmnuniyyətlə, həvəslə, həssaslıqla öyrənirəm. Danışanda isə mən çıxış edirəm. Başqalarından gətirdiyim kəlam fikirlərimi təsdiq etmək üçün mənə lazım olur. Ömrümdə boğazdan yuxarı söz danışmamışam. Məhəbbətim ehtiraslı, nifrətim qəzəbli olub. Nə gizlədim, bir az da səddi - səhmanı keçib. Mənim "hökmran" olduğum bir auditoriyadan belə dinləyicilər həyəcansız çıxmayıblar.

Şuşada işlədiyim son bir ildə 16 kilometrlik Xankəndi - Şuşa yolu qaydaya düşüb, asfaltlaşıb. Turşsu mineral su mənbəyinə aparan 15 kilometrlik yol əsaslı qaydada yenidən qurulmuşdur.

Ən yaddaqalan işimiz Şuşanın su ilə təmin edilməsi üçün atılan addımlardır. Yerli sakinlər illər boyu su qıtlığından əzab-əziyyət çəkmişlər. Biz, şəhərin ağsaqqalları və ağbirçəkləri ilə görüşüb məsləhətləşdik. Onlar vəziyyətdən çıxmaq üçün çıxış yolu göstərdilər. Camaata müraciət etdik. Ay yarımlıq gərgin işdən sonra Mərzili dərəsi və Üçtəpələr deyilən yerdə 4 kaptaj tikib suyu şəhərə axıtdıq.

Dünyanın ən uzun mineral su kəməri olan Şırlan - Turşsu xətti boyunca şirin su xətti də uzadılıb başa çatmaq üzrədir. Dördüncü su kəməri - Daşaltı suyu tezliklə şəhərə axıdılacaq. Bu su əsasən suvarma məqsədi üçün istifadə ediləcəkdir. Beləliklə, yaxın 25-30 il üçün şəhərin su problemi həll ediləcəkdir.

Suyun normal təchizi illərdən bəri istifadəsiz qalmış isitmə sisteminin işə düşməsinə imkan verdi. Bu isə meşələrin qırılıb yandırılmasının qarşısını aldı. Yaşıllığın qorunması ilə yanaşı onun artırılmasına da ciddi qayğı gostərilir. Son payız-yaz mövsümündə Şuşanın ətrafında təxminən 120 min, şəhərdə isə 50 min meyvə, bəzək ağacı və gül kolu salınmışdır. Təkcə İttifaqda yeganə Şərq musiqi alətləri fabriki ətrafinda 3 hektar meyvə bağı salınmışdır.

Rayonda təşəbbüskarların sayı getdikcə artır. Hər kəs istəyir ki, yaxşı bir işin başlanmasında, görülməsində onun payı olsun, izi qalsın...

Yerli sovetlərə seçkilər zamanı məni Yaşıl tala kənd sovetliyindən Rayon sovetinə, Şırlan zonasından Dağlıq Qarabağ Vilayət Sovetinə deputat irəli sürmüşdülər. Belə güman edirdim ki, ciddi cəzalandırdığımız

adamlar bəlkə... əksinə oldu. Mənə yekdilliklə səs vermişdilər. Görünür, adamlar cəzanı tərbiyə etmək, düzəltmək üçün verdiyimizi dərk ediblər. İnanıblar ki, biz tərifləyəndə, irəli çəkəndə təmənnasız olduğumuz kimi, tənqid edəndə, cəzalandıranda da qərəzsizik.

Vilayət Sovetinin bu ilki ilk sessiyasında məni tikinti və tikinti materialları sənayesi üzrə daimi komissiyanın sədri seçiblər. Bu, təkcə bir rayonda yox, vilayətdə görülən tikinti və abadlıq işlərinin gedişində mənim üzərimə məsuliyyət qoyur. Deməli, cəmi bir ilə düşdüyüm vilayətdə mənə inanmağa başlayırlar.

...Gecələr işdən qayıdarkən mənim bəzən saat 11-12 arasında işlədiyimi müşahidə edən rayon xəstəxanasının baş həkimi, respublikanın əməkdar həkimi Zinyət Mirzəyeva mənə bir neçə dəfə irad tutub. Başqaları da gərgin işləməklə tez "sıradan çıxacağımı" xatırladıb...

Mən isə 20 illik fəaliyyətim ərzində cəmi 4 dəfə məzuniyyətə çıxmışam. Necə deyim, artıq məndə immunitet yaranıb... məncə adam ürəkdən işləyəndə, gördüyü işin bəhrəsinə baxıb - iş yaxşı, onun ürəyindən görülübsə - dərindən nəfəs alanda, yorulmur, qocalmır. Bu illər onun orqanizmi, necə deyərlər, konservləşir, eyni ilə qalır. Bəlkə də ömrünün üstünə ömür calanır. Adam danlaq altına düşəndə, yaranan geriliyə görə qorxuya, vahiməyə düşəndə, vicdan əzabı çəkəndə qocalır, özü də çox sürətlə.

Mən isə hələlik vicdan əzabına layiq addım atmamışam. Atmayacağam da.

Mənim ev qayğılarım başqalarından az deyil. Lakin bəxtim onda gətirib ki,1899-cu ildə anadan olmuş atam

Novruz məndən çox az seçilir.1901-ci ildə anadan olmuş anam Səkinə də hələlik əldən düşməyib - bir sözlə, onlar nəvələrinə də ata - analıq edirlər. 6 uşağın böyüyü - oğlum Qeyrət bu il məktəb bağlanan kimi Şuşa yerli yol şöbəsində işə girib. Onun başçılıq etdiyi şagirdlərdən ibarət briqada kənd yollarında 7 xırda körpü salıb... Oğlunun atasının ağırlığını bölüşməsi heç bilirsiniz nə deməkdir?! Əlvida, qocalmaq və yorulmaq, daha sən bizə yaxın düşə bilməzsən!

Qeyrət gələn il orta məktəbi qurtarır. Onun məqsədi körpütikən olmaqdır.Əgər desəm ki, uşaqlıqda mən də bu arzu ilə yaşayırdım, bəlkə də bu təəccüblü görünər. Müharibə riyaziyyat müəllimimizi əlimizdən aldığından, mən texniki elmlərin dərinliyinə enə bilmədim... Lakin bu barədə Qeyrətlə söhbətimiz olmasa da...

Məni bir neçə dəfə yol çəkənlərlə görən oğlum Xəzərdən gələcəkdə kim olacağını soruşduqda deyir:

- Mən də dədəm kimi yol çəkən olacağam. Qoy adamların ayağı dinc olsun, yıxılmasınlar.Deyəsən, bu fikir yaxınlığına səbəb dədəmdir - (biz atamıza belə deyirik, uşaqlar da mənə. "Dədə" sözü evin böyüyü, başçısı, bilicisi deməkdir) çünki, o bütün ömrü boyu tikib-qurmaqla, ucaltmaqla məşğul olub. Elə bu gün də belədir.

Uşaqlardakı ciddilik isə Səkinə nənələrindən "gəlir". Çünki o həmişə qətiyyətlə deyir:

- İnsan boş-bekar dayanmamalıdır ... Əkiblər yemişik, əkməliyik yesinlər. Tikiblər kölgəsinə sığınmışıq,

tikməliyik ki, bizdən sonrakılar istiyə, soyuğa məruz qalmasınlar.

Özüm haqqında, işlərim haqqında hələlik bu qədər. Bundan sonra tale məni haralara atacaq, başıma nələr gələcək, bilmirəm. Bircə bilirəm ki, ömrümün son anına qədər arzularımın həyata keçirilməsi üçün mübarizə aparacağam.

Gəcə yuxu gördüm.Lakin inanmıram. Yox, bu sərxoşluqdan doğan yuxu deyil. Bunları mənim beynim, əsas beynim olmasa da ikinci beynim düşünüb, onun üçün işləyib. Bir də axı hələ elm, təbabət beynin, xüsusilə, onurğa beyninin funksiyalarını, əməllərini tam aydınlaşdırmayıb. "Röya görmək" problemi hələlik qaranlıqdır. Necə olur ki, adətən məni düşündürən məsələlər barədə yuxu görürəm? Gördüyümün bəzisinə təsadüf edirəm.

Yuxuma görə, bu gün məni pis bir hadisə gözləyir... Belə güman etməyin ki, mən ölümdən qorxuram. Xeyr, ölümdən yox, ölümün mənimlə birlikdə öldürəcəyi arzularımdan qorxuram. Bu arzular hələlik buta halındadır. Çiçəklənməyib, toxumlamayıb, toxumu torpağa düşməyib. Mən, insan ömrünün ancaq dörd fəslini istəyirəm. İstəyirəm ki, payız küləyi arzularımın toxumunu ana torpağa təqdim etsin, onun ağuşuna tullasın. Torpaq isə anamızdır, ana qədər qayğıkeşdir, qədirbiləndir. O, övladının pis gününü istəməz.

Mənim özümə gəldikdə, mən ölümün düz gözünün içinə baxıram. Lağa qoyuram, ələ salıram, üstünə gülürəm, ona meydan oxuyuram. Mən, ölümdən güclüyəm. Mən, ölümdən imdad diləmirəm. Əgər elə etsəm

üstümə ayaq alar. Tez-tez məni qorxudar, məni əlində oyuncaq edər, yeri düşdükdə isə yerə çırpar. Mən isə ayaqlarımı torpağa dirəmişəm, başım göylərə dəyir. Ümidimi özümə və anam təbiətə bağlamışam. Onlar isə naümid qoymur, istədiklərimi verir.

Ölümlə mən çoxdan çarpışırıq. Hələ üç yaşımda məni götürüb yanar təndirə atdı. Mən yanmadım. Odun - alovun içindən çıxdım. 7 yaşımda atamı əlimdən almaq istədi. Mənim xatirəm üçün dünyanı bir-birinə çalxadı. Məğlub oldu. Məni xəstəliklə qorxutdu. Vecimə almadım. O, mənə doğru irəlilədi, mən sinəsindən vurub geri yıxdım. Qəsdən, onun gözü qabağında istədiklərimi etdim. Yedim, içdim, dolaşdım, güldüm. Dünyanın heç bir zövqündən, səfasından qalmadım. Qəlbimdə kədərə, dərdə yer vermədim. Onlar ölümün əli ilə mənə yaxınlaşırlar. Oxudum işə girdim. Müəyyən edilmiş iş müddətini yarıdan keçdim. Oğul-uşaq sahibi oldum. Deməli, mən adi bir insan ömrünün əksər hissəsini yaşamışam. Bəs ölümdən indi niyə qorxum? O, nəkarədir ki, mən ona baş əyim. Əgər gücü çatırsa, qoy elə bu gün öz işini görsün. Lakin mən tək deyiləm. Əgər o aslan olub məni təkləsəydi, bəlkə də arzusuna çata bilərdi. Mən və arzum birik, birləşib inadla hərəkət edirik, bir-birimizi yaşadırıq. Hələ övladlarımız! Onlar da bizim kimi müdafiəyə hazırdırlar. Di öl, ölüm! Gərək sənin ölümünü özümdən qabağa salam. Yox, sən ölən deyilsən. Mən səni başqa cür öldürəcəyəm! Arzumun toxumlarını bütün dünyaya səpələyəcəyəm, gələn nəsillərə çatdıracağam. Görək

onda nə edəcəksən. Birini, onunu dənləyəcəksən. Bəs min birini?!...

Sən mənim özümü cismən məhv edə bilərsən, buna sənin qüdrətin çatar. Lakin məni tanıyanların, mənimlə əl-ələ verib qədim Şuşanı - Azərbaycanın bu zümrüd qaşını cilalayan, pardaqlayan vətən övladlarının qəlbindən silə bilməyəcəksən. Sən bunu bacara bilməyəcəksən, ölüm! Sən bunu heç vaxt bacarmamısan, ölüm!

# POVEST VƏ HEKAYƏLƏR

# UNUDA BİLMƏDİYİM GÜN

*İnsan adı adicə ad deyil, bu rütbədir,*
*özü də yüksək rütbə, elə bir rütbə ki,*
*onu asanlıqla qazanmaq olmur.*
*R.HƏMZƏTOV*

Deyirlər, dar günün dostluğu unudulmaz olur. Biz isə dostluğun təməlini ən nəşəli günlərimizin birində, təbiətin ən füsunkar guşəsində qoyduq. Görüşümüz qısa, danışığımız adi oldu. Sonralar isə...

Yaxşı olar ki, artıq-əskik deməyim. Ötüb keçənləri olduğu kimi yada salmaq üçün yazdığım gündəlikdən müəyyən səhifələri sizə təqdim edim.

*19 avqust*

*Göygöl təbiətin öz camalını*
*Özünə göstərən güzgüyə bənzər.*
*B.VAHABZADƏ.*

Anamız təbiətin bütün gözəlliklərini cəmləşdirən Göygöl. Hər tərəf yaşıllıq, hər yan gözəllik. Kəpəz heyranedici görkəmilə səni xəyala daldırır. Özünü unudur, əfsanələrdə təsvir olunan cənnətin lap beşiyinə düşdüyünü güman edirsən.

Bizimkilər hazırlıq görür. Qızlar göy - göyərti yuyub təmizləyir, qab - qacaq düzürlər. Oğlanlar kabablıq doğrayır, ocaq çatırlar.

Mən isə onlardan aralanıb, gölün şəffaf səthində öz əksimə baxa-baxa fikrə dalmışam. Keçən ağır gün-

lərimi xatırlayır, bugünkü səadətimlə müqayisə edirəm. Xəyal məni qanadlarına alıb ən şirin, ən müqəddəs arzularla qovuşdurur.

Yaxından eşidilən şaqraq gülüş məni düşüncələrdən ayırır. Əllərində ağac yarpaqları olan iki qız gölə yaxınlaşır. Salam verdikdən sonra qızlardan biri məndən soruşur:

- Bağışlayın, bəlkə biləsiniz, meşənin hansı hissəsində daha çox ağac növləri olur?

İkinci qız izah edir ki, onlara müxtəlif ağac yarpaqları lazımdır.

- Düzü,- deyirəm,- buraları mən də o qədər yaxşı tanımıram. Bizim yoldaşlar bu yaxındadır. Yerli də var, mənim yaxın dostum. Gedib ona deyərik, hər nə lazımsa sizə xidmət göstərər, çox xeyirxah oğlandır.

- Yox, yox! Sizə əziyyət olar.

- Heç bir əziyyət, təbiət dostlarına dostcasına münasibət, yoldaşlıq köməyi göstərmək hamının borcudur.

Qızlar dinmir. Mən deyirəm:

- Onda gəlin qabaqca biz tanış olaq ki, sonra da mən sizi bizimkilərlə tanış edə bilim.

Qızlara əl uzadıb:

- İdrak - deyirəm.

- Sanya.

- Sveta.

Sanya əlavə edir:

- Bütünlüklə desək: Aleksandra, Svetlana.

- Çox gözəl, çox da əcəb. Bəs demədiniz, haradansınız?

- Mən buralıyam, Gəncədən,- deyə Sanya dillənir.

- Svetlana isə Moskvadan, xalam qızıdır.

Öyrənirəm ki, Sanya hələ on birinci sinifdə oxuyasıdır. Sveta isə bu il orta məktəbi qızıl medalla qurtarıb, instituta ixtisas fənnindən əla qiymətlə imtahan verib. Gərgin zəhmətdən sonra xalasının təklifilə bir neçə günlüyə bizim yerlərə dincəlməyə, yorğunluğunu unutmağa gəlib.

Söhbəti davam etdirmək üçün:

- Svetlana, - deyirəm, - azərbaycanca heç bilirsinizmi?

- Niyə bilmirəm. Bəs beş gündür burada nə edirəm? Man, san, salam, qyal, qet və sair.

- Daha?

- Bizə qyal, - deyib gülümsəyir, sonra davam edir:

- Bir, iki, üyüç, dort, beş, altı, yeti, sakız, dokuz, on.

Bəsdir göz dəyər.

- Ay İdrak, heey, - deyə məni səslədilər.

- Qızlar, gedək, bizi çağırırlar.

Onlar dayanırlar.

- Hərəkət edin.

- Axı, bizi orada tanıyan da yoxdur, nə deyərlər,- deyə Svetlana tərəddüdlə dillənir. - Yaxşı olar ki, biz gedib qayığa oturaq, göldən ətrafı seyr edək. Siz də qurtarıb gələrsiniz.

- Sonra, sonra, - deyirəm. - Vaxt çatsa onu da edərik.

Qızları təkidlə süfrəmizin yanına gətirir, bizimkilərlə tanış edirəm. Hamı əl verir. Bacım Sərvi isə qızları qucaqlayıb öpür, həm də uşaqlara "əmr edir" ki, maşınların oturacaqlarını çıxarıb qızlar üçün gətirsinlər.

- Şəhərlidirlər, - deyir, - göy otun üstündə oturmağa adət etməyiblər. Bilirəm, heç bardaş qurmağı da bacarmırlar.

Sanya Sərvinin dediklərini tərcümə edir.

Svetlana:

- Yox, yox, heç nə lazım deyil, otun üstündə oturacağıq, - deyib mənə baxır.

- Mən hazır,- deyirəm, - gəlin oturaq.

Qızlara xidmət göstərmək üçün onları öz yanımda oturduram. Sərvi əl çəkmir, bu dəfə maşınlardan birinin xalçasını gətirdib yerə salır.

Süfrəyə soyutma toyuq, balıq, pendir, meyvə, müxtəlif şirniyyat, göy-göyərti, içki düzürlər.

Başlamaq olar. Xanlarlı dostum Fəxri mənimlə gözləşib, işə girişir.

- İcazə verin,- deyir, - məclisimizə masabəyi seçək.

- Elə sən özün!

- Səndən yaxşısı yoxdur!

- Masabəyimiz Fəxri,- deyə hamı onun masabəyliyinə tərəfdar olur.

Fəxri qədəhini götürüb ayağa qalxır.

- Etiraz etmirəm,- deyir, - dostumun şad günündə bütün təklifləri yerinə yetirməyə hazıram. İdrak kimi bir dostun şənlik məclisini idarə etmək mənim üçün şərəfdir. Hamınız bizim bu səfalı Göygölə xoş gəlibsiniz.

Hami içir. Fəxri dərhal da ikinci sağlıq deyir:

- Qonaq bizdə ən əziz adamdır. Hələ qədimdən ata-babalarımız qonağa dərin hörmət göstərib. "Qonaq otağı", "qonaq yorğan-döşəyi", "saxla, qonaq gələr", "qonağın yanında üzüqara olarıq ha" sözləri bilavasitə bizim el-obaya aiddir. Gəlin, ənənəmizə sadiq qalaq, içək yeni qonaqlarımız Svetlananın və Aleksandranın sağlığına.

- Sağlığınıza, qızlar, - deyib hamı içir.

Onlar:

- Məmnunuq!

- Razıyıq! - deyirlər.

Fəxri əyilib bir bud götürür. Dişinə çəkə-çəkə davam edir:

- Məni yeməkdən yaxşı məhrum etdiniz. Mən də sizə imkan verməyəcəyəm... Zarafat edirəm. Siz yeməyinizdə olun, mən də danışmağımda. Deyir: "Çünki oldun dəyirmançı, çağır gəlsin dən, Koroğlu!".

Davam edirik. Bəlkə qızlar bilmir, hardan da bilsinlər? Bilirəm ki, İdrak təvazökarlıq edib özü haqqında heç nə deməyib. Mən deyim. Bu gün İdrakın 23 yaşı tamam olur. Bir az əvvəl tibb institunu bitirib. Sabah da ilk dəfə işə başlayacaq.

O, dönüb Sanyaya baxır:

- Xahiş edirəm, siz tərcüməçilik borcunuzu yerinə yetirin. Qoy daha uzaqdan gələn qonağımız söhbətimizdən kənarda qalıb darıxmasın.

Davam edir:

Fikrimi tamamlamadım. İdrak ləyaqətli gəncdir. Ən rəzil adamda belə yaxşı bir cəhət tapmağa cəhd edir. İdrakın köksündə böyük bir vətəndaş ürəyi döyünür. Onun yüksək arzuları var. O, istəyir ki, həyatda şər və pislik yox olsun.

Hər yanda yaxşılıq hökm sürsün, hər tərəfdən səadət qəhqəhələri eşidilsin. Ürək dostumu təbrik edir, gələcək fəaliyyətində ona ürəyi, arzuları qədər böyük müvəffəqiyyətlər diləyirəm.

Məni də ayağa qaldırıb qollarını boynuma dolayır. Öpür. Öpürəm.

Hiss edirəm ki, buradakı qohum və dostlar mənim şadlığıma qəlbən şərik olurlar. Axı, həmişə belə olmur. Elələri var ki, “mən dar günün dostuyam” deyib, fərəhli günündə içini yeyir, əslində dar günündə kədərinə şərik olmurlar.

Cavab qaytarmağa, razılıq etməyə, vəd verməyə çətinlik çəkirəm. Ancaq bunları deyə bilmirəm:

- Olanımdan çox-çox artıq dediniz. Bunları mən unutmayacağam. Çalışacağam istədiyiniz kimi olum. Öz sağlığımla birlikdə bütün xeyirxah adamların, ilk növbədə üzürlü səbəbə görə məclisimizdə iştirak etməyən hörmətli Bəşir müəllimin şərəfinə badə qaldırıram.

Kabab gətirirlər. Qabı alıb qızlara tərəf tuturam:

- İsti-isti götürüb bir əməlli yeyin,- deyirəm, - kabab bizim əsl milli xörəyimizdir. Əlbəttə, “bizim” sözünü bir qədər geniş mənada işlədirəm.

Fəxrinin ürəyindən xəbər verdiyimdən, kabab haqqındakı söhbəti davam etdirir:

- Lakin nədənsə, ünvanı son vaxtlar dəyişik düşüb. Kabab “şaşlık” demək deyildir. “Şaşlık” “şişlik” sözünün təhrif edilmiş formasıdır. Ruscadan olan “şompol”a “şiş” deyirik, şişə çəkilmək üçün hazırlanan ətə də “şişlik”. Xoşbəxtlikdən “lüləkabab” sözünü dəyişdirə bilməyiblər. “Lülə” isə “lüləmək” sozündəndir. “Dolma” “doldurmaq”, “qovurma” “qovurmaq”, “bozartma” “bozartmaq” və sair.

Mən:

- Bunları ona görə deyirik ki, xörəklərimizlə yaxından tanış olasınız.

Balaca qardaşım İntiqam tarı sinəsinə basır. Dostum Qalib qavalını götürür. Sərvinin ahəngdar səsi qayalarda əks edir.

İntiqam tarı qoyub, qarmonu çiyninə keçirir. İştirakçılar “Sevgilim” mahnısını oxuya-oxuya rəqs edirlər. Sveta mənə deyir ki, Sanya “Cücələrim”i ifa etsin.

- Bilirmi?

- Bilir.

Mən də Fəxriyə çatdırıram. O, əyilib Svetadan Sanyanın familiyasını soruşur. Sonra irəli çıxıb elan edir:

- Qənbər Hüseynli. “Cücələrim”.

İfa edir: Aleksandra Həkimova.

Nəqarəti: bütün musiqi həvəskarları.

Sanya məharətlə oxuyub oynayır. Hamı əl çalır.

Fəxri keçib yerində oturur.

- Hinduşka, sonra da balıq kababı gəlsin,- deyir. – Hamımızın ürəyindən olan bir sağlıq deyəcəyəm. Burada iştirak edən Təranə xanımın, Sərvi bacının, Svetlananın, İntizarın, Aleksandranın, Təbəssümün şərəfinə badə qaldıraq. Əşşi, qızsız-gəlinsiz biz nəyə lazımıq. Şəxsən mən özümü onlar olmayan yerdə heç bilmirəm. Necə deyir, Allah Fəxrini onlarsız eləməsin.

Hamı qəhqəhə çəkir. Fəxri içir.

- Dostum İdrak, - deyir, bu gün səni çox əzizlədik.

İndi növbə sənindir. Ya oyna, ya da oxu.

- Sən ki, qabiliyyətimi bilirsən, - deyirəm.

Onda şeir de.

"Deyin, gülün, balalarım" şeirini söyləyirəm. Əl vururlar. Yenə tələb edirlər. Bəxtiyar Vahabzadənin "Təklik" şeirini də hərarətlə qarşılayırlar...

Fəxri yekunlaşdırır:

- Dostlar, - deyir, getməyə iki saat vaxtımız qalır. Əməllicə gəzib, bir az da təmiz hava alın. Könüllülərə əlavə tapşırıq da var: azı əlli, çox nə qədər istəsəniz, müxtəlif yarpaq növləri yığmaq. Di iş başına. Sərvi bacı, xahiş edirəm siz də qızları müşayiət edin. Bax, bu cığırla düz yuxarı qalxın. 200-250 metrlikdə bir qayaya rast gələcəksiniz. Dibindən də iri bulaq qaynayır. Orada əl-üzünüzü yuyub bizi gözləyin. Yarım saata yır-yığış edib özümüzü sizə yetiririk.

Sərvi ilə Svetlananın söhbəti yaxşıca tutur. Sərvi çətinliklə də olsa rusca danışır, Moskvaya, moskvalılara aid sualı sual dalınca verir.

İki saatdan sonra geri qayıdırıq. Gəncə-Göygöl avtobusu da gəlib gözləyir. Qızlara qalıb bizim maşınlarla getməyi təklif edirik. Onlar avtobusla getməyi münasib bilirlər. Sürücü siqnal verir. Qızlar hamı ilə görüşüb razılıq edirlər. Yarpaq bağlamalarını götürüb tələsik avtobusa qalxırlar. Dərhal da maşın tərpənir...

Qızların ünvanını soruşmağım ancaq indi yadıma düşür.

Əgər lazım olsaydı, yazıb verərdilər.

Sonra da öz-özümə:

- Qəribə oğlanam, - deyirəm. - Mən heç nə deməmiyim halda yazıb zorla cibimə dürtməyəcəklər ha.

Nə isə... Bütün yol uzunu özümü danlayıram.Yaxşı ki, maşının içi qaranlıqdır. Qaşqabaqlı olduğumu uşaqlar görmürlər. Gözlərimi yumub geri söykənmişəm. Sürücünün yanında oturan Sərvi isə:

- Yorğundur, yatır. Sakit olun, qoy dincəlsin, - deyib heç kəsi danışmağa qoymur...

*11 dekabr*

*Döyüşə girərkən onun nə ilə nəticələnəcəyini*
*düşünən adam igid ola bilməz.*
*Şamilin qılıncı üzərində yazı.*

Rayon partiya komitəsinin bürosu. Səhiyyə birliyinin işi müzakirə edilir. Raykomun birinci katibi Şücayət Mərdanov mənə tərəf çevrilir:

- Cavan oğlan, - deyir, - bəlkə siz deyəsiniz, adamlara. Tibb xidmətinin bu hala düşməsinin səbəbi nədir?

Ayağa qalxıram. Lakin nə deyəcəyimi bilmirəm. Ömrümdə bircə dəfə büro görmüşəm. Partiya üzvlüyünə namizəd keçəndə. Onda da suallar veriblər. Mən də
kitablardan öyrəndiyimi demişəm. İndi nə deyim?!

Sizi gözləyirik, yoldaş həkim, - deyə katib tələbkarlıqla səslənir.

Karıxıram.

- Mən, mən cəmi dörd aydır ki, işləyirəm. Lakin işimizdə elə bir yaxşı sahə yoxdur ki, deyəm.

- O bizə aydındır! Mən pis işləməyinizin səbəblərini dedim.

Cəsarətimi toplayıram. Dörd aylıq işlərimizi gözlərim önünə gətirirəm. Boğazımı arıtlayıb, fərqinə varmadan düşündüklərimi deyirəm:

- Məncə əsas nöqsan odur ki, biz, ancaq müalicə etməklə məşğuluq. Təbabətdə isə bu, işin ikinci sahəsidir. Tibb işçisinin birinci borcu xəstəliyə qarşı mübarizə aparmaqdır. Nə etməli, necə etməli ki, adamlar xəstələnməsin - işin əsas sahəsi budur.

Biz qabaqcadan düşünmür, profilaktik tədbirlər görmür, xəstəliklərin yayılmaması üçün narahat olmuruq. Kütlə ilə iş aparmır, adamların məişətinə daxil olmuruq. Atalar deyiblər ki, hər bir adam özünün həkimi olmalıdır. Bu,o deməkdir ki, adam özünü qorumalı, yemək-içməyinə, işləməyinə,

istirahətinə, yatıb-durmağına fikir verməlidir. Lakin necə? Hansı yollarla? Həmin yolları isə hər bir vətəndaşa biz açıb göstərməliyik. Bunlar isə həkimdən dərin nəzəri və təcrübi bilik tələb edir. Bizdəsə öyrənməyə səy göstərilmir. Çoxlarımız elə dərmanlar üçün nüsxə-resept yazırıq ki, onların adı hazırda əczaçılıqda çəkilmir, bir neçə il qabaq başqa dərmanlarla əvəz edilib. Dibro deyib ki, mən kitab oxumadıqda düşünməkdən qalıram. Kim məndən inciyir, qoy incisin, açığını deyirəm ki, bizdə oxumaq, öyrənmək birdəfəlik
yaddan çıxıb.

Dayanıram. Katib bu dəfə mehribanlıqla:

- Davam et, həkim, davam et, - deyir.

- Kollektivimizdə işçilərin bir-birinə qarşılıqlı münasibəti də ürəkaçan deyildir. Çoxları ancaq özünü düşünür. "İntizam, birlik qələbənin rəhnidir" - deyiblər. Bizsə əksinə edirik. Krılovun təmsilində olduğu kimi, arabanı hərəmiz bir tərəfə çəkirik. Belə olmamalıdır. Hamı çəkici bir yerə vurmalıdır.

Daha sonra, xəstələrlə bəzən məmur kimi rəftar edirik. Həkim ancaq dərmanla deyil, xoş söhbəti, səmimi münasibəti, bir sözlə, danışığı və mimikası ilə də müalicə etməlidir.

Uzunçuluq etdiyimi hiss edib icazə ilə oturutwuram. On dəqiqəlik tənəffüs elan edilir. Biz gözləmə otağına çıxırıq. Büro üzvləri qalır. Bir neçə dəqiqədən sonra baş həkimi də içəri çağırırlar. Tənəffüs xeyli uzanır. Bizi yenidən içəri dəvət edirlər. Büro üzvləri, demək olar ki, danışmır, ancaq təkliflər edirlər. Baş həkimə

töhmət verirlər. Onun müavinini isə işdən kənar edirlər. Təsərrüfat üzrə müavinin işini isə təhqiqat orqanlarına köçürməyi qərara alırlar. Digər dəyişikliklər də olur. Büro üzvlərindən rayon komsomol komitəsinin katibi İqbal Əşrəfzadə müavinliyə mənim verilməyimi təklif edir. Təklif mübahisəyə səbəb olur:

- Gəncdir, təcrübəsizdir, - deyirlər.

Mərdanov ayağa qalxır, etiraz edir. Əşrəfzadənin təklifini bəyənir:

- Pis, faydasız təcrübədən təcrübəsizlik yaxşıdır. Kütləşmişin bərpa olunmasından, təcrübəsizin öyrədilməsi daha faydalıdır, - deyir...

Bürodan çıxanda qulağıma bu sözlər dəyir:

- Özünü yaxşı oda saldı.

- Görək bu ağzından süd iyi gələn nə edir?

- Cücəni payızda sayarlar...

*21 Dekabr*

*Nəsihət acıdır, nəticəsi şirin.*
*Atalar sözü.*

Mənə müavinlik əmri verirlər.

Baş həkim məni ayrılıqda yanına çağırır.

- Doktor Zəfərzadə, - deyir, - kənd xəstəxanasında pis işləmədin. Ancaq unutma ki, orada altı kəndə baxırdın. İndi isə 38 kənddə aparılan işə başçılıq etməlisən. Özü də müalicə kimi həlledici sahəyə. Əl-ələ verib işləyək. Çəkinib eləmədən hərəkət et. Kimi istəyirsən dəyişdirək. Təki işlərimiz qaydaya düşsün.

Son fikrə etiraz edirəm:

- Adamları dəyişməkdənsə, iş üsulunu dəyişmək

lazımdır. Biz, yaxşılıqla tələbkarlığı qarışdırmamalıyıq. Tələbkar olmaq üçün də tələb edənin şəxsi nümunəsi, fədakarlığı gərəkdir.

- Nəyi nəzərdə tutursan?

- Mən demaqoq deyiləm. Heç vaxt, heç yerdə demədiyim sözü üzünüzə demək istəyirəm. Bəzən işə vaxtında gəlmirsiniz. Mərkəzə bir günlüyə çağırıldıqda üç-dörd gün gecikir, bir maşını da özünüzlə məşğul edirsiniz. İşçiləri qabiliyyətinə görə deyil,sizə göstərdikləri münasibətlərinə görə qiymətləndirirsiniz. Bunlar da kollektivdə pərakəndəliyə, ruh düşkünlüyünə səbəb olur. Baş həkimin rəngi dəyişir. Onu tər basır. Gözləri qızarmağa başlayır. Lakin dinib-danışmır...

*2 Yanvar*

*Gününü həmişə bayramda keçirən*
*adam üçün əsil bayram olmur.*
*Frank Nayt ZANDERS,*
*Amerika fizioloqu.*

Rayon mərkəzindəki xəstəxanadayam. Palatalara baxıb baş həkimə zəng edirəm. Sanitariya və epidemiologiya stansiyasının müdiri ilə kənd xəstəxanalarına və tibb məntəqələrinə getmək istədiyimi deyirəm. Bayram günü olduğunu, işçilərin istirahətinə mane olmamağı xatırladır. Mudirlə və "QAZ-60"in sürücüsü ilə danışdığımı, onlarin könüllü getdiklərini bildirirəm..

Etiraz etmir.

Saat dörddə Qılınclı kəndinə çatırıq. Xəstəxanada

şəfqət bacısı Həbibədən və 5 nəfər xəstədən başqa heç kəs yoxdur. Xəstəlik tarixçələri ilə maraqlanırıq... 11 nəfər xəstə olduğu göstərilib. Onlar üçün ərzaq və xaric yazılıb. Həbibə deyir ki, yeni il olduğu üçün evlərinə buraxmışıq.

- Xəstələrə bu gün nə veribsiniz?

- Günorta?

- Tezdən çörək, qənd və çay.

- Sup və kompot.

- Axşam nə verəcəksiniz?

- Çay və peçenye.

- Ərzağın qiymətini hesablayırıq. Hər xəstədən 21 qəpik kəsilib. 6 nəfərin payı isə tamam mənimsənilib.

- Bəs tibb işçisi də xəstədən oğurluq edərmi?

- Xahiş edirəm, oğrunuzu tapın. Bunu məndən yox, həkimdən soruşun.

- İsti şorba ilə soyuq kompotu necə? Belə müalicə üsulunun olub-olmamasını kimdən soruşaq?

- Həkimdən, xəstəxananın böyüyündən!

- Axı...

- Axısı-filani yoxdur. Nə istəyirsiniz, qardaş, məndən. Eşşəyə gücünüz çatmır, palanı tapdalayırsınız?!

Onun gözləri dolur.

- Sakit olun, sakit olun, Həbibə xanım, - deyirəm.

- Həkim özü haradadır?

- Bir həftə qabaq şəhərə gedib.

- Kimdən icazə alıb?

- Ona nə icazə?!

Zəng etmək istəyirəm. Telefonun dəstəyi əlimdə gəlir.

- Telefonumuz işləmir.

- Yoldaşlıq məktubu yazıb sürücüyə verirəm. Kənd sovet sədrinə və partiya təşkilat katibinə çatdırmasını deyirəm.

Xəstələr olan otaqlara giririk. Birinci palatada hamiləlikdən yeni azad olmuş gəlinlə, vərəm xəstəliyinə tutulmuş yeni bir gənc qız və ağsaçlı bir qadın yatır. Onları müayinə edirik. Qadından soruşuruq:

- Bu gün sizə nə dərman veriblər?

- Heç nəmənə, ağrın alım.

- Bacı, bəs sizə?

- Bilmirəm, ağ gül dərmanı.

Yaşlı qadın hirslə gəlinə baxır:

- Ay qız ,- deyir, - kişiləri niyə aldadırsan?!

Gəlin susur.

İkinci otağa keçirik. Sobanın yanında oturan kişi ayağa qalxır. Salamımızı aldıqdan sonra soruşur:

- Həkimsiniz, ay oğul?

- Bəli.

- Ay bala, belə də zülümmü olar? Bir həftədən artıqdır ki, burdayam. Nə baxan var, nə də buraxan ki, gedib xarabamızda ölək.

- Nədən şikayətlənirsən, əmi?

- Gözlərimə ət gəlir.

Gözlərinə baxıram.

- Deyərik, indi paltarlarınızı gətirərlər.Geyinin rayon xəstəxanasına göndərək.

- Allah sizə bəxt versin, balalarım.

- Bəs sizinlə yatan xəstə hanı?

- Elə sizdən bir az qabaq çıxdı. Dedi ki, gedim kənd yeməkxanasındasa ağıllanım.

Qəbul otağına qayıdırıq. Dəvət etdiyimiz adamlar gəlib bizi gözləyirlər. Özgə bir şəfqət bacısı çağırtdırıb qocanı və vərəmli qızı rayon xəstəxanasına göndəririk. Sürücüyə qalan xəstələr üçün lazımi dərmanlar gətirməsini tapşırırıq.

- Bağışlayın, öz gözlərinizlə görməniz üçün sizə əziyyət verdik, yoxsa özümüz yanınıza gələrdik, - deyib sədrdən və təşkilat katibindən üzr istəyirəm. Onları vəziyyətlə tanış edirik. Akt yazılır. Şəfqət bacısı qol çəkməkdən imtina edir.

- Çox elə aktlar yazılıb. Deyir: çaxçax ha çaqqıldasın, dəyirman daşı öz bildiyini edəcək.

...Söhbətlərimizin qalanını kolxoz sədrinin otağında davam etdirdik. Belə şərtləşdik ki, kolxozun köməyilə xəstəxanada mərkəzi qızdırma sistemi yaradılsın, binaya

əlavə olaraq dörd göz artırılsın, habelə hamam tikilsin.

Kənd rəhbərləri, həmin məsələləri müzakirə etmək üçün ayın 7-də kolxozçuların ümumi yığıncağını çağırmağı qərarlaşdılar...Elə sabahkı heyət iclasındasa digər heyət üzvlərilə də məsləhətləşəcəklərini dedilər...

Qalxıb heyvandarlıq fermalarına gedirik. Maldarlar qırmızı guşəyə dəvət edilir. Heyvanların mühafizəsinə dair 15-20 dəqiqəlik söhbət keçiririk...

Şiddətli yağan qar, əsən güclü külək qonşu Şəlalə kəndinə getməyimizə imkan vermir. İki kəndin arasında maşın batır. Differensial qara toxunduğundan, ciddi-cəhdimiz heç bir fayda vermir. Qılıncılıya piyada qayıdırıq. Maşını çıxarmaq üçün traktor göndəririk. Gecə saat ikiyə yaxın rayon mərkəzinə dönürük.

*26 Yanvar*

*Xəyalsız insan meyvəsiz ağaca bənzər.*
*Atalar sözü.*

Tibb ocaqlarının xeyli hissəsini nəzərdən keçirmiş, idarə və müəssisələrin, kolxoz və sovxozların başçıları ilə məsləhətləşmiş, bir sıra planlar cızmışıq. Elə yerindəcə müəyyən işləri qaydasına salmışıq. Qılınclıdakı mühazirədən sonra məni üç kəndə dəvət ediblər. İkisində artıq söhbət keçirmişəm. Martın 5-də üçüncüyə gedəcəyimi vəd etmişəm.

Bu gün baş həkimlə RİK sədrinin qəbulunda olduq.

Xəstəxanaları lazımi əşya və müasir avadanlıqla tə min etməkdən ötrü təkliflərimizi irəli sürdük. Sədr bəyəndi. Belə şərtləşdik ki, mən mərkəzə gedim, əlaqədar təşkilatlarla danışım, nə mümkünsə, alıb özümlə gətirim. Qalanlarını da sifariş edim.

Yola hazırlaşmaqdan ötrü işdən çıxan kimi mənzilimə gəldim. Buranı mənə təzə veriblər. Əvvəlcə burada rayon qəzetinin redaktoru yaşayırdı. Uşaqları

çox olduğundan yeni istifadəyə verilmiş yaşayış binasından ona çoxotaqlı mənzil verdilər.

Ayrıldıqda mənzilim olduğunu eşidən Sərvi ilə İntiqam gəlmişdilər. Özləri ilə də yorğan - döşək, qab-qacaq gətirmişdilər. Artırdığım puldan verib iki ağac çarpayı, kitab şkafı, yemək stolu, dörd ədəd stul aldıq. Tapşırdılar ki, gələn ay onlara pul göndərməyim, nə qalsa verib, radioqəbuledici alım. Nə isə, mənzilim qaydasındadır. Redaktorun dəstəyində barmaq izi qalan telefonu da mənə qalıb. Mənzildə balonla işləyən qaz plitəsi və xırdaca hamam da var.

Evində kirayəçi olduğum ailədən narazı deyiləm. Lakin orada istədiyim vaxt yazıb - oxuya bilmirdim. İndisə bu sahədən də tam asudəyəm.

Çamadanımı qabqarıb, bu günkü qəzetlərə baxıram. Sonra gündəliyimi açıb qeydlər etmək istəyirəm.Vərdiş etdiyimdən qeyri-iradi olaraq, Göygöldə keçirdiyimiz saatları təsvir etdiyim səhifələri vərəqləyirəm. Özüm də bilmirəm, axı, nə səbəbə o günü, o gözəl günü unuda bilmirəm?! Elə bir gün olmayıb ki, bu dəftəri açanda, Göygölü, onun əfsanəvi görkəmini, məni düşüncələrdən ayıran şaqrar gülüşləri yad etmiş olum.

Beş ay keçir. Bu müddətdə diqqətsizliyim üçün təəssüf edir,dönə-dönə peşmançılıq çəkirəm. Svetlana, onun şux, mütənasib görkəmi, incə təbəssümü, gülümsəyərkən batan yanaqları gözümün önündən uzaqlaşmır. Heç kəsə meyl salıb, heç kəsə baxa bilmirəm. Elə bir dünyada ondan başqa bir qız, bir gəlin yoxdur. Axı, mən nədən, niyə bu hala

düşmüşəm?! Nə haqla?! Nə ixtiyarla?! Bir neçə saatlıq görüşdən sonra, aramızda bir kəlmə söhbət olmadığı halda belə hərəkət etməyə mənim nə ixtiytarım var?! Bəlkə...

Fərqi yoxdur! Onu axtarıb tapacağam. Heç olmasa bircə dəfə doyunca baxıb, yenidən gülüşlərini eşidəcək, söhbətini dinləyəcəyəm.

Sabah baş həkimdən icazə alıb, bir gün Gəncədə qalacaq, Sanyanı axtaracağam. Onu tapsam, Svetanın ünvanını götürəcəyəm. Sanyanı haradan tapım?

Gəncədə yüzlərlə Sanya var... Dayan, tapmışam. Familiyası ki, gündəliyimdə var... 19 avqust. Göygöl... Fəxri Svetadan soruşub elan edir. “Cücələrim”, ifa edir Aleksandra Həkimova... Bəlkə Akimova... On birinci sinifdə oxuyacağını özü mənə dedi.Yox, Əsgərin Süleymana ehtiyacı var. Süleymansız iş aşmaz. Xanlara gedib, Fəxri ilə danışacağam. Zirək dostdur, bir əncam
çəkər.

Kefim açılır. Zümzümə edir, çırtıq vurub, Əsgərlə Süleymanın duetini oxuyuram. Qonşum həmyaşıdım Fikrət müəllim səsimi eşidib qapını döyür. Açıram.

- Ay həkim, səndən nə əcəb, - deyir.

Sabah səfərə çıxıram. Odur ki, ilham dağarcığım daşıb. Otur görüm. Özünü qəhvəyə qonaq, şahını da mat edim.

O, oturur. Qəhvə hazırlayıram. Oynayırıq. Bu gün bəxtim şahmatda da gətirir.

*28 Yanvar*

Fəxri şəhər maarif şöbəsində müfəttiş işləyən tanışının köməyilə Sanyanın hansı məktəbdə oxuduğunu öyrənir. Dərsin qurtarmasına bir az qalmış həmin məktəbin darvazası önündə dayanıb gözləyirik. Sanya çıxır. Bizi xeyli uzaqdan tanıyır. Kef-əhval soruşuruq. Bizi evə təklif edir. Tərəddüd etdiyimizi hiss etdikdə deyir:

- Heç narahat olmayın. Sizinlə görüşümüz barədə evdəkilərə danışmışıq. Bütün ailə üzvləri sizi qiyabi də olsa tanıyırlar. Gedəyin. Anam da bu gün işləmir, evdədir.

- Onda siz söhbət edin, mən on-on iki dəqiqəyə gəlirəm, - deyib Fəxri bizdən aralanır. Dediyi vaxtda da qayıdır. Əlində də iri çiçək dəstəsi.

Aqniya İvanovna bizi səmimiyyətlə qarşılayır. Əl-ayağa düşüb, xörək hazırlamaq istəyir. Tələsdiyimizi, mənim yol üstündə olduğumu bildiririk. Çay içməyə razılaşırıq.

Aqniya Ivanovna sözə başlayır:

- Nə yaxşı gəldiniz, ay uşaqlar?! Qızlar sizdən o qədər danışıb ki! İkisinə də tapşırmışdım ki, harada, hansınıza rast gəlsələr evimizə dəvət edib, bizimlə tanış etsinlər. Misal var, deyir, dağ - dağa qovuşmaz, adam-adama qovuşar. Təəssüf ki, Boris gec gələcək, sizi görə bilməyəcək.

O, çıxıb qızına nəsə tapşırır. Qayıdıb söhbətinə davam edir:

- Uşaqlar, məni qınamayın, həyatda nəcib, xeyirxah, təmənnasız əl tutan adamlara hər vaxt rast

gəlmək olmur. Sveta adınızı dilindən salmırdı. Sizi deyə-deyə getdi. Qiz məəttəl qalmışdı. Deyirdi ki, ay xala, mən azərbaycanlılar barəsində başqa təsəvvürdə idim. Qonşumuzda olan qoca bir qafqazlı hey deyirdi ki, azərbaycanlılar insafsızdırlar, mədəni cəhətdən geridirlər, qadına qarşı vəhşi münasibət göstərirlər. Sveta deyirdi ki, qayıdanda o əyriburun kişinin səhv etdiyini üzünə deyəcəyəm. Ona sübut edəcəyəm ki, azərbaycanlılar həm qədim, həm də müasir mədəniyyətə malik olan nəcib, həssas, nikbin ruhlu adamlardır. Səxavətlərinə isə söz ola bilməz. Onlar heç kəsə nifrət etmir, heç kəsin pisini istəmirlər. Qızlarını, gəlinlərini də gördüm, qarşılıqlı münasibətlərini də. Formaları, adət-ənənələri, üzlərinin cizgiləri milli olsa da, düşüncələri tam bəşəridir.

Bəşir müəllimdən eşitdiyim bir əhvalatı xatırlayıram

İki yoldaş bir qocanın qonağı olur. Dünyagörmüş qoca onlarla xeyli söhbət edir. Gənclərdən biri bayıra çıxdıqda, o birindən yoldaşının necə adam olduğunu soruşur. İçəridə qalan gənc həya etmədən deyir:

- İtin biridir.

İkinci də birincinin "eşşəyin biri" olduğunu söyləyir.

Qoca həmin gün şama qonum-qonşudan da adam çağırtdırır. Hamı süfrə ətrafında əyləşir. Qonaq gəncləri də adətə uyğun olaraq fəxri yerdə oturdurlar. Hamıya xörək gətirirlər lakin gənclərə yox. Oturanları təəccüb götürür. Axı, ilk növbədə qonaqlara yemək gətirmək lazım idi.

Həç kəsin əlini tərpətmədiyini görən qoca:

- Qonaqlara da yemək gətirin, - deyir. Gətirib birinin qabağına yonca, digərininkinə sümük qoyurlar.

Müdrik qoca deyir:

- Təəccüb etməyin, onlar özləri bir-birini belə təqdim ediblər. Mən də ləyaqətlərinə görə hörmət göstərməyi tapşırmışam. Lakin bu söhbəti burada danışmağı yersiz bilirəm. Deyirəm ki, özünə hörmət edən başqasına hörmətsizlik etməz. Birindən soruşublar ki, nə üçün hamıya hörmət edirsən? Cavab verib ki, hamının mənə hörmət etməsi üçün.

- Doğrudur, oğlum, - deyə Aqniya İvanovna söhbətini davam etdirir:

- Özgənin pisini deyən, heç kəsin xoşuna gəlmir. Cavansınız, unutmayın ki, el-obasını sevən adam ona düşmən deyil, dost qazanar.

Sanya çay, şirniyyat və meyvə gətirir. Anası onun da oturmasına icazə verir. Söhbətin şirin yerində qapının zəngi çalınır. Sanya gedib açır. Bir dəstə qəzet və məktubla qayıdır. Məktubu görən kimi uşaq sevinclə qışqırır:

- Svetadandır, Svetadandır!

Yan otağa keçir. Az sonra gəlib, fərəhlə deyir:

- Hamınıza salam göndərir.

Fəxri ilk dəfə söhbətə qarışır.

- Bizə də?

- Bəli sizə də. İnanmırsınızsa, alıb özünüz oxuyun.

Ürəyimdə deyirəm: Süleymanın əlinə fürsət düşüb görək necə istifadə edir.

Fəxri:

- Özgənin məktubunu oxumaq yaxşı deyil axı?

- Eybi yoxdur, alın oxuyun, elə bir sirli söz yoxdur.

- Kim oxusun?

O, duruxur. Sonra:

- Qoy onda özüm oxuyum, hamınız qulaq asın.

Oxuyur:

- Saşa, salam!

Sizdən qayıdandan beş məktub yazmışam. Ancaq ikisinə cavab almışam. Bacı, niyə məktub yazmırsan?

Xalamdan nigaranam. Yenə çoxmu çalışır? Heç olmasa evdə əlləşməyə qoyma. Mübariz əmi necədir? Şahin institutu qurtardıqdan sonra aspiranturada qalmaq istəyir, yoxsa işləmək?

Tez və ətraflı məktub yaz. Ürəyim sizi istəyir. Qış tətilində gəlmək istəyirdim. Sonra fikirləşdim ki, yaya qalsın. Azərbaycanın baharı, yayı daha gözəl olur. Bacı, Göygölü, Kəpəzi, Hacıkəndi unuda bilmirəm. Ritca gölünü də görmüşəm. Göygöl ondan xeyli qəşəngdir. Göygölün suyu göz yaşı kimi şəffafdır, ətrafındakı meşə daha zəngindir. Kəpəz isə möcüzədir.

Nə qədər xoşbəxtsən, Saşa! Sizin yerdə yaşayan adamın dərd-qəmi olmaz. 150 nədir, 250 il ömür sürər. Adamlarınız haqqında söz tapmaq olmur! Kaş bütün insanlar Sərvi, İdrak, Fəxri, İntiqam təki olaydı. Tanımaya-bilməyə bizə nə qədər hörmət, nəzakət və ehtiram göstərdilər.

Saşa, onların hansına rast gəlsən, mənim də salamımı çatdır.

Qrupumuzda oxuyan Məhbubə adlı bir qızla dostluq edirik. Qazaxdandır. Sərvi kimi alicənab, qayğıkeş yoldaşdır. Vaxt olduqca ondan azərbaycanca öyrənirəm. Gör düzmü yazıram?

Aleksandr Mübariz qızı Həkimova mənim xalam qızıdır. Şahin xalam oğludur. İkisini də sevirəm.

Səhvlərimi Məhbubə düzəltdi. "Mənim xalam qızıdır" hissəsindən mənim sözünü qaralamaq istədi. Deyir bizdə buna ehtiyac yoxdur. Mən razı olmadım. Yaz görüm o düz deyir? Bilirsənmi, o da birinci sinifdən rusca oxuyub...

Hamınızı öpürəm.

Hörmətlə, Svetlana

Sanya qurtarır. Mən razılıq edirəm. Fəxri:

- Razılığı kimə edirsən? - deyir. Zəhmət çəkib məktub yaz, razılığı da özün bildir. Şükür, rusca quraşdırmaq ki, bilirsən.

- Əvvəla, yaxşı düşməz, - deyirəm. - İkinci də ünvanı bilmirəm.

Sanya anasına baxır. Aqniya İvanovna:

- Pojalyusta, - deyir, - istəyirsiniz, yazın. Qızcığazım, zərfi də ver, kağız - qələm də, qoy yazsın.

- Sağ olun, özümdə kağız - qələm var, deyib sevinclə cib dəftərçəmi açıram. Lakin Sanya zərfi göstərib deyir ki, öz ünvanına yazmayıb.

Aqniya İvanovna:

- Eyb etməz, özüm bilirəm, deyim yazın: Moskva, Kutuzov prospekti, ev nömrə 26, mənzil 227. Düzmü oldu, qızım? Ev yadımdadır, amma deyəsən mənzili səhv saldım.

Bu dəqiqə, dəftərçəmi gətirim, olduğu kimi deyim.

Sanya qalxıb ünvanı bütünlüklə oxuyur. Səhvi düzəldirəm.

Söhbətimizi yekunlaşdırıb, getmək üçün icazə alırıq.

Aqniya İvanovna deyir:

- Şəhərə yolunuz düşəndə bizi unutmayın. Çəkinib eləməyin, elə bilin ki, öz evinizdir. Sizin xoş qədəmləriniz bu gün bizə sevinc gətirdi. Həmişə gəlin!

*9 Aprel*

*Qurda rəhm etmək - qoyuna zülm etməkdir.*
*Atalar sözü.*

Dünən Mərdanovu xəstəxanaya gətirdilər. Halı çox xarab idi. Ürəyi taqətdən düşmüşdü. Lakin özünü sərbəst aparır, gümrah görünməyə çalışırdı.

Xəbər dərhal Mərkəzi Komitə katibinə də çatıbmış. O, zəng edib vəziyyətlə maraqlandı. Tezdən professor göndərəcəyini dedi və tapşırdı ki, bir balaca əməllənən kimi mərkəzə götürəcək.

MK katibinin sözlərini ona çatdırdıq.

- Heç nə lazım deyil, - dedi, - Məndən arxayın olun. Daha hər şey qaydasına düşüb. Yatmaq istəyirəm. Siz də gedin dincəlin.

O, yuxuya getdi. Biz, evimizə dağılışdıq.

Tezdən gəldik ki…

Növbətçi həkim nəql etdi ki, sizdən sonra ehmalca qapını açdım. Qalxıb palatada gəzinirdi. Elə bil xəstəxanada deyildi.

Dedi:

- Həkim, telefonla danışmaq istəyirəm.

Nə səbəb gətirdimsə təkzib etdi. Qoluna girməyə də razı olmadı. Sərbəst addımlarla telefona yaxınlaşdı. Telefonçu qıza dedi ki, MK katibini calaşdırsın. Ona qədər öz evilə danışdı. MK katibilə danışarkən dedi:

- Artıq hər şey öz yolundadır. Əgər həkimlər icazə versələr elə bu saat xəstəxanadan çıxa bilərəm. Xahiş edirəm ki, heç kəsə havayı yerdən əziyyət verməyin.

Dəstəyi qoyub mənə döndü:

- Həkim, daha yuxum gəlmir. Varsa, mənə bir qədər kağız verin, qeydlər etmək istəyirəm.

Razılaşmadım. Yenə məni yendi. Şübhə yeri də qoymadı. Qələm və iki-üç vərəq kağız götürdüm.

- Gedək palataya, - dedim.

- Özümdə qələm var. Kağızı bir qədər artırın.

Palataya girən kimi oturub yazmağa başladı. Mane olmayım deyə dəhlizə çıxdım. İki-üç dəfə qapının arasından baxdım. Rahatca işləyirdi. Arada bir dəfə qapını açıb:

- Bəlkə, bir şey lazımdır, - bəhanəsilə baxmaq istədim.

Gülümsündü:

- Yorğunsunuz, gedin istirahət edin. İndicə qurtarıb yatıram.

Bir də baxanda gördüm ki, başı dolbaçanın üstünə enib. Elə bildim ki, yuxuya gedib. Şəfqət bacısını çağırdım ki, köməkləşib oyatmadan çarpayıya uzada.

İçəri girdik. Qələm əlindən düşməmişdi. Alıb kənara qoymaq istədim. Barmaqları kilidləşmişdi…

Vərəqləri götürdük. Aydın və gözəl xətlə yazılmışdı:

"Mənə doğma olanlara!

Son dəqiqələrimi yaşayıram. Çəkinmədən, göz qırpmadan ölümü gözləyirəm. Axı, əhdə vəfalı olmaq lazımdır. Bəlkə xəbəriniz yoxdur? Haradan da olsun? Bunu bir mən bilirəm, bir də tale. Deyim, siz də bilin. Biz belə şərtləşmişdik: tale məni bütün arzularıma çatdırmalı, mənsə ona dünyada mənə ən qiymətli olan ürəyimi hədiyyə verməli idim.

Tale öz əhdinə bivəfa çıxmadı. Bəs mən niyə çıxım?!

Mən, hələ uşaqlıqdan asudə olmuşam. Könlüm nə istəyibsə ona əməl etmişəm. Doyunca atılıb-düşmüş, nadinclik etmiş, gülmüş, qəhqəhə çəkmiş, ağlayıb göz yaşı axıtmış, pislik və yaxşılıq etmişəm.

İki sözü izah etmək istəyirəm. Göz yaşım ancaq on iki yaşıma qədər görünüb. Ondan sonra isə gözümdən su çıxmayıb. Belə güman etməyin ki, heç ağlamamışam. Xeyr! Zaman elə gətirib ki, mən çoxlarından fərqli olaraq, özümü daha tez -12 yaşımdan kişi sanmışam.

Həmin vaxtdan da ürəyimdə ağlamışam. Dəfələrlə ürəyim sızıldayıb, göynəyib, qovrulub yanıb. Odur ki, göz yaşımı yerə axıtmamışam, onunla ancaq qəlbimin

atəşini söndürmüşəm.

Yaxşılıq və pislik barədə. Mən yaxşılıq üçün doğulmuşam. Aldığım tərbiyə məni ancaq xeyirxah göstərməyə sövq edib. Yaxşıya qarşı, yaxşılığa qarşı yaman kəsilməmişəm. Heç vaxt öz yaxşılığım üçün başqasının pisliyinə səbəb olmamışam. Öz səadətimi başqasının fəlakəti hesabına təmin etmək istəməmişəm. Lakin mən hamıya qarşı yaxşı olmamışam. İlk gəncliyimdə ucdantutma yaxşılıq etsəm də, sonradan səhvimi düzəltmişəm. Pisliyə qılınc kəsilmişəm. Axı, cəmiyyət ancaq yaxşılardan ibarət olmadığı halda sən necə hamıya yaxşılıq etməlisən?!

Təsəvvür edin. Biri pisdir, arzusu, əməli, qayəsi pislikdən ibarətdir. Hamının pisini istəyir. Ömrü boyu pislik toxumu səpir. Pislikdən zövq alır… Belə bir adamın yaşamasını, yaxşı olmasını istəmək, pisə yaxşı olmaq, ona qol-qanad vermək, cəmiyyəti zibilləmək olarmı? Qətiyyən yox!

Pisə qarşı pis olmaq, pisliyi məhv etmək, mənfini mənfiyə vurub müsbətə çatdırmaq hər bir yaxşının borcu olmalıdır. Bax, buna görə mən doyunca pislik də etməmişəm. Lakin inanın: ancaq özümə qarşı deyil, rəqibimə qarşı haqsız olanlara qarşı da qənim olmuşam.

Sizdən nə xahiş edirəm? Pislərin qəddinin düzəlməsinə imkan verməyin. Hətta, mənim ölümüm günü belə bir dəqiqə vaxt itirməyin. Mənə ağlamayın. Yaşarmış gözləriniz toplanar. Yaxşını pisdən seçə bilməzsiniz. Bu, mənə böyük hörmətsizlik olar.

Sizi and verirəm məsləkinizə, mənə ağlamayın. Daha doğrusu, ağı deməyin, hay-haray salmayın, gözünüzdə yaş görünməsin. Əgər özünüzü saxlaya bilməsəniz ürəkdən, ciyərdən ağlayın. Bir də təkrar edirəm: qoy göz yaşlarınız axıb, pislik rüşeymlərini cücərtməsin. Qəlbinizin, ciyərinizin alovunu keçirtsin.

Axı, bir deyin görüm, kimə və nəyə ağlayırsınız?! Sizə dedim ki, mən ölümə meydan oxuyuram, onu zorla dəvət edirəm, məni öldürməyə məcbur edirəm. Nə qədər ki, mən istəmirdim, o, mənə yaxın düşə bilmirdi. Yalvardı, yaxardı, "planını" həyata keçirmək üçün ayaqlarımın altına düşdü. Lakin mən onu qapımdan qovdum. Axı, ölüm də həyasız adam kimidir. Qarşındakını aciz, gücsüz gördükdə yaxasından əl çəkmir. Özündən qüvvətliyəsə yaxın düşməyə cəsarət etmir. İndisə ona əmr edirəm. Əmr edirəm ki, al mənim canımı. O da əmrimə qul kimi itaət edir. Anlayırsınızmı? O, istədiyi vaxt, mənə üstün gələ bilmədi. Mənsə, onu istədiyimə məcbur edirəm.

Bax, buna görə gərək məni sevənlər, bədbinləşməyə, əksinə, nikbinləşə, şənlənə. Lakin hırıldamaya, bu da lazım deyil. Boğazdan yuxarı gülüb, boğazdan yuxarı ağlayanlara ar olsun! Saxta təbəssüm, saxta göz yaşı? Yox! Mən bütün ömrüm boyu buna nifrət etmişəm. Hisslərimə qüvvət verən böyük ideyalar şairi nə qədər də yerində deyir:

*Qardaş, min duyğu ötsün ürəyindən bir anda,*
*Sən qımışma güləndə, inləmə ağlayanda.*
*Ağlasan, hönkür ağla, gülsən, qəhqəhə çək gül,*

*Gülsən də, ağlasan da,tamam doysun qoy könül.*

Bilin ki, mən dünyadan nakam getmirəm. Bahar qədər dəliqanlılıq etmişəm. Yay qədər bəhrə verməyə çalışmışam. Payız qədər yorğunlaşmışam. İndi də qış kimi yuxuya dalmaq istəyirəm. Bəs nə üçün siz mənə ağlaşma qurub, səs - küy salasınız, yuxuma mane olasınız?! Ürəkdən sevib, ürəkdən nifrət edən, ürəkdən işləyib, ürəkdən yaşayan, indi də ürəkdən dincəlmək istəyən bir adamın dincliyini, sakitliyini pozasınız?!

Əgər mənə öz borcunuzu vermək istəyirsiniz, verin, nə deyirəm. Mən də heç kəsə borclu qalmaq istəməmişəm. Onda istəklərimi davam etdirin. Həyata keçirə bilmədiyim arzularımı həqiqətə çevirin. Təbiətin və cəmiyyətin daha da yaxşılaşması üçün inamla mübarizə edin.

Üstündən keçdiyim torpaq yolların qalanına asfalt döşəyin. Kənarlarına gül-çiçək, ağac əkin. Qoy bu yollardan keçənin ayağı ilişməsin, nəqliyyat rahat işləsin. Ağaclar adamların üzərinə kölgə salsın, ürəyini sərinlətsin, gül-çiçək rahiyyəsi onlara zövq versin. Bütün keçilməzliklərdən körpü salsın. Qoy insan ayağı dəyməmiş bir yer, bir zirvə qalmasın. Yeni, uca, işıqlı evlər tikin. Bircə körpə belə işığa, günəşə, təmiz havaya ehtiyac duymasın. Ana təbiətin hər tərəfinə su, dirilik suyu çəkin. Amandır, onun bağrının çatlamasına imkan verməyin. Elə edin ki, o, sizdən, insandan narazı qalmasın. Sizin qarşınızda özünü həmişə borclu bilsin, minnətdarlıqla bütün səxavətini göstərsin. İnsan övladı çörək, yemək üçün

öz qürur taxtından enməsin. Ehtiyac qəhrəmanı qul etməsin. Of! Bunların nə demək olduğunu mən öz gözlərimlə görmüş, necə də hiss etmişəm! Yox, yox! Mən ehtiyacdan söz salmayacağam. İmkanım olsaydı bu mənfur kəlməni bütün lüğətlərdən silib, əbədiyyətin ən dərinliklərində dəfn edərdim. Babamız Nizami demişkən:

*Öylə bir ixtiyar olsaydı məndə,*
*Qoymazdım bəndəyə möhtac bir bəndə.*

Bir anlığa düşünməyin ki, ehtiyac insanı hər addımda alçalda bilər. Əsla yox! Həyat heç vaxt ancaq əyləncə meydanı olmamışdır. Lazım da deyil. Onda onun nə dəyəri? Şair Məmməd Rahim deyib:

*Zil heç duyulmazdı, bəm olmasaydı,*
*Bütöv seçilməzdi kəm olmasaydı.*
*Nəşənin qədrini bilməzdi insan,*
*Qüssə olmasaydı, qəm olmasaydı.*

Bir qismət çörəyə möhtac qaldığım günlər də, süfrəmin ətrafına toplaşan yüzlərlə adama çörək verdiyim, saysız-hesabsız adamın çörək sahibi olmasına səbəb olduğum günlər də olub. Lakin heç vaxt nə özüm alçalmışam, nə də başqalarının alçalmasına imkan vermişəm. İnsan öz mənliyini , öz insan ləyaqətini heç nəyə qurban verməməlidir. Nəinki özünün, başqalarının da izzəti - nəfəsi keşiyində durmalıdır. Sən başqasının alçalmasına dözürsənsə, deməli, yeri gələndə özün də alçalırsan. Başqasının sənə yarınmasına imkan verirsənsə, yeri düşəndə özün də bu rolda çıxış edirsən. Birinin sənə xəbər

gətirməsinə dözürsənsə, bununla həmin adamı özündən başqasına xəbər aparmağa da sövq edirsən.

Unutma ki, sən cəmiyyətin fövqündə durmusan. Ətrafının zibillənməsinə, üfunətə qərq olmasına dözürsənsə, özün də çox şey itirirsən. Axı, sən də bu ümumin birisən, bu ümumi havadan udursan!

Odur ki, sən özünün və başqalarının xatiri üçün cəmiyyətin təmizliyi, sağlamlığı və ictimai atmosferin sağlığı uğrunda mübarizəyə qoşulmalısan.

Sən, təbiətin və cəmiyyətin gözəlliyi, saflığı keşiyində durursansa, deməli, mənim də qəbrimin qayğısını çəkirsən, mənə öz borcunu qaytarmış olursan.

Çalış ki, sənə heç kəsin yazığı gəlməsin. Onu bil ki,
tək-tək adam yaxşılığı əvəzsiz edir. Əgər sən hamıdan yaxşılıq diləsən, onda hamıya borclu qalarsan. Borc altında yaşamaq isə ölümə bərabərdir, daha doğrusu, borc altında inləməkdənsə, ölüb can qurtarmaq yaxşıdır. Buna görə çalış ki, sən başqalarına yaxşılıq et. Lakin bunu hiss etdirmə, üzə vurma, təmənna gözləmə. Atalar deyib ki, yaxşılığa əvəz istəmək namərdlikdir. Lakin bir dəfə yaxşılıq itirənə, ikinci, üçüncü dəfə yaxşılıq eləmə. Məşhur bir kəlam var: "Qədir bilməyən adama yaxşılıq etmək nadanlıqdır". Çünki belələri bəzən elə bilir ki, sən bunu mütləq etməlisən, ona borclusan. O, başqalarından da yerli-yersiz yaxşılıq, təmənna gözləyir və buna nail olmadıqda, öz haqsız tələbinin ödənməməsinə görə adamlara nifrət edir…

Bir dəfə uzaq səfərdən gəlirdik. Tanımadığım bir nəfər məndən borc pul istədi. Evə çatan kimi göndərəcəyini vəd etdi. O, ikinci gün qatardan düşdü. Biz bir gün sonra düşməyə hazırlaşanda gördüm ki, oturacağın altında bir dəftərçə var. Götürdüm. Mənim ünvanım da burada idi. Deməli pulum batıb…

On il keçdi. Biz təsadüfən sanatoriyada görüşdük. Böyük mənsəb sahibi imiş. Məndən pul alan vaxt nəyi varsa oğurlayıblarmiş. O, məndən aldığı məbləği həmin il əmanət kassasına qoyubmuş. Tam on il məni soraqlayıbmış… Nə isə, məni evlərinə dəvət etdi. Yola salarkən qiymətli hədiyyələr verdi. Sonra isə mənim həsabıma onlarla dostuma, qohumuma, tanışıma, necə deyim, mənim adımdan ona müraciət edən hər kəsə kömək, yaxşılıq etdi. Yeganə qızının qohumlarımdan birilə evlənməsinə məmnuniyyətlə razılıq verdi. Beləliklə, xırdaca bir yaxşılıq iki mahalın bir-birinə dostluq, qohumluq etməsinə səbəb oldu.

Üzürxahlıq haqqında da fikrimi demək istəyirəm.

Üzr istəmək nəzakət əlamətidir. Buraxdığın səhvi, nöqsanı dərk etdiyini etiraf etməkdir. Üzr istəmək alçalmaq deyildir. Lakin bunda da müəyyən qayda olmalıdır. Tutaq ki, biri sənə qarşı səhv bir hərəkət edib, nöqsanlı bir iş görüb. Əgər o, bunu anlayıb üzr istəyirsə, günahından keç. Bəzən buna da ehtiyac yoxdur. Vacib deyil ki, həmin adam gəlib sənin hüzurunda dayansın, yalvar-yaxar etsin. Nöqsana yol vermiş adam pis hərəkəti üçün xəcalət çəkirsə, bir daha səhvini təkrar etməməyə can atırsa, ondan əl

çəkməlisən. Xüsusilə, məğrur təbiətli gənclərin alçalmasına qətiyyən razı olma. Gözəl deyiblər: "Xəcalət çəkənə əzab verməmk kişilikdən deyil".

Lakin adam kobudluq, nəzakətsizlik, ədalətsizlik edib, vecinə almırsa, həya etmirsə, ona güzəşt edilməməlidir. Bununla sən həmin adamın da, başqasının da bədbəxtliyinə səbəb olarsan.

Deyirlər ki, keçmişdə nalayiq bir adam küçə ilə keçən ər-arvada yaxınlaşır. Ədəbsizliklə qadına sataşır. Qadının əri dinmir. Əksinə, cibindən beş manat çıxarıb,
həmin nalayiqə verir. Qadın ərinə deyir:

- Ay kişi, bu əclafı məhv etməkdənsə, hələ ona pul da verirsən, axı sən…

Arvadı hönkürtü alır. Kişi:

- Qəm etmə, arvad, mən onu öldürdüm, - deyir, - Verdiyim beş manat da qan pulu idi.

Ədəbsiz adam həvəslənib, bir az qabaqdakı qadına da sataşır. İkinci qadının yanındaki kişi tapancasını çıxarmasilə nalayiqin yerə sərilməsi bir olur.

Beş manat verən kişi deyir:

- Gördün, arvad?! "Adamı  yaxşılıqla öldürmək daha dəhşətlidir", deyiblər. Haqlı sözdür, qanan üçün. Yamanlığa qarşı yaxşılığı qorxaqlıq, acizlik bilənlər üçün yox. Əyilməyə başlayanı düzəldərlər. İkiqat olmuşu, fır bağlamışı düzəltmək isə xeyli çətindir. Yerində deyiblər: qozbeli qəbir…".

Kim bilir daha nələr yazacaqmış.

Katibin ölümü kütləvi matəmə çevrildi. Dəfnə respublikanın bütün rayonlarından gəlmişdilər. Qonşu

respublikalardan da müxtəlif millətlərin nümayəndələri vardı.

Şücayət Mərdanov uzun illər partiya işində çalışıbmış. Harada işləyibmişsə ad - san qoyub çıxıbmış. Ən geridə qalan rayon kimi buraya öz ərizəsilə gəlibmiş. Özü də böyük arzularla…

*10 Aprel*

*Nə deyirlər, desinlər dünyada iztirab*
*və ələm qədər yaxşı tərbiyəçi yoxdur.*

*Rəşad Nuri Güntəkin.*

Baş həkimlə razılaşırıq ki, bu axşam yerli komitə sədri Arif Hüseynzadə ilə mən Çəmən kəndinə gedib xəstəxananın vəziyyəti ilə tanış olaq.

Çəmən rayonun dağlıq kəndlərindən biridir. Rayon mərkəzindən oraya qədər olan 23 kilometrlik yolun ancaq dörddə biri asfaltdır. Çaylı ilə Əfşanın arası da pis deyil. Qalan 10 kilometr daş-çınqıldır. Qaratorpaq olduğundan yaz, payız günləri yolda həm də zığ-palçıq əmələ gəlir. Odur ki, "QAZ-60"ın sürücüsü Əlimərdana axşam saat 7 üçün hazır olmasını tapşırdıq.

İşdən çıxıb evə tələsirəm. anamın göndərdiyi qovurmadan qızdırıb yeyirəm. Paltarımı dəyişib, kinoya gedirəm. Koroğlu obrazı və Qırat ürəyimdən olmasa da, film ümumiyyətlə, yaxşı təsir bağışlayır. Xüsusilə, musiqi qəlbimi açır. Dəli Həsənin mahnısını bir də dinləməyi qərara alıram.

…Şərtləşdiyimiz vaxtda da rayon mərkəzindən çıxırıq. Qabaqdan üç nəfərin piyada getdiyini görən sürücü dönüb mənə baxır.

- Götür, – deyirəm.

Əlimərdan maşını onların yanında saxlayır. 25-30 yaşlarında iki nəfər qadındır. Yanlarında da 10-12 yaşlarında bir oğlan uşağı. Əlimərdan soruşur:

- Bacı, haraya gedirsiniz?

Qadınlar dinmir. Uşaq deyir ki, Çəmənə.

- Biz də oraya gedirik, gəlin oturun.

Gəlmək istəmirlər. Uşaq isə maşına minməyi təkid edir. Qapını açıram. Məni görür.

- Ay ana, pis adam deyillər. Biri o günü məktəbimizə gələn həkimdir, doktor İdrak. Gəlin oturaq, heç zad olmaz. Gəlirlər. Mən qalxıb, qabağa keçirəm. Qadınlar bir tərəfdə, uşaq isə onlarla Arifin arasında oturur. Davam edirik. Çaylını və Əfşanı keçirik. Çəmənə altı kilometr qalmış sərt yoxuş başlayır. Təkərlər zığda yaxşı tutmadığından ilk dolamanı çətinliklə qalxırıq. Yastanaya çatanda bir nəfərin yolun kənarında durub əl qaldırdığını görürük. Dayanırıq. Həmin adam bizə yaxınlaşır:

- Kimsiniz, ay bala, məni də götürün, yaman yorulmuşam. Özgə vaxt heç olmasa Əfşana qədər avtobusla gedirdik, tərslikdən bu gün o da olmadı. Deyirlər bizimki xarab olub. Gözlədim, gözlədim, axırda da piyada yola düşdüm.

Nə etməli? Maşının yükünü artırmaq olmaz, onsuz da mühərrik qızıb. Danışığından yaşlı olduğu bəlli olan bu adamı yolda qoymaq da yaramaz.

Maşından düşürəm. Arif də düşmək istəyir. Qoymuram :

- Gecdir, - deyirəm, - sən get işə başla, maşını tez qaytar. Əmi ilə mən də asta-asta qalxırıq.

Oğlum, yolundan nahaq qaldın, birtəhər gedib çıxardım.

Eyb etməz, əmi. Sizinlə söhbət edə-edə təmiz hava almaq da faydalıdır.

Qocanın haradan gəldiyini soruşuram.

- Qocalıq artıq təsir edir, bala. Səksəni keçəndan canımda ağrı hiss edirəm. eşitdim ki, cavan bir həkim gəlib. Deyirlər, çox yaxşı bilir. Dedim gedib bir özümə baxdırım. Heyf ki, mən çatana qədər işdən çıxmışdı. Evinə də getdim. Qonşusu dedi ki, kinodadır. Oradan da kəndlərə çıxacaq. Nə gizlədim, ay bala, həkimi başqa bir məqsəd üçün də axtarırdım.

- Nə üçün, əmi?

- On-on beş il əvvəl həmin adda bir oğlanla yol yoldaşı olmuşuq. Bizim qonşu Şəlalədən idi. Qırx dörddə köçüb arana getdilər. Bir xəbər-ətər bilə bilmədim. Görünür, körpənin atası davadan qayıtmadı. Yoxsa, dönüb öz kəndlərinə gələrdilər. Tifilin atası gözəl insan idi. Bir il də bizim uşaqlara dərs verib...

Qocanı dinlədikcə ürəyimin döyüntüsü artırdı. Deyəsən, deyəsən… Səndələyirəm. Yıxılmamaq üçün qocanın qolundan yapışıram.

- Sənə nə oldu, bala?

Özümü ələ alıram.

- Heç, əmi, benzin iyinə dözə bilmirəm. İndi ötər.

Qoca məni daşın üstünə oturdur.

…1941-ci ildə atam cəbhəyə getdi.

Ondan ancaq ilk aylar məktub aldıq. Sonra tamam kəsildi. Amma ümidimizi üzmədik.Yaxşı - yaman dolandıq. Anamın xəstələnməsi dolanışığımızı ağırlaşdırdı. Ağ günlərimiz ərşə çəkildi.

Anam yatağa düşəndə Sərvinin 12, mənim 9, İntiqamın 3 yaşı vardı. İntiqam atam gedəndən sonra doğulmuşdu. Ata üzü görməmişdi. Qırx dördün yazında yaşayışımız daha da pisləşdi. Sərvi məktəbdən qaldı. Anama və İntiqama qulluq etməli oldu.

Mən hər gün dərsdən qayıdıb pencər yığırdım. Tək inəyimizin ağartısı ilə müxtəlif pencərlər bişirib yeyirdik. Bütün kənd pencərə döşəndiyindən o da tükənirdi. Adamlar otu oraqla, kərənti ilə biçir, süddüyən, patpatı və tanımadığım digər zərərli bitkiləri seçib, qalanını qazana basırdılar. Biz, demək olar ki, otla girələnirdik. İntiqam isə dəstərimizin hesabına yaşayırdı. Dəstər (ona girgirə də deyirdilər) bizə qılınc asırdı. Qonşular onda qovut çəkir, qarğıdalı özəyi və jmıx üyüdürdülər. Onlar gedəndən sonra Sərvi dəstərin daşlarında qalanı siyirib körpəyə horra hazırlayırdı.

Qonşumuz İbrahimin oğlu Fətəli ilə mən özümüzə konserv qutusundan sac qayırmışdıq. Əlimizə keçən dəni qovurub yeyirdik. Əkin sahələrinə çıxır, şumun üstə qalan arpa və pərinci dənləyirdik. Lakin quşlar bizə aman vermirdi. Çox dən düşən yerləri onlar bizdən tez tapırdılar. Odur ki, bəzən qaranlıq çəkənə

qədər şumun üstündə sürünürdük. Bu da uzun sürmədi. Adamların davaya getməsindən istifadə edib briqadirliyə soxulmuş keçmiş qolçomaq Tanrıqulu bir gün üstümüzü aldı.

- Faşist balaları, burada nə edirsiniz, - deyib qışqırdı,- sahəni boş qoymaq istəyirsiniz?

- Yox, - dedik, - şumun altına əl vurmuruq. Ancaq üzdə qalanı, quş aparanı dənləyirik.

Bizi atın döşünə qatdı. Əlindəki öküz şallağı ilə haramız gəldi döyəcləməyə başladı. Deyəsən, qulağımın dibinə vurdu. Yerə sərildim.

Gözümü evdə açdım. Dedilər ki, məni şumun içində qan aparıbmış. Tanrıqulu məni orada qoyub, Fətəlini kəndə gətirib. Üzünü mazutla qaralayıb, tərsinə eşşəyə mindirib. “Ay-haray, sinfi düşmən tutmuşam”- deyib, kəndi dörd dolandırıb.

Yarım ay yataqda qaldım. Qalxandan sonra bir daha şum tərəfə getmədim. Həm Tanrıquludan qorxurdum, həm də artıq gec idi. Odur ki, Fətəli ilə mən də son günlər ümidimizi dəstərə bağlamışdıq. Sərvidən sonra hərəmiz daşın bir tayını qabağımıza qoyub, gün kimi parıldayana qədər yalayırdıq.

Fətəlinin anası, keçmiş partkomun arvadı Mədinə xala, Tanrıqulunun bizə divan tutduğu barədə yuxarılara ərizə veribmiş. Gəlib bizi dindirdilər. Tanrıqulunu günahkar hesab etdilər. Amma tutmadılar. Eşitdik ki, böyüklərdən adamı var, o, qoymayıb. Biz əl çəkdik. Tanrıqulu yox. İnəyimizi dağdan uçurtdurdu. Günlər keçdi. Hamının kartofu

cücərib qalxdı. Bizim xırda sahənin çox hissəsi qara qaldı. Aydınlaşdı ki, gecə ikən toxum
ları çıxartdırıbmış. Fətəligilin də evini oğurlatdırdı.

1944-cü il… Mayın sonlarıdır. Şər qarışır, qaranlıq düşür. Anam böyrü üstə inləyir. İntiqam "Pə-pə, pə-pə!" – deyib şivən qoparır. Sərvi ağlamaq üçün yan otağa keçir. Mən köksümü ötürürəm. Anam Sərvini yanına çağırır. Qulağına nə isə pıçıldayır. Sərvi gündüz çöldən yığdığımız təzəkdən gətirib, ocağın yanına qoyur. Külün altındakı közü eşələyib çıxarmaq istəyir. Köz keçib. Mənə deyir ki, od tut. Cibimdən çaxmağı çıxarıram. Daşa vuran kimi qov od alır. Tüstülənən qovu əskiyə büküb yelləyirəm. Sonra ocağa qoyub üstünə çör-çöp atıram. Xeyli üfürdükdən sonra alovlanır. Sərvi soyuqluqdan örtülü gətirdiyi qazanı xəçirgətin üstünə qoyur. İntiqam səsini kəsir. Xeyli hıçqırıb, gözü ocaqda ikən yuxuya gedir. Anam:

- Bəsdir, qızım,- deyir. Yanacağısa korlama. İdrak, oğul, dur, sən də yat. Heç nə bişirmirik. Uşağı yatırmaq üçün elə-belə qazan asdırmışdım. Anamı qəhər boğur. Biz də ona qoşuluruq. İntiqam qalxmasın deyə için-için ağlayırıq. Sərvi mənə baxır. Anamın ürəyini üzməmək üçün bayıra çıxırıq, əl-üzümüzü yuyub qayıdırıq. Mən anamın sağ tərəfinə sığınıram. Sərvi də ayaq tərəfinə girir. Bütün ailə taxtda uyumaq istəyir. Lakin aclıq onu da əlimizdən alır. Xısın-xısın danışır, iki məsələni müzakirə edirik. Birincisi, İntiqamı uşaq evinə vermək üçün bizə bir neçə dəfə olan təklifi. Buna heç birimiz razı olmuruq. İkincisi isə evdən daha nəyi satmaq. Qiymətə gedən ikicə

şeyimiz qalıb. Biri anamın cehiz gəvəsi, o biri isə babamın verdiyi zümrüd qaşlı üzük. İkisi də əzizdir. İkisi də xatirəlidir. Bir şey də yadımıza düşür. Mənim beş yaşım tamam olanda atamın müəllim yoldaşları tərəfindən bağışlanmış qiymətli fotoaparat.

Elə həmin gecənin sabahı fotoaparatı və mis sərnicimizi götürüb, arana peşqurda gedənlərə qoşuldum. Çatan günü də işim düzəldi. Daha doğrusu, belə oldu: bizimkilər kəndə getcək, axşam toplaşacağımız yeri müəyyən edib məhəllələrə dağılışdılar. Bərk-bərk tutub, heç kimə vermədim.

Bunu görən müəllim uşaqlara acıqlanıb, məni yanına çağırdı.

- Oğlum, kimsən, haralısan?

Kim olduğumu söylədim. Atamın adını eşidəndə qoltuq ağaclarını buraxaraq, qollarını boynuma doladı. Tək ayağı üstündə dayana bilməyib büdrədi. Yıxılmağa qoymadım. Bir əlimlə ağacları götürüb verdim.

- Atanla pedoqoji məktəbi birlikdə qurtarmışıq. Yaxın yoldaş, dost olmuşuq. Hər Bakıya gələndə mütləq bizə baş çəkərdi. Mən cəbhəyə getdim. Əlaqəmiz kəsildi. Məktub yazdım. Cavab gəlmədi. İki aydır qayıtmışam. Bir yerlinizdən soruşdum. Demə, o da məndən az sonra gedibmiş… Nə isə, oğlum, indi yanına bir uşaq qoşaram, bizə gedərsən. Mən də dərsimi qurtarıb gələrəm.

Məni gətirən uşaq müəllimin arvadını kənara çağırıb

nə isə dedi. Xala tezcə mənə qayğanaq bişirdi. Qatıq da qoydu. Acgözlüklə yedim. Yaxşı ki, tək idim, yoxsa biabır olardım.

Müəllim gəldi. Məni heç yana buraxmadı. Dedi, axşam şərtləşdiyimiz yerə gedib yerini də, tanışı-qohumu olmayanlardan götürüb evimizə qayıt.

Eləcə də etdim. Gecə onlarda qaldım. Yatmamışdan əvvəl müəllim arvadına dedi:

- Nazlı, dənin, unun nə varsa gətir yarı böl. O da gətirib böldü. Hərəmizə beş girvəngə un, on girvəngə gərdiyar düşdü. Əlavə bir sabun, bir qutu əldə düzəltmə kibrit verdilər. Məsləhət gördülər ki, şeylərin qalsın, şələm ağır olar.

- Lazım olsa, - dedi, - özüm satıb göndərərəm. Müəllim atamla çəkdirdikləri şəkilləri də göstərdi. Məni öpdü. Arvadına tapşırdı ki, aparıb bizimkilərdən bu gün kim gedirsə, onunla yola salsın.

Uğur olsun, İdrak! Ananla, qohumlarınızla məsləhətləşin. Sizi atan gələnə qədər köçürüb buraya gətirək. Biz də təkik. Birlikdə yaşayarıq, ananı da müalicə etdirərik.

Kəndlilərimizdən hələ heç kəsin işi düzəlməmişdi. Bizə qohum olan Mövlud əmi xəstə olduğundan, dayana bilməyib, geri qayıdırdı. Onunla yola düşdüm. Mövlud əmi çətinliklə yeriyirdi. Odur ki, Qala kəndindən sonra bütün yükümü özüm götürməli oldum. Meşənin Turşsu deyilən hissəsinə çatanda qoca tamam haldan düşdü. İkinci gün də meşədə gecələməli olduq. Sübhə yaxın xəstə məni səsləyib:

- Ölürəm, - dedi, - qalx mənə yer düzəlt.

Budaq, yarpaq yığdım. İri bir ağacın altında yer düzəltdim. Kişinin qoluna girib oraya uzatdım. Məsləhət etdi ki, şələmi də götürüb çıxım, cığırı tutub irəliləyim,- onsuz da,- dedi,- yol doludur, arvad uşaqla, birinə qoşulub gedərsən. Tez xəbər çatdır ki, gəlib məni aparsınlar.

Doğrudan da, vahimə hissi adama əlavə güc verərmiş. Böyük sürətlə Sarı Nər yoxuşuna yetişdim. Müəllimin boyuma uyğunlaşdırdığı əsgər çantasını yerə endirdim. Əl-üzümü yuyub qalan çörək parçasını yedim. Çantanı götürüb yoxuşumu dırmaşdım. Çantamı yerə qoyub bir az dincəldim. Bir də götürdüm. Yoxuşun başına xeyli məsafə qalırdı. Oradan da enişi düşməli, iki kənd keçməli idim. Bu halda getməyim mümkün deyildi. Ayaqlarım daha sözümə baxmır, qollarım qalxmırdı. Nə etməli? Məni iki xəstə gözləyir. Biri arxada, biri də qabaqda, hələ acından ağzından köpük başlanan körpə qardaşım! Beynimə bir fikir gəldi: yoldan aralıdakı qayanın dibində çala qazıb şələmi gizlətmək, kəndə xəbərə qaçmaq. İti daş parçaları tapdım. Çalanı hazırladım. Unu və kibriti götürdüm. Dənlə sabunu basdırdım. Üstünə də iri qaya parçası dığırlayıb saldım. Əlli-altmış metr aralananda arxadan at kişnəməsi eşitdim. Geri çevrildim. Heç nə görünmürdü. Gözlədim. Bəlkə basdırdığımı görüblər? Atlı əyrini burulub qalxdı. Mənə çatdı. Haraya getdiyimi soruşdu. Ondan heç nə gizlətmədim. Kişi tez atdan düşdü.

- Nəyin varsa, çıxart gətir. Qorxdum. Lakin çarə yox idi. Çıxarıb gətirdim. Qablayıb bağladı. İri

xurcunun gözündən nə isə çıxarıb o birinə saldı. Çantamı da onun yerinə. Yadıma Tanrıqulu düşdü. Qanım qurudu. Elə bildim ki, məni boğub dərəyə tullayacaq, şeylərimi də aparacaq. Yüklə işi qurtardı. Quş kimi əsirdim. Əlini mənə tərəf uzatdı. Geri-geri çəkildim, qaçmaq istədim. Kişi mehribanlıqla dedi:

- Gecikirik, oğlum, gəl ata min, gedək.

Tər məni basdı. Utandım. Qeyri-ixtiyari yaxınlaşdım. Kişi ortamdan tutub atın belinə qaldırdı. Dinmədim. Yüyəni mənə verib özü qabağa keçdi.

- Arxamca sür, dedi.

Yoxuşu qalxdıq, enişi endik. Düz yola çıxanda əmi atla bərabər addımladı. Şirin söhbət başladı. Dedim ki, indi də ata o minsin, mən yeriyim. Razı olmadı. Məni gətirib qapımızda düşürtdü. Evə dəvət etdim.

- Tələsirəm, - dedi, - mənim nəvələrim də acdır, yolumu gözləyirlər.

Əl verdi, xudahafizləşib getdi. O, son dərəcə qəmgin
idi, alnındakı çapıq qırışların içində çox az nəzərə çarpırdı…

Qaranlıq olduğundan indi kişinin üzündə heç nə seçə bilmirdim. Bir şey soruşmağa da dilim gəlmirdi. Maşın qayıtdı, oturan kimi əlimi işığın düyməsinə atdım. Qollarım iki xəstənin, iki ailənin xilaskarının boynunda dolandı.

- Rayona gələndə gözlərim sizi arayırdı. Heç olmasa indi, kim olduğunuzu bilmək minnətdarlığımı bildirmək istəyirdim.

Özünü illərlə unutmadığım, adını isə ancaq bu gün bildiyim İbrahim əminin suallarına cavab olaraq dedim:

- Atamın dostu Bəşir müəllim, o vaxt taxılı, unu verən adamı deyirəm, bizi köçürüb arana apardı. Anamı müalicə etdirdi, bizə atalıq etdi, oxutdu.

- Bəs atandan bir xəbər çıxmadımı, oğul?

- Elə həmin vaxt, mən arana gedən gün qara kağızı gəlibmiş...

*30 Aprel*

*Məhəbbət olan yerdə etibarda olmalıdır.*

İşdən çıxıb birbaşa evə gəldim. İçəri girməmiş poçt qutusunu açıram. Nə qədər təbriknamə ( açıq məktub), teleqram var. Ömrümdə bu qədər təbrik almamışam. Onları tez-tez nəzərdə keçirirəm. Dünənki tələbə dostlarım, bugünkü iş yoldaşlarım, qohumlar, dostlar, müalicə etdiyim adamlar, rayon komsomol komitəsi, "Bilik" cəmiyyəti... Baxmadığım təbriknamə və teleqramlar azalır. Ürəyim döyünməyə başlayır. Təngnəfəs oluram. İstədiyim adı tapmayacağımdan ehtiyyat edib, əl saxlayıram. Astaca bir teleqram da götürürəm. Bu da deyil. İkincisi də yox, üçüncüsü də. Ah! Bu, ondandır. Oxumadan sinəmə sıxıram. Ürəyim toxtayır, özümə gəlirəm. Oradakı sözləri dönə-dönə oxuyuram.

"Bayramınızı ürəkdən təbrik edir, sizə əbədi səadət, bütün arzularınıza çatmağı arzulayıram! Qoy bayram şənliyi və bahar təravəti həmişə sizinlə olsun.

Svetlana".

Teleqramı cibimə qoyuram. Ondan aldığım ilk məktubu çıxarıb oxuyuram, özü də dönə-dönə:

“Odlar yurdunun od ürəkli oğluna, odlu salam!

Məktubunuzu bu gün aldım. Nə qədər sevindiyimi deyə bilmirəm. Etiraf edim ki, gözləmirdim. Ağlıma da gəlmirdi ki, siz mənim ünvanımı tapa bilərsiniz. Məni yenidən borclu saldınız. Sizdə gözəl bir misal var: deyirlər, borclu-borclunun sağlığını istər. Yolunuz Moskvaya düşsə, xahiş edirəm mütləq bizə gəlin. Sizi də, Sərvi bacını da, İntiqamı da, Fəxrini də, hamınızı, hamınızı deyirəm. Niyə gizlədim, sizi, sizin təbiəti unuda bilmirəm.

Mənim işlərim pis deyil. I yarımili əla ilə qurtardım.

Müəllimlərimizin fikrini deyirəm. İngilis dilində, deyir, sən çox yaxşı danışırsan.

İdrak, o vaxt deyirdiniz ki, gələcəkdə təhsilinizi davam etdirmək üçün ingilis dilini öyrənməlisiniz. Əgər burada oxumalı olsanız imtahana və namizədlik minimumuna hazırlaşmaqda məmnuniyyətlə sizə kömək edərəm. Bir də yoldaşım Stanislav ingilis dilini məndən də yaxşı bilir. Atasının işi ilə əlaqədar olaraq uşaqlıqdan İngiltərədə olub. O da sizə kömək edər...”

Buraya çatanda yenə dayanıram. “Axı, bu Stasya haradan peyda oldu?! Nə üçün Sveta onun haqqında belə arxayınlıqla da zəmanət verir. Mən də çox məzəli olmuşam. Nə haqla belə düşünürəm. Tələbəlik illərində mənimlə əsl dostluq edən qızlar olmayıbmı?

İkincisi də, Sveta mənimlə əhd-peyman bağlamayıb ki, başqasına könül versə, onu məzəmmət edəm? Nə etsə də mənim ondan küsməyə haqqım yoxdur... Gərək ikinci məktubumdasa bir işarə vuraydım. Necə vuraydım?! Bu yüngüllük, uşaqlıq düşməzdimi? Sevənlər, sevirəm deməz axı. Sən sevdiyini sübut etməlisən. Nə ilə sübut edim?! Bir-birimizdən min kilometrlərlə aralıyıq. Hələ Stasya! İngilis dilini gözəl bilən o oğlan. Görəsən haralıdır, hansı millətdəndir. Necə oğlandır? Bunların nə dəxli var?! Məgər əsl sevgi yer, millət, xarici görkəm tanıyır?! Yox! Sevənlər üçün din və milli məhdudiyyət yoxdur. Ürək sevdiyindən onun hökmü də həyata keçirilir. Stanislav barədə pis şey fikirləşməyim də düzgün deyil. Deyir ki, ağıllı adamlar rəqibinin hər şeyinə ağız büzməzlər. Əksinə, ona üstünlük verən cəhətləri öyrənməli, onun səviyyəsinə qalxmalı, hələ bir az da qabağa keçməlidir ki, öz qələbəsini təmin etsin. Kin-küdurət, yalvarış və göz yaşı sənə üstünlük verə bilməz. Bunun üçün sən həm fiziki, həm əqli, həm əxlaqi cəhətdən kamil olmalısan. Bugünkü halda mən rus dilində səlis danışmağı bacarmır, ingilis dilini isə çox zəif bilirəm. Bu vəziyyətdə nə üstünlükdən danışıram? Özümü inkarmı edirəm? Xeyr! Məhəbbət heç nə ilə hesablaşmır- deyənlər haqlıdır. Lakin bir həqiqət də vardır! Qızlar son dərəcə şöhrətpərəst olurlar. Onlar istəyirlər ki, könül verdikləri, dostluq, yoldaşlıq etdikləri, hətta bir addım birlikdə yol getdikləri oğlan hamıdan üstün olsun. Geyimi də, danışığı da başqalarından fərqlənsin.

Uşaqlıqdan dargöz, təkəbbürlü, mənsəbpərəst adamlardan xoşum gəlmir. Fəqət, üstünlük hissini bunlara qarışdırmaq olmaz. Üstünlük uğrunda mübarizə olmasaydı, inkişaf, yüksəliş olmazdı. Həyatda sükunət, durğunluq və ətalət hökm sürərdi".

Telefon səslənir. Dəstəyi götürürəm: Arif Hüseynzadədir. Sabahkı "toplanışı" evdə deyil, dağda, "Lilpar" bulağının üstündə keçirmək barədə fikrini deyir. Razılaşırıq.

*14 May*

*Xidmət etmək sayılır kişilikdən nişana,*
*Xalqına xidmət etmək bir şərəfdir insana!*
*Nizami*

Rayon komsomol komitəsini katibi İqbal Əşrəfzadə ilə dünəndən şərtləşmişdik ki, iş başlayana qədər onunla görüşək.

Lap tezdən gedirəm.

- Həkim, deyir, gənclərin qəlbinə yaman yol tapmısan, haraya gediriksə adını çəkir, səni arzulayırlar. Dünən ən böyük təşkilatımız olan Sahil kəndində kolxoz və məktəb komsomol təşkilatlarının birgə iclasından çıxarış almışıq. İstəyirlər ki, sən orada "Normal bədən quruluşuna necə nail olmalı?" mövzusunda müzahirə oxuyasan.

- İqbal müəllim, bu barədə mən, demək olar ki, heç nə bilmirəm. Yaxşı olmazmı ki, başqa bir təcrübəli yoldaşa həvalə edəydiniz.

O, gülür və zarafatla davam edir:

- Şəxsi təcrübəniz də pis deyil, gözəl-göyçək oğlan -
sınız, həm də yaxşı mövzudur, həkim, gənclərimizin hərtərəfli inkişaf etməsinə kömək etməliyik. Belə şərtləşək: on-on iki günə hazırlaşın, ona uyğun "Gənclərimizin mənəvi gözəlliyi" mövzusunu da mən hazırlayım. Gedib eyni vaxtda keçirək. Hərəmiz 30-35 dəqiqə.

Razılaşırıq.

- Sonra, deyirəm axı, sizə bir şey demək istəyirdim, -
deyir,- nazir müavininin öz qohumunu, Qılınclının həkimini deyirəm, ey, müdafiə etməsini, sənə hədə-qorxu gəlməsini bizim birinci katibə demişdik. O, da nazirə çatdırıb. Xülasə, atasını yandırıblar. O işdən ötrü bu günlərdə komissiya gələsidir. Siz işinizdə olun! "Haqq nazilər, üzülməz" demişlər. Ədalətin üzü həmişə boz olur, onu yenmək olmaz.

Razılıq edib qalxıram.

- Hələlik, xudahafiz.

- Xudahafiz...

Növbəti xəstəni qəbul edirəm. Uşağın bir qolundan şəfqət bacısı, o biri qolundan yaşlı bir qadın tutub içəri gətirirlər.

- Nəyinizdir, xala?

- Nəvəmdir, ağrın alım, iki aydı ağzından qan gəlir. Dolanışığımız bir az yaxşıdır, tikan olub batmışıq qonşuların gözünə. Çeynədilər-çeynədilər, axırda top kimi balamı saldılar bu hala, döndərdilər çöpə.

- Nəyi çeynədilər, xala?

- Sözümüzü, oğul. Çeynək çox pisdir. Dilə-ağıza düşmək, gözə gəlmək yamandır, bala. Axı, kimə neyləmişik? Əlimizin zəhməti ilə beş-on burnuqurdlu heyvan düzəltmişik gözləri götürmür. Bəd nəfəs balamı gül kimi soldurdu.

Uşağı müayinə edirəm. Vərəmin əlamətləri aşkar olur. Xəstəxanaya götürülməsini, dərhal laboratoriya müayinəsindən keçirilməsini tapşırıram. Nənəsi uşaqdan
əl çəkmək istəmir.

- Mən də qalım, - deyir .

Başa salıram ki, buna ehtiyac yoxdur, bizimkilər nə
lazımsa edəcəklər.

Ağlıma bir fikir gəlir. Uşağın yaşayış şəraitini öyrənmək. Qarıdan soruşuram:

- Xala, hansı kənddənsiniz?

- Yuxarı Şehlidən.

- Neçə nəvəniz var?

- Bizimlə olan gədəmdən ikicə. Yeddisi olub.
Qalanı bircə bu uşaqdır, biri də bir qız.

- Xala. Qız necə, xəstə deyil ki?

- Qızdan zərər yoxdur, a doxtur, balamı dirilt.

- Xala, qız naxoş olsa, fərqi yoxdur, xəstəlik oğlana yenidən keçə bilər. Odur ki, gözləyin, kəndə bərabər gedək, qıza da baxaq, xəstə olsa onu da müalicə edək.

- Nə deyirəm, gedək.

- Bir saata qurtarıram.

Qarı bayıra çıxır. Baş həkimə zəng edib, sanitariya və epidemiologiya stansiyasının müdiri ilə Yuxarı Şehliyə getmək istədiyimi deyirəm. Etiraz etmir.

Yuxarı Şehliyə bahar bütün kəndlərdən gec gəlir. Buranın qışı son dərəcə soyuq və sərt keçir. Baharın yayı isə olduqca səfalı olur. Kəndə aparan yol axıra qədər çayın kənarı ilə qalxır. Sıra ilə düzülmüş qayaları elə bil əllə hörüblər. Nağıllarda deyildiyi kimi, hər daşın dibində bir bulaq qaynayır. Elə bulaq var ki, suyunda bir dəqiqə barmaq saxlamaq olmur. "Göy bulaq" isə buradakı bulaqların gözü hesab edilir. İri bir qaya günlük kimi xeyli irəli çıxıb bulağın üstünə kölgə salır, sanki onu yağışdan, qardan da qoruyur. Qayanın altındakı sal daş ortadan yarılıb qaynayır, şəffaf suya güzəşt edir, ona azadlıq verir. Su da namərdlik etmir, səxavətini ondan əsirgəmir. Yuxarı fışqırıb aşağı enməklə hər şeydən əvvəl həmin daşın yanğısını söndürür, onun korluq çəkməsinə, üstünə xar qonmasına razı olmur. " Göy bulağın" ətrafı da səfalıdır, yayda, yazda adamlar buraya gəlir, təbiətin əsrarəngiz gözəlliyindən zövq alır, mənalı vaxt keçirirlər.

Kəndə tərəf irəliləyirik.

Şehli kəndi iki dərənin arasında yerləşir. Kəndin ortasından iri çay axır. Evlərin arasından qırxdan artıq bulaq qaynayır. Burada səkkiz iri zağa vardır. Bu zağalarda əvvəllər on iki mindən artıq davar saxlayıblar. Deyirlər ki, təkcə Qurbanəli bəyin üç min qoyunu varmış.

Birbaşa tibb məntəqəsinə gedirik. Müdiri də götürüb, qarıgilin kəndin yuxarı hissəsində yerləşən evinə yetişirik. Yol ayrıcından astanaya qədər basma tökülüb. Yağmurluq olduğundan çətinliklə irəli keçirik. Qarı təndir damını, soyuqluğu, tövləni və otağı bizə göstərir. Otağa keçəndə tələsik ağac oturacaqlar ortaya çəkir, üstlərinə döşəkcə atıb:

- Oturun, - deyir, - yağış yağdığından heyvanı örüşdən tez qaytarıblar. Bu saat rahatlayıb gəlirəm. İndi kişi də peydah olar.

O, çıxır. Biz otağa nəzər salırıq. Üçdə birini gərmə ilə kəsiblər. Bir tərəfində bir ağac, iki dəmir çarpayı yerləşdirilib. Qapı tərəfdə qoyulmuş yastı şkafın üstündə iri farmaş var. Farmaşın üstündə də yeddi-səkkiz xalça, ipək yorğan - döşək yığılıb. Paltar-palaz tərəfdə qaşıqlıq asılıb. Qaşıqlığa taxılmış qaşıqların üzərinə qalın toz təbəqəsi qonub.

Qarı qapını açıb quzuları otağa, kərmə ilə kəsilən yerə doldurur. Otuza yaxın quzu dərhal otağın havasını ağırlaşdırır. Torpaq döşəmənin nə üçün nəm olduğunu indi başa düşürük. Bir qədər keçir. Evin kişisi də içəri girir. Bizə əl verib, “xoş gəldin” edir. Kişinin üz-gözünü tük basıb. Qarı dərhal onu geri çağırır. Qışqırır ki, buzovlar gəlib çıxmayıb, dallarınca getsin. Kişi üzrxahlıq edib çıxır. Pəncərəni açırıq. Evin gəlini zığın içındə oturub qoyun sağır. Kürəyinə bağladığı uşaq zığıldayıb yemək istəyir. Gəlin acıqlanır:

Şər qarışan vaxt çörək yeməzlər, kiri, nənən eşidib dərinə saman təpəcək.

Qarının oğlu da gəlir. Çomağını qapının dalına qoyub bizimlə görüşür. Qarı:

-Tez ol, - deyir.

Oğlan quzuluğa keçir. İri bir quzu götürüb çıxır.

Sürücü bizdən ötrü kəsmək istədiklərini təxmin edir. Bayıra boylanırıq. Artıq boğazlayıblar.

- Bəlkə də özgə məqsəd üçün kəsirlər, - deyə dinmirik.

Ailə üzvləri otağa toplaşır. Oturmağa yer olmadığından ayaq üstə dayanırlar. Qalxmaq istəyirəm. 60-65 yaşlarında olan qoca güclü əllərilə çiynimdən basıb qalxmağa qoymur.

- Uşağı gətirmələrini xahiş edirik.

- Bu saat, a bala, xörəyimiz hazır olur, yeyin sonra.

- Gecdir, uşağa baxmaq bəlkə...

- Bəlkəsi-zadı yoxdur, qız uşağıdır, canı bərkdir, heç nə olmaz.

Qarı duruxur:

- Yaxşı, lazım bilirsinizsə, qoy deyim gətirsin.

Qapını açıb səslənir:

- A gəlin, ətin kartofunu tök, uşağı gətir.

Gəlin, şalın düyününü çətinliklə açıb, uşağı belindən endirir. Qızın başı açıq, ayağı yalındır. Əynində iri oğlan paltarı var. Saçı daranmadığından pırpız-pırpız olub. Üzündəki yara hələ tam yaxşılaşmayıb. Anası qızın köynəyini soyundurur. Uşaq öskürür, sinəsi xışıldayır. Yanağının

parlaqlığından, yanaq sümüyünün çıxmasından xəstə olduğu dərhal hiss edilir.

Əsəbiləşirəm.Ağzımın acısını məntəqə müdirinin üstünə tökürəm. Səsimi alçaldıb, dəyişib davam edirəm:

- Belə də yaşayış olar? Mala-qoyuna baş qoşub, özünüzü unudubsunuz. Canınız əldən gedəndən sonra lap bir sürünüz olsun, nəyə gərəkdir. O qədər xalını oraya yığıb, otağa döşəmə vurdurmursunuz. Damın üstündə örtük yoxdur. Yağış başınıza damır, quzunun nəmi evi haldan çıxarır. Əmi, bilirəm ki, pulunuz da olmamış deyil, bir az bu heyvanlardan da satın, otağa döşəmə vurdurun, əməlli yaşayış düzəldin. Qapı-bacanızı təmiz saxlayın, üst-başınızı, geyiminizi qaydaya salın. Dünya malına gül olub ömrünüzü, gününüzü zay etməyin. Bu qədər varın, dövlətin qabağında beş uşaqdan heç birini sona qədər oxutmayıbsınız, onların balalarını da dərdə, azara düçar edibsiniz. Atalar deyib: "Neyləyirəm qızıl teşti ki, içinə qan qusam". Sözümü deyib maşına otururuq. Məntəqə müdirinə tapşırırıq ki, uşağı sabah xəstəxanaya göndərsin. Özü də kənddən bir yana çıxmasın ki, səyyar ambulatoruyanı iki-üç günə
buraya göndərəcəyik.

*17 May.*

*El üçün kim girişsə bir işə, özü*
*dəxi xeyir görər həmişə.*
*A.Bakıxanov.*

Bu gün tezdən professor Əfəndizadədən məktub alıram. O, yazır:

"Qəzetdə sənin haqqında olan "O, istəyir ki..." oçer
kini oxuduq. Üzün ağ olsun! Müəllimlərin hamısı razı qaldı. Sənin ancaq belə də olacağını gözləyirdik.

İdrak, inadkarlıq edib burada qalmadın. Biz də səninlə razılaşdıq. Amma, oğlum, sənə bizim, daha doğrusu, bizim elmin ehtiyacı var. Rayonda işləməyin pis deyil. Təqdirəlayiq hərəkətdir. Bir var, tək özün işləyəsən, bir də var, özün kimi yüzlərlə adamın yetişib , yerlərə göndərilməsinə səbəb olasan.

İdrak, istedadlı alimlər, xalqına pərvanə vurğunluğu ilə xidmət etməyə hazır olan ali məktəb müəllimləri bu gün bizə daha çox lazımdır.

Moskvaya iki aspirant yeri veriblər. Birinə səni göndərməyi nəzərdə tutmuşuq. Mustafa bəy də sənin getməyini istəyir.

Oğlum, mən səninlə həmişə açıq danışmışam. İndi də sözümü açıq yazıram. Həmin yerlərə onlarla minnətçi var. Yuxarılardan zəng, zəngin üstündən gəlir. Biz isə, xüsusilə, kənara olduğu üçün səni göndərməyi qərarlaşmışıq. Əminik ki, orada da üzümüzü ağ edəcəksən. Başa düş, İdrak, bizə bu günün tusiləri, kazımbəyləri, zərdabiləri, nərimanları lazımdır. Vətən, xalq qeyrəti çəkən, şüurlu, fədakar oğullar gərəkdir. Elə oğullar ki, tutduqları mövqedən asılı olmayaraq, mənsub olduqları eli ləyaqətlə təmsil və təqdim edə bilirlər. Bunu düzgün anla, oğlum.

Tez sənədlərini düzəlt göndər, referat yaz. Nazirliklə

danışmışıq. Razılıq veriblər. Qüvvəni xarici dilə ver. Qalanlarından şübhəm yoxdur.

Yolunu gözləyirik!"

Başım aşağı enib, əllərimin arasına düşür. Hələ cavanlığında saçını elmin yollarında ağardan vətənpərvər alimin siması gözlərim önündə canlanır. O, ürək yanğısı ilə sanki yenə də deyir:

- Hamımız qaçıb, anamızın qoltuğu altına giririk. Qırağa çıxmaq, iki-üç ilin əziyyətinə, zəhmətinə qatlaşmaq istəmirik. Odur ki, kənarda tutarlı bir adamımız yetişmir. Başqalarının yaxşısını öyrənib vətənə çatdıran, vətənin yaxşısını təbliğ edən adamlarımız yetişmədikcə, bir tərəfimiz yenə də axsayacaqdır. Balalarım, Moskvaya daha geniş yol açın! Moskva təkcə paytaxt şəhəri deyil, həm də dünya elm və mədəniyyətinin mərkəzlərindən biridir. Rus dili isə indiki dövrdə bəşər mədəniyyəti xəzinəsinin açarıdır. Kim bu açara sahib olarsa, həmin xəzinənin qapısı onun üzünə iki taylı açılır.

Beş il zəhmətimi çəkən, məni öz doğma övladından
ayırmayan, müvəffəqiyyətlərimlə sevinən, çətin ayaqda qəlbimə qol-qanad verən, gələcəyimə böyük ümidlər bəsləyən ağsaçlı müəllimim məni elmin döyüşkən cəbhəsinə səsləyir. Gəl, get, üzümüzü ağart,- deyir. Dünyaca məşhur olan Mustafa bəy də bunu istəyir...

Qapı döyülür.

- Buyurun.

- Həkim, görünür, "ptiminutka"nı yaddan çıxarıbsız.

Sizi gözləyirlər.

Qalxıb gedirəm.

*2 İyun.*

*Məhəbbət və sədaqət etibarın dili ilə danışır.*

*Nurəddin Babayev*

Bakıda cəmi bir neçə gün qaldım. Sonra professor özü məni təyyarə ilə Moskvaya yola saldı.

...Vnukovo təyyarə meydanına çatırıq. Çamadanımı alıb bayıra çıxıram. Əynində xüsusi forma olan taksi sürücüsü mənə yaxınlaşıb:

- Bir nəfərə də yerim var, - deyir, - mərkəzə gedirsinizsə, buyurub mənim maşınıma əyləşin.
- Salyanka küçəsindəki 13 nömrəli evə gedəsiyəm.
- A, elə mərkəzdir, oturun.

25-30 dəqiqədən sonra SSRİ Tibb Elmlər Akademiyası V.Vişnevski adına Elmi Tədqiqat İnstitunun qarşısında düşürəm. İşlərimi qurtarıb, metro ilə "Sokol" stansiyasının yaxınlığındakı Baltik küçəsinə, akademiyanın yataqxanasına gəlirəm. Məni ikinci mərtəbədəki 16-cı otaqda yerləşdirirlər. Otaq bir adam üçündür. Hər cür uyğunluğu var. Yuyunub paltarımı dəyişirəm. Yataqxanaya bitişik yeməkxanaya girib kəmərimin altını bərkitmək istəyirəm. Avtomat telefonu gördükdə fikrimdən yayınıram. Girib nömrəni yığıram. Yaşlı qadın səsi:

- Eşidirəm, - deyir.
- Bura Svetlananın evidir?
- Bəli, Svetlanagilin mənzilidir.

Duruxuram.

- Alo, alo, nə oldu? Davam edin.

- Svetlana evdədirmi?

- Evdədir.

- Mümkünsə, onu telefona çağırın.

- Bu dəqiqə.

- Eşidirəm.

- Salam, Svetlana. Sizi İdrak narahat edir.

- Oo, İdrak! Siz xoş gəlmisiniz! Nə böyük sevinc. Mən çox şadam!

- Sağ olun, razıyam.

O, azərbaycanca:

- Siz də çox sağ olun,- deyib gülür. Bəs nə üçün anama kim olduğunuzu demirsiniz?

- Bilirsinizmi...

- Bilirəm, ancaq onu bilirəm ki, elə bu gün işlərinizi
qurtaran kimi bizə gəlməlisiniz.

- Bəlkə...

- Heç bir bəlkə! Bircə saniyə, dəstəyi anama verirəm.

Əvvəlki səs eşidilir. Anası mənimlə illərin tanışı kimi danışır:

- İdrak, oğlum, xoş gəlmisən. Axşam saat 8-ə evdə gözləyirik, söhbətimizi burada davam etdirərik. Ünvanımızı bilirsən."Prizıv" kinoteatrının yanındayıq. Di hələlik, evimizdə görüşənə qədər.

Dəstək əlimdə qalır.

- Dü, dü, dü...

Otağıma dönürəm. Gətirdiyim nemətlərimizdən xırda bir boxça düzəldib küçəyə çıxıram. Metronu yaxşı tanımadığımdan taksi dayandırmaq istəyirəm. Amma hamı ötüb keçir, heç kəs məhəl qoyub saxlamır. Yaxınlıqda dayanan milis nəfəri izah edir ki, burada maşın saxlamaq olmaz, gedin dayanacaqda gözləyin.

Dayanacaqda böyük növbə var. Çarəsizlikdən xeyli gözləyirəm. Saat doqquza işləmiş ünvana çatıram. Düyməni sıxmağımla qapı açılır. Svetlana əlimdən tutub içəri çəkir, anasına təqdim edir. Anna İvanovna məni mehribanlıqla qarşılayır.

- Buyur, buyur, oğlum, otağa keç, - deyir.

Əməllicə bir şənliyə düşürəm. Geniş süfrənin ətrafında 9-10 nəfər gənc oğlan və qız oturub. Anna İvanovna onlarla tanış olmağımı təklif edir.

Hamı ayağa qalxıb mənə əl verir.

Üç nəfəri Valya, ikisi Tanya, qalanları Nona, Məhbubə, Stasya, sonuncu da Vasya – deyir.

İki ad mənə tanışdır: Stasya, Məhbubə.

Mənə yer eləyirlər. Nədənsə hamıdan əvvəl Stanislava baxıram. Ürəyim yenə döyünməyə başlayır. Beynimə min bir fikir gəlir.

Anna İvanovna:

- Tamada, - deyir - İdrakı cəriməməmək lazımdır. Birincisi məclisə gecikib, ikincisi də qaşqabaqlı oturur.

- Axı...

- Axısı-filan yoxdur, Stasya süz.

Stanislav iri bir qədəhi ağzına qədər doldurur. Özümü sındırmıram:

- İndi ki, günahkaram, onda hər şey üçün bağışlayın, - deyib "Paytaxt" arağını başıma çəkirəm.

Stolun masabəyisi Stanislav məclisin bəyi kimi ayağa durur.

- Əvvəla, sizi iştirakçılarla tanış edim. Svetlananı, anasını bilirsiniz. Bu qaraca qız Suxumidən, bu laldinməz sizin Qazaxdan, Vasya Bakınızdan, "üç Vasya, üstəlik bir Tanya yarım - bunlar da hamısı Moskvadan...

Tanya yarım nə deməkdir? - deyə boyca balaca Tanya söz atır.

- Yarım elə sən deməksən...

Hamı qəhqəhə çəkir.

- Hə, yarım Tanyanı çıxdıqdan sonra hamımız eyni kursda oxuyuruq, gələcək ingilisşünaslarıq.

" Bu dilli - dilavər oğlanla mənim rəqabətə girmə - yim yersizdir", - öz-özümə düşünürəm - "hər şey artıq ötmüş olar".

Qızlar Stanislavın sözünü kəsirlər.

- Bəs demədin, gözünə yarım görünən bu Tanyuşa kimdir?

- Onu da siz deyin.

"Bütöv" Tanya "yarım" Tanyanı göstərib:

- Bu da İdrakın gələcək həmkarıdır, tibb institunun tələbəsi. Stasyanın da gələcək nişanlısı.

- Bəsdi, bəsdi, ətimizi tökmə...

Elə bil üstümdən dağ götürülür. Yavaş-yavaş dirilib
cana gəlirəm.

- Yaxşı, davam edək. Sveta qiyabi qaydada bizi İdrakla tanış edib. Canlara dəyən oğlandır, - deyib. Belə də varmış. İçək, İdrakın sağlığına.

Vasya ilk dəfə söhbətə müdaxilə edir.

- Mən hörmətli qonaqla Svetlananın sağlığını birləşdirməyi təklif edirəm. Axı, bugünkü toplanışımızın "günahkarı" onların hər ikisidir. Bu tanışlıq olmasaydı, bu gün də bu münasibətlə toplaşıb, dostlarımızın sırasına bir nəfər də qoşmazdıq. İçək "qədim" dostların sağlığına.

- İdrak, sağ ol!

- Sveta, sağ ol!

- Çaşıb qalıram. Nə deyəcəyimi, necə deyəcəyimi bilmirəm. Minnətdarlıqla gah Vasyaya, gah da Stanislava baxıram. Dilimdən ancaq bu sözlər qopur:

- Razıyam, hamınızdan razıyam. Hər şey üçün hamınızdan razıyam...

*16 İyun.*

*Kitabdan həyata deyil, hər zaman,*
*Həyatdan kitaba getməliyik biz.*
*Kitablar dünyada yaranmamışdan,*
*Yaşamış, yaratmış nəsillərimiz.*

***B.** Vahabzadə*

"Göyçəli Hacı Nağı və təbabətin sirləri" mövzusunda yazdığım referatla əlaqədar bu gün məni şöbəyə

çağırmışdılar. Tanımadığım bir nəfər eynəkli qoca şöbə müdirinin yanında oturmuşdu. Bizi tanış etdilər.

- Sergey Pavloviç.

- İdrak.

Hacı Nağının şəxsiyyəti, neçə il yaşaması, övladları ilə maraqlandı.

- Yüzə yaxın ömür sürüb, - dedim. Ulu babaları Azərbaycanın Qazax rayonundan olub. Sonra Göyçə mahalına köçüblər. Hacı Nağı uşaqlıqdan təbiət vurğunu imiş. El arasında onun haqqında maraqlı söhbətlər gedir. Deyirlər ki, yazın əvvəlində heybəsini götürüb hər gün dağlara qalxır, çöldən əl-ayaq çəkilənə qədər gül-çiçək, ot, bitki kökü toplayırmış. Xəstənin üzünə baxarkən diriləcəyini, ya artıq əlacı olmadığını dərhal deyərmiş. Oğul-uşağının apardığı hesabata görə 10 mindən artıq ağır xəstəyə şəfa verib, altı minə yaxın sınığı bitişdirib.

Özündən sonra da oğlu Gülalı atasının sənətini davam etdirib. Lakin, o atasının göstərdiyi möcüzələri təkrar edə bilməyib.

- Nəvələri necə?

- Nəvələri müəllimdir. Xəstə qəbul edilməlidir. Amma elə-belə yeri gələndə kömək edirlər.

- Bəs sovet hakimiyyəti illərində nə iş görüb?

- Bizimkilər ara həkimliyinə qarşı kəskin mübarizə apardıqları vaxtlar belə, onun yanına xəstə getməyi qadağan etməyiblər. Əksinə, ağıllıları vaxtaşırı onun yanına gedib, məsləhət alırlarmış. Deyirlər, hansı professorsa iki-üç il onun yanına gedib-gəlib.

- Müasir dərmanlardan istifadə edirmişmi?

- Həmin dediyim professorla dostluğundan sonra istifadə edirmiş.

- Deyirsiniz məktəb görməyibmiş, hə?

- Görməyibmiş, ancaq kimdənsə yazıb -oxumaq öyrənibmiş.

- Sizdən başqa onun fəaliyyəti ilə maraqlanan olubmu?

- Yazılı ədəbiyyatda buna rast gəlməmişəm

- Onu tədqiq etməyi özünüzmü fikirləşmisiniz?

- Xeyr. Bunu mənə işlədiyim rayonun sabiq katibi Şücaət Mərdanov demişdi.Mərhum çox mütərəqqi adam idi. Hər şeylə maraqlanırdı. Bizim rayonda işlədiyim 4-5 ayda illərin işini gördü. Vaxtsız da həlak oldu. Ölümündən bir gün qabaq xəstəxanaya gətirdilər. Vəziyyətinin gərgin olmasına baxmayaraq, mənimlə xeyli danışdı.

- Həkim,- dedi,- Qanlı kəndində loğmana bərabər bir adam olub, Hacı Nağı. Onun qoyub getdiyi zənginliyi toplayın, itməyə qoymayın.

Professor:

- Gözəl iş görmüsən, oğlum, - dedi, - elmi ancaq laboratoriyalarda öyrənmirlər. Laboratoriya adətən nəticələri yoxlamağa yarayır. Elm həyatdan, canlı təbiətdən gəlməlidir. Biz bəzən arxivlərə, laboratoriyalara qapanıb qalırıq. Odur ki, cızma-qaralarımız da günəş üzü görməyən bu dar otaqlarda qalır.

O, xeyli fikirləşdi.

- Yazını bir neçə dəfə diqqətlə oxudum, - dedi, - o, böyük adam, Hacı Nağını deyirəm, ayrılıqda bir aləm

imiş. Akademiklərin, institutların açmadığı sirləri bilirmiş. Oğlum, qəbul olandan sonra səni dönə-dönə Göyçəyə göndərməli olacağıq. Adlarını çəkdiyin bütün ətraf rayonlarda da olmalısan. Mümkün qədər çalışıb, onun öz əlindən şəfa tapan adamların hamısı ilə söhbət etməlisən. Təbibin bitki topladığı dağlarda da əməlli iş aparmalıyıq.

Professorla xudahafizləşib, yataqxanaya tələsirəm. Bu gün Stanislavla məşğələ günümüzdür.

Xeyli vaxtdır ki, məni gözləyirmiş.

Üzrxahlıq edib gecikməyimin səbəbini deyirəm.

O, sevinclə:

- İdrak, dostum, səninki gətirib,- deyir,- Sergey Pavloviçin adamı tanıması heç bilirsənmi nə deməkdir?! Səni artıq aspirant hesab etmək olar. Bu başdan təbrik edirəm!

- Razıyam, qardaş. Amma bəs ingilis dili?

- İngilis dilini artıq əla bilirsən.

- Sağ ol, Stasya, xeyli zəhmət çəkdin. Sənin yaxşı-
lı
ğını unuda bilmərəm.

- Bax, bu olmadı, İdrak. Özün yaxşıca hazırlaşmış-dın. Mən ancaq düzəlişlər etmişəm. Nə isə, bu gün son dərsi də öyrənək. Bir dəfə də müstəqil təkrarla. Nə vaxt lazım olsa zəng vur görüşək. İmtahandan bir-iki gün əvvəl müəyyən yerlərə yenə baxarıq. Di, başlayaq!

- Başlayırıq.

*Moskva-Bakı*
*1968-1970*

## VİCDANIMIN HÖKMÜ

Mənim əziz, mehriban dostum! Səni bir insan kimi yenə də sevir, dərindən hörmət bəsləyirəm. Əgər mənim öz canımı, ev-eşiyimi istəsən, inan ki, tərəddüd etmədən sənə bəxş edərəm. Buna sənin ixtiyarın da var. Haqqımda göstərdiyin xeyirxahlığı, üzərimdə qoyduğun haqqı - sayı əsla unutmamışam. Sən isə! Necə deyim, məni düzgün anlamır, üzüdönüklükdə töhmətləndirirsən. Orda-burda haqqımda bəd sözlər danışır, hətta bəzən ünvanıma söyüş yağdırırsan. Az qalır bütün aləmə car çəkəsən ki, mən qədirbilməzəm, haqq itirənəm, vicdansızam, dostun -qohumun dar günündə kölgə kimi qaçanam, satqınam, nə bilim nəyəm, nəyəm...

Belə güman etmə ki, özümə bəraət qazandırmaq niyyətindəyəm. Qətiyyən yox! İnsan olanın səhvi də ola bilər. Mən də insanam. Nöqsanlardan xali, ideal adam deyiləm... Nə edirsən et, nə deyirsən de. Mən səni yenə insan kimi, dost kimi tanıyıram. Yolunu gözləyəcəyəm, yeri düşdükcə yaxşılıqlarına cavab qaytaracağam. Lakin bu məsələdə, məni sənin gözündən salan məsələdə yox! Güzəştə gedə bilmərəm! Buna mənim ürəyim, vicdanım, məsləkim ixtiyar vermir. Buna mənim haqqım yoxdur! Gəl məni döy, söy, başıma od ələ, ürəyimi parçala! Əgər səs çıxarsam, "uf" desəm onda namərdəm. Amma mənə dönük, vicdansız, haqq itirən demə! Belə davam etsən, səni məhkəməyə verəcəyəm, vicdanının məhkəməsinə. Özün hər ikimizi ittiham et, hökm çıxar!

Odur ki, mən olub-keçənləri bir daha yadına salıram. Bil ki, hər şey yadımdadır. Sənin qarşında olan heç bir borcum xatirimdən çıxmayıb. Əgər əyri-əskik desəm, bəzi şeyləri unutsam, sən de. Qoy hər şey aşkar olsun. Qoy aramızda olanları başqaları da bilsin. Günahım varsa, hamı mənə nifrət etsin, sənin kimi...

Mənə bələdçilik edən, əlimdən tutub şəhərə aparan sən oldun. Qəbul imtahanlarını verənə qədər mənimlə şəhərdə qaldın. Başqaları məzuniyyətini gəzməli yerlərdə, kefdə əyləncədə, sənsə mənim yanımda keçirdin. Şiddətli istiyə dözməli oldun, məndən çox həyəcan keçirdin. Qəbul oldum. Əynimi təzələdin. Cibimə pul qoydun. Bundan sonra da korluq çəkməyə imkan vermədin. Hər tətildə şərəfimə məclis düzəltdin, qoyun-quzu kəsdin, süfrə açdın, məni çoxları ilə tanış etdin. Mən son kursda ikən evləndin. "Qardaşağam sənsən" dedin. Lakin bir manat belə xərcə düşməyimə razı olmadın. Özü də bunları elə etdin ki, heç kəs hiss etmədi, bilmədi...

İnstitutu qurtarıb qayıtdım. İşə girdim. Ev tikdirdim. Bağ-bağça saldım. Evləndim. Qısa desəm, ev-eşik, arvad-uşaq sahibi oldum. İrəli çəkildim. İllər keçdikcə vəzifəmi böyütdülər. Mənsəbcə səndən xeyli yuxarı qalxdım. Bu müddətdə də, səndən ancaq yaxşılıq,köməklik, yardım gördüm. Ən əziz tikəni mənimlə böldün. Daha xoş güzəranım üçün hər cür fədakarlığa hazır oldun. Bütün bunların hamısını da təmənnasız, minnətsiz etdin. Mən narahat olduqda, xəcalət çəkdikdə, hansı yazıçıdansa misal çəkib dedin ki, dost yolunda qurban getməyən baş bədən üzərində ağır yükdən başqa bir şey

deyil. Biz, yemək-içmək, pul-mal dostu deyilik, mənəviyyat dostu, ideal dostuyuq.

Mən də öz növbəmdə pis dost olmamışam. Aydan arı, sudan durudur ki, bu pak dostluğun ləkələnməsi üçün bir qəbahətə belə yol verməmişəm. Ürəyimə güllə dəyməyə razı olmuşam, sənin ayağına daş dəyməyə yox... Təəssüf ki, çox təəssüf ki, son vaxtlar bir-birimizi anlamamağa, narazı qalmağa, deyinməyə başlamışıq. Sən dönə-dönə deyirsən ki, guya mənim xasiyyətim tamamilə dəyişib, qabaqki adam deyiləm. Görkəmim həmin görkəm olsa da içərimdə bayquşlar ulaşır. Düzü, desəm, üzə vurmasam da mən də sənin haqqında eyni fikirdəyəm. Bəlkə də daha pis.

Haqlı deyirsən ki, nə vaxt sənə əl uzatmışamsa, daha doğrusu özün dediyin kimi, nə vaxt köməyə ehtiyacım olduğunu duyubsansa, məndən heç nə əsirgəməyibsən. Bu doğrudur. Amma, bu da bir həqiqətdir ki, bütün ömrüm boyu səni bir an belə çıxılmaz vəziyyətə salma - mışam, vicdan əzabı çəkməyə qoymamışam.

Bəs sən? Sən məndən nə tələb edirsən? Nəyə görə məndən inciyirsən?

Özgəsi bilməsə də mən çox yaxşı bilirəm ki, İnci sözün əsl mənasında ləyaqətli qadındır. Varlığı ilə evinə, ailəsinə, körpəsinə bağlı anadır. Özü də o, sənə minnət etməyib, sənə zorla, təl-fəllə gəlməyib. Əksinə, sən özün illərlə onun arxasınca sürünübsən, yalvarıbsan, ah-nalə çəkibsən, yeri düşəndə göz yaşı axıdıbsan. Minnətçi minnətçi dalınca göndəribsən. Onu da deyim, sənin yerinə başqa birisi də olsaydı bəlkə yenə belə edərdi. Axı, İnci sevilməyə layiq qız idi.

O vaxt İncinin atası Dəyanət rayonun məsul işçilərindən biri idi, anası Validə isə ən hörmətli müəllim. Yüksək maaşları, yaraşıqlı mənzilləri, hamının yanında hörmətləri. İnci də gözəl - göyçək qız, ağlı - kamalı ilə hamıdan üstün. Onu hələ səkkizinci sinifdən sənin kimi çoxları izləyirdi. İnci isə heç kəsə məhəl qoymayır, orta məktəbi qızıl medalla qurtarmaq üçün gecə-gündüz çalışırdı. Təhsilini davam etdirməyə, tibb institutuna getməyə can atırdı. Sən isə!... Məni də ən nüfuzlu adamlara qoşub dönə-dönə qız evinə göndərdin. Axırda ata-ana rəhmə gəlib qızı da razı saldılar. Sən söz verib, and içdin ki, İncinin təhsilini yarımçıq qoymayacaqsan, heç olmasa gələn il universitetin qiyabi şöbəsinə göndərəcəksən. İncinin səadəti naminə canını belə əsirgəməyəcəksən. O, çıraq, şölə, ziya olacaq, sən isə pərvanə...

İlk əhdinə bivəfa çıxdın. İli-ilə sataraq, məsum qızı təhsilini davam etdirməyə qoymadın. Bu bir yana, işə də buraxmadın. Dedin ki, xoşbəxtlik təhsildə, diplomda, gəlirdə deyil, təki ürəklərimiz bir olsun. Heç vəchlə inkar edə bilməzsən ki, İncinin ürəyi də, diləyi də səninlə bir oldu. Sənin sevincinə də, kədərinə də şərik çıxdı. O, sənə ancaq arvad deyil, yoldaş, sirdaş, məsləkdaş olmağa çalışdı. Bir sözünü iki eləmədi, hər cür şıltaqlıqlarına dözdü. Gözün üstə qaşın var, demədi. Qoca ata-ananın, demək olar, hər gün evə gətirdiyin qonaqların qulluğunda "qul" kimi durdu. Biş-düşümüzü etdi, üst-başımızı yuyub təmizlədi. Hamı sənə bəxtəvər dedi, qibtə etdi. Bütün bunların müqabilində heç olmasa dinmədi, danışmadı, qarşında gündə bir tələb qoymadı.

“ Filanı al, filanı ver” demədi. Ata evindən də gətirib sənə caladı. İcazən olmadan dükana, bazara da çıxmadı. Səni eşitdi, səni gözlədi…

Təsadüfən əlindən xəta çıxdı. Beş il müddətinə həbs olundun. Haqqında bir qədər də ədalətsizlik etdilər. Buna dözə bilməyən anan birinci, atan isə ikinci il rəhmətə getdi. İnci ata üzü görməyən körpə Hicranı ilə tək qaldı. Bu arada şəhərdə ev alan ata-anası nə qədər məcbur etdilərsə o razılaşmadı, evindən çıxmadı. Anasının yalvarışları, ürəyini döndərmədi,onlarla getmədi.

Valideynləri, ürək-ciyər bir olan bacı-qardaşı getdi. İnci isə, sənin evindən, ocağından ayrılmadı. İşə girdi. Çalışdı. Evinizin bir çöpünü də əskiltmədi, əksinə üstünə gətirdi. Körpəsini əzizləyib böyütdü. Sənin də qoxunu ondan aldı. Qapı-bacanın, bağın-bostanın səliqəsinin pozulmasına imkan verdi. Evdə kişi olub-olmamasını hiss etdirmədi. İşə başı aşağı gedib qayıtdı. Heç kəs cəsarət edib üzünə gülmədi, artıq-əskik bir söz demədi.

İnci ancaq sənin xəyalınla yaşadı. Neçə-neçə ərizə yazdı, bir çox həqiqətləri aşkar etdi. Mən də işə qarışdım. Sənə verilən artıq işin üzərindən götürülməsinə nail olduq. Vaxtından tez azad oldun. Qonum-qonşu, tanış-biliş göz aydınlığına gəldi. Hamı da İncidən razılıq etdi. Eşitdin, öyrəndin ki, İncinin daxili, mənəvi aləmi xaricindən də gözəldir. O, kirpiyi ilə götürməyə, min cür əzaba, iztiraba, işgəncəyə dözməyə hazırdır. Təki sənin adına, sanına, şərəfinə bir ləkə gəlməsin. Təki sən dost-tanış içərisində başı uca ol...

Ailə səmimiyyəti, ailə sədaqəti, ailə səadəti və dost ülfəti sənə qol-qanad verdi. Özünü doğrultdun. Üzərindəki hər cür çirkabı sıyırıb atdın. İşdə fədakarlıq göstərdin, əməkdə qabaqcıl oldun. Partiyaya bərpa edildin. Yenidən məsul vəzifəyə keçdin...

Günlər ötdü. İnci saralıb solmağa başladı. Əvvəlki şuxluğunu tədricən itirdi. Sənə xidməti, nəvazişi qismən azaldı...

Tibb müayinəsindən aydın oldu ki, ürək xəstəliyinə tutulub. Həkimlər onu təcili müalicəyə aparmağı məsləhət gördü. Sənsə narahat olmadın, hərəkətə gəlmədin. Xəstənin vəziyyəti ağırlaşdı. Ürəyi daha şiddətlə ağrıdı, getdikcə zəiflədi. Yenə də dinib-danışmadı. Həya etdi. Gecələr sübhə qədər yata bilmədi. Ancaq "ah", "uf" etmədi. Səni narahat etməmək, yuxuna haram qatmamaq üçün yatağında da qımıldanmadı.

İnci ürəyinin dərdini ürəyinə saldı. Yandı, kimsəyə yanıram demədi. Dərdini səndən başqa hamıdan, sənə doğma qardaşından sadiq olan məndən də gizlətdi. Aralığa narazılıq, acılıq salmaq istəmədi. Bunları duya-duya, bilə-bilə daşürəkli oldun. Ömür-gün yoldaşına, gözəllik mücəssəməsi olan hicran balana, onun anasına biganə qaldın. Xəstəni evdə qoyub istirahətə, Soçiyə getdin, Qara dəniz sahilinə səyahətə çıxdın.

Qayıtdın. Əvvəlkindən də soyuq oldun. Get - gedə buza döndün. Nəfəsin evini, ocağını qızdırmadı. Sonra da aydınlaşdı ki, xəstəni müalicə etdirmək bəhanəsilə gündə neçə dəfə yanına gedib - gəldiyin həkim Dürdanənin ətəyindən yapışmısan...

Mənə ancaq bu zaman xəbər çatdı. Əvvəlcə özümü danladım. Sonra sənə dil tökdüm, nəsihət etdim, ibrətamiz misallar çəkdim. Bir fayda olmadı. Yalvardım, yaxardım, daş ürəyin yumşalmadı.

Ömrümü - günümü xəstə, sənətsiz-peşəsiz İnci ilə çürüdən deyiləm, - dedin.

- Onu təhsil almağa sən qoymadın, sənin ucbatından xəstə oldu, - dedim. Eşitmədin...

Bəd əməllərinin əks-sədası yayıldı. İnciyə də çatdı. Yolunda hər cür məhrumiyyətlərə dözən İncə bu təhqirə dözə bilmədi. Yatağa düşdü. Bir həftə sonra qəzetin dördüncü səhifəsində gözümə dəyən dörd-beş sətirlik yazı beynimi dumanlandırdı.

- Vicdansız! - dedim, - adam da İncidən ayrılarmı?!

Qəzetə də, gözümə də inanmadım. Zəng etdim. Səsimi eşidən kimi dəstəyi yerinə qoydun. Hiddətimdən, nifrətimin şiddətindən bədənim lərzəyə düşdü.

Bayılmaq dərəcəsinə çatdım. Sarsıldım. Əsəblərim tar siminə döndü. Yerimdən tərpənmək istədim. Dizlərim əsdi. Kresloya düşdüm. Əlimi qrafinə atdım. Titrəyə-titrəyə suyu başıma çəkdim. Bir balaca özümə gələn kimi bayıra sıçradım. Səni tapdım. Xahiş etdim ki, bizə gedək. Rədd etdin.

- Nə sözün varsa, gəl burada de, - deyib sağ tərəfdəki bağa buruldun. Oturub papirosunu (son vaxtlar vərdiş etdiyin papirosu) tüstülətdin. Nə dedimsə sözümü ağzıma təpdin. Məni də təhqir etməyə başladın. Dözdüm.

- Artıq gecdir, çox gecdir, - dedin, - Dürdanə hamilədir, uşağı var...

Sərsəm hala düşdüm. Nə danışmağa sözüm, nə də hərəkət etməyə taqətim qalmadı. Evə çatdım. Ağ saçlı atamı, səni böyük qardaş bilib hələ yanında dinib-danışmayan arvadımı, dörd yaşlı Azərimi sənə minnətə göndərdim. Onları da eşitmədin. Daşı ətəyindən tök mədin...

Utanmadan, əzab çəkmədən, ürəyin ağrımadan məhkəmədə dedin:

- İncinin daha uşağı olmur. Odur ki, mənim evimdə özünü müvəqqəti hesab edir. İki ayağını bir başmağa qoyub şəhərə, ata-anasının yanına getməyimizi tələb edir. Gündə bir bəhanə edib dava-dalaş salır, mənimlə yola getmir... Evim-ocağım suyu sovulmuş dəyirmana, ağzım zəhrimara dönüb... Daha birgə yaşamağımız mümkün deyil...

Ayrıldın, yaxşı elədin, üzün ağ olsun! Bəs sonra?! Sonra da başladın ki, ev də, evdəki əmlak da mənə çatmalıdır. Uşaq da öz yanımda qalmalıdır... Getdin, gəldin. Yazdın. Ortalığa adam saldın. Ədalət qanunu isə öz bildiyini etdi. Evi də, eşiyi də, uşaği da yazdı İncinin adına.

Xeyirxah adamların qayğıkeşliyi, həkimlərimizin yüksək humanizmi sayəsində İnci müalicə edildi. Yenidən işə girdi. Ali məktəbə qəbul oldu. Hicran da oxuyur, dərs əlaçısıdır. Həm də musiqi təhsili alır. Rahat həyat sürürlər. Heç kəsə, heç nəyə möhtac deyillər, ata nəfəsindən başqa... Təəccüb edirəm, sən yenə dincəlmirsən. Ev, uşaq istəyirsən. Hansı ixtiyarla, hansı hüquqla?! Məni də köməyə çağırırsan. Deyirsən ki, ixtiyar sahibisən, sözünü iki eləməzlər, hökmü dəyişdirə

bilərsən. Mənə kömək et, İncini evdən çıxartdır, balamı özümə qaytar. Qaytar ki, aliment verməkdən də azad olum. Təzə arvadın yanında xalım qalxsın...

Sən məndən bunu tələb edirsən. Mənsə yersiz tələbini ömrüm boyu rədd edəcəyəm. Özgə cür də edə bilmərəm. Ürəyim, məsləkim, vicdanım ancaq belə tələb edir. Tələb edir ki, sədaqət rəmzi olan ananın, anasının gözünə işıq, könlünə yaraşıq verən günahsız balanın haqqını müdafiə etdim.

Sənsə inciyirsən. Küsürsən, ünvanıma lənət, söyüş yağdırırsan. Adımın önünə "dönük", "satqın", "haqq itirən" və daha pis sözlər artırırsan... Nə edirsən et! Öz işindir. Mən ki, özümü haqlı bilirəm! Vicdanımın hökmünü yerinə yetirirəm!

*Soçi, 1966*

# RƏNA

*(Lirik hekayə)*

Nə üçün düşüncələrimə hakim kəsilirsən, Rəna? Axı, mən başqa bir sahədən yazmaq istəyirəm. Sənin haqqında yazmaq, mənalar dolu həyatını təsvir etmək mənim üçün çətin deyilmi? Necə, yoxsa inciyirsən? Yox, yox! İncimə, Rəna! Mən sənin üzündə ancaq təbəssüm görməyə alışmışam. Rəna, axı biz qüssə və kədərə qəlbimizdə yer verməmişik, bir-birimizin xoşbəxtliyi üçün hər cür çətinliyə sinə gərmiş, odlardan-alovlardan keçməyə həmişə hazır olmuşuq. Bunu sən çox gözəl bilirsən, bəs məndən nə üçün inciyirsən? Axı, mən səni təvazökarlıq nümunəsi bilirəm! Necə, sənin haqqında mütləq yazmağımı arzu edirsən? Nə olar, yaz deyirsən yazım. Qoy onda haqqındakı xatiratımı danışım, əgər layiq bilsən, sonra yazım, Rəna!

Biz yeddinci sinfi birlikdə bitirdik. Sən oxumaq üçün şəhərə getmədin. "Oxuyan harda olsa oxuyacaqdır"- deyə bizdən ayrılıb kənddə qaldın. Gündüzlər kolxozda işləyib, gecələr kəndli - gənclər məktəbinə getdin. Bütün günü qızmar günəşin şüaları altında işlədin, qaralıb yandın, əllərini qabar etdin. Lakin bunlar səni usandırmadı, əksinə daha da fərəhləndirdi. Sən elə birinci il işdə qabaqcıl, təhsildə əlaçı oldun...

Aradan üç il keçmişdi. Anamın kənddən göndərdiyi məktubu poçtalyondan alıb tələsik zərfi açdım. Lakin

zərfdə rayon qəzetindən başqa heç nə yox idi. Təəccüb etdim. Nə üçün anam rayon qəzetini mənə göndərmiş olsun? Səliqə ilə qatlanmış qəzeti açıb nəzərdən keçirdim. Qəzetdə iri bir şəkil vardı. Şəklin altında yazılmış "İllik planı 205 faiz yerinə yetirən tütünçülük manqabaşçısı Rəna Qeyrət qızı" sözlərini oxuyarkən qəlbim şiddətlə döyündü, sevincim həddi-hüdudu aşdı. Şəklə diqqətlə baxdım. Ah! Sən gülümsəyərək sanki mənimlə danışmaq, nə isə demək istəyirdin. O cazibədar gözlərin səadət eşqilə alışıb yanırdı...

Günlər nə qədər sürətlə gəlib keçirdi. Lakin son zamanın nəbzini tutmağı bacarır, ondan geri qalmırdın. Daim zamanı qabaqlamağa cəhd edirdin.

Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun qabağında səninlə təsadüfən görüşdüyüm günü unuda bilmirəm. Mən səni tanımadım. Məni sən tanıdın, sən səslədin... Bir-birimizdən ayrıldıqdan sonra sən nə qədər dəyişilmişdin! Ətə-qana dolmuş, gözəl-göyçək bir qız olmuşdun. Çatma, qara qaşlarına, süzgün baxışlarına, almaya bənzər yanaqlarına, təmkinli hərəkətlərinə baxdıqca mən səndə yeni-yeni gözəlliklər kəşf edirdim. Hüsnün qarşısındakı pərəstişkarlığım birə min artırdı. Hələ sən orta məktəbi əla attestatla qurtardığını və aqronomluq fakültəsinin qiyabi şöbəsinə qəbul olunduğunu söylədikdə nə qədər sevindim...

Qəzetlərdə sənin haqqında olan yazıları maraqla oxuyub, müvəffəqiyyətlərinlə tanış olsam da, səni bir daha kənddə - varlığımız qədər sevdiyimiz doğma kəndimizdə gördüm.

Sənə öz balası kimi nəvaziş göstərən anam, evə gəldiyimi elə birinci dəqiqələrdən haqqında söhbət açdı. Kənd və rayon içərisində böyük hörmət qazandığını, kolxoz idarə heyətinin üzvü, rayon sovetinin deputatı. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin iştirakçısı olduğunu söylədi. Bunlar, məni o qədər sevindirdi, o qədər həvəsləndirdi ki... Necə olursa-olsun sənin haqqında böyük bir əsər yazmağı qərara aldım. Lakin anamın dediyi kimi, səninlə evdə görüşmək, söhbət etmək çətin idi. Səni əbəs yerə "Tarla mələyi" adlandırmamışdılar.

Çox erkən oyandım. Tələsik paltarımı geyinib bayıra çıxdım. Çox tez idi. Tərəddüd etdim. Getmək istəmədim. Lakin sənin tarlaya birinci çıxdığını xatırladım. "Tarla mələyi"ni tarlada qarşılamaq, ayrı-ayrılıqda görüşüb danışmaq və sahəni birgə gəzib dolanmaq üçün ucu-bucağı görünməyən, yaşıl bir meşəni andıran tütün plantasiyasına tərəf yollandım. Başçılıq etdiyin manqanın sahəsinə "Kəklik qayasına" çatdım. Sahənin başlanğıcında dayandım. Lakin heç kəs görünmür, səs-səmir belə gəlmirdi. Gözlədim, həm də çox gözlədim...

Xeyli keçdi, sahənin dərinliklərinə doğru irəlilədim.

Sıra ilə düzülmüş yeşik və səbətləri gördüm. Bütün qablar səliqə ilə dərilib yığılmış tütün yarpaqları ilə dopdolu idi. Mən nə qədər yanılmışdım! Yerimdəcə donub qaldım. "Yaxşı deyiblər, aslanın, erkəyi dişisi olmaz"-deyə dərin düşüncələrə daldım. Məni bu düşüncələrdən ancaq dolu qabları aparmağa gələn sürücünün xəbərdarlığı ayırdı. Maşına minib tütün çardağına getməli oldum.

Maşın çardağa yaxınlaşdığı zaman qızları dövrə vurub oturmuş gördüm. Yalnız bir nəfər ayaq üstə dayanmışdı. O, danışır, bəzən də əlindəki qəzetdən parçalar oxuyaraq izah edirdi. Danışan kolxozun qabaqcıl təşkilatçısı olan sən idin, Rəna. Sən maşının gəldiyini görüb söhbətini yekunlaşdırdın. Maşını dövrəyə aldınız. Bu zaman məni gördün, hal-əhval tutdun. Bir azca söhbətdən sonra mən öz fikrimi sənə açdım. Lakin qəti etiraz etdin:

- Axı, mən nə iş görmüşəm, camaata nə xeyir vermişəm? Hələlik heç nə.

- Bəs gecə-gündüz çalışmaq, tər tökmək, dövlətə tonlarla artıq məhsul vermək, hamının hörmətini qazanmaq...

Sən sözümü kəsib:

- Yox, hələlik mən çox az iş görmüşəm, mənim hələ böyük arzularım var, sonraya qalsın, - dedin.

Günlər gəlib keçdi. Mən bir neçə vaxtdan sonra yenə də kəndə qayıtmalı oldum. Avtobusdan düşüb rayon mərkəzindəki mehmanxanada gecələməyi, sabah tezdən kəndə getməyi kəsdirdim. Mehmanxanada nömrə götürüb sonra evə zəng etdim, gəldiyimi anama xəbər verdim...

Aradan xeyli keçmişdi. Birdən qapı döyüldü. Mehmanxana xidmətçisi bir nəfərin məni gözlədiyini xəbər verdi. Alt mərtəbəyə endim. Qapını açarkən səninlə rastlaşdım. Görüşdük.

- Məni axtaran sənsənmi? - dedikdə:

- Bəli, mənəm, - deyib gülümsündün, - elə indicə gəldim. Naibə xala sənin dalınca göndərdi, gedək.

- Necə, səni niyə göndərdi? Gecənin bu vaxtı getmək olar? Maşın-zad da yoxdur, - dedim. Sən isə:

- Gedək, qorxma maşın tapılar,- deyə cavab verdin, - tez ol, get yığış gəl, mən küçədə gözləyirəm.

Çamadanımı götürüb küçəyə çıxdım. Orada duran yeni "Moskviç"i görüb sevindim. Öz-özümə - "yaxşı oldu, elə bu maşını kirayələyib gedərik" - dedim. Maşına yaxınlaşdım. İçərisi qaranlıq olduğundan sükanın dalında adam olduğu ancaq seçilirdi.

- Qardaş, bizi Kəklikli kəndinə aparmazsınız? - deyə xahiş etdim.

- Pulunuza minnət, niyə aparmıram...

Səs mənə tanış gəldi. Lakin tələsdiyimdən:

- Nə qədər qaydadır verərəm. Zəhmət çəkin çama danı yerləşdirin, mən də adam var çağırıb gəlirəm, - dedim.

Tanış səs:

- Siz indi mehmanxanadan çıxan qızımı axtarırsınız? O, küçə ilə aşağı endi. əyləşin, indi çatarıq, - dedikdə mən maşının arxa hissəsində oturdum. Maşın tərpəndi. Sükanı idarə edən, bir az əvvəl "qardaş" deyə müraciət etdiyim şəxs qadın idi. O, maşının sürətini getdikcə artırırdı.

- Bacı, ayıb olmasın, deyəsən, məni götürüb qaçırırsınız, bəs dediyiniz qız hanı?...

Sən geri çevrilib maşının içərisindəki işığı yandırdıqda mən özümü itirdim. Nə qədər məharətli qızsanmış, Rəna! Məni aldatmağın, usta bir sürücü olmağın...

Yolda Moskvaya gedib qayıtmağından, maşın almağından, institutu müvəffəqiyyətlə qurtarmağından, parti-

ya sıralarına qəbul edildiyindən, hazırda baş aqronom işlədiyindən danışdın və gələn il aspiranturaya qəbul olmaq arzunu söylədin.

Mən sənin haqqında yazmaq barədə söhbət saldıqda yenə də:

- Yox, hələ tezdir, hələ bütün arzularıma çatmamışam,- deyib etiraz etdin...

Bəs indi nə üçün gözlərim önündən çəkilmir, xəyalən məni əyləndirir, düşüncələrimə hakim kəsilirsən, Rəna? Axı, mən başqa bir sahədən yazmaq istəyirəm. Necə, yoxsa inciyirsən? Yox, yox! İncimə, Rəna! Yazacağam, mütləq yazacağam.Sənin yüksəliş yolunu "Yüksəliş yollarında" adlı romanımda ürəyimin qanı ilə təsvir edəcəyəm, Rəna!...

*Kəsəmən, 1956*

# ƏGƏR LAYİQƏMSƏ...

Mənim gözəl, göyçək Mələyim!

Görünür, sənə bu adı verərkən əfsanələrdə təsvir olunmuş mələklərə bənzəməyini arzulamışlar. Axı, o xeyirxah adamlar haradan biləydilər ki, əksinə olacaqmış, bu ad sənin gözəlliyin müqabilində bir heçə dönəcəkmiş. Mələklər özləri sənə həsəd aparacaq, qibtə edəcək, ziyarətinə enəcəklərmiş. Mən isə...

***

Mənim gözəl, göyçək Mələyim!

Deyirsən ki, təriflərdən təngə gəlmişəm. Barı, sənsə sus, danışma.

Mənim Mələyim! Nə üçün qarşımda mümkün olmayan tələb qoyursan? Bitməz işə buyurub, adımı da yarıtmaz qoymaq istəyirsən? Dolan buluda boşalma, qaynayan suya daşma, coşan nərə yatağından çıxma demək olarmı? Yanağına bülbülün nəfəsi dəyən qönçəyə necə demək olar ki, açma? Gül ətrafa ətir saçırkən bülbülə necə demək olar ki, oxuma?!

Narahatçılıqdan danışırsan.Bəs özünün nələr etdiyindən xəbərin varmı? Mənə nə divan tutduğunu bilirsənmi? Bilirsənmi ki, rahatlıq sözünü daha mən təsəvvürümə də gətirmirəm. Gündüzümü gecəmə, gecə-

mi gündüzümə qatıb, yuxumu ərşə çəkmisən. Gözümü yolda, qulağımı səsdə, könlümü həsrətdə qoymusan.

Mələyim! Axı sən ağıllı-kamallı qızsan. Nə üçün ancaq hökm vermək, əzab vermək, qarşında hamını müntəzir görmək istəyirsən? Mən özümdə yenilməz qüdrət, tükənməz qüvvə hiss etdiyim halda, sən bununla qane olmaq, kifayətlənmək istəmir, aləmi itaətində görməyə cəhd edirsən? Mən isə ancaq səni eşitmək, səni və qəlbini dinləmək, ömrüm boyu qayğını çəkmək niyyətindəyəm və bunu özüm üçün əvəzolunmaz səadət bilirəm. Sən nə üçün mənim bu səadətə çatmağıma razı olmayasan?

Mənə deyirsən ki, sən əsl aşiq deyilsən, sevənlər Məcnun kimi olar. And içirəm. Amma inan ki, mənim sevgim Məcnunun eşqindən əsla əskik deyil. Mən, Məcnunun böyük və ali məhəbbəti qarşısında baş əyirəm. Ancaq Məcnun ola bilmərəm. Buna sən özün də razı olmamalısan.

Məcnun divanə olub dağlara düşdü. Gözünə Leylisindən başqa heç nə görünmədi, heç nə barədə düşünmədi.

Mən Məcnunun yolunu tuta bilərəmmi? Yaşadığımız zaman mənə bu ixtiyarı verərmi? Yox! Əsla yox!

Mən sevirəm, məhəbbətim naminə hər cür fədakarlığa hazıram. Lakin dağlara düşməyə yox. Əgər mən dağlara düşsəm, bəs onda səni və məni boya-başa çatdıran, ərsəyə yetirən anaların xidmətində kim dursun? Səni gözəllik nümunəsi, məni isə onun pərəstişkarı səviyyəsinə qaldıran ana təbiətin borcunu kim özünə qaytarsın? Sənin gözəlliyin göydən enməyib. Onu sənə

anan və anamız təbiət verib. Sən və mən bizə etibar edilən bu yadigarı əzizləyib saxlamalı, başqa birisinə təqdim etməli, Məlakənin və ya Yenilməzin timsalında gələcəyə göndərməliyik. Əgər mən dağlara çəkilsəm, sənin və səni əvəz edənlərin keşiyində kim dursun, sizi-gözəlliyin canlı daşıyıcılarını kim hifz etsin?...

Mənim Mələyim!

Mən sənə yalvarmıram. Göz yaşı tökməyi də özümə rəva görmürəm. Təntənəli vədlər verib, dönə-dönə and içməyi də artıq sanıram. Bircə onu, onu deyirəm ki, səni sevirəm, ürəyimin bütün hərarətilə sevirəm. İndi söz sənindir. Özün necə bilirsənsə, elə də hərəkət elə. Əgər sənin məhəbbətinə layiqəmsə, təklifimi qəbul et. Layiq deyiləmsə...

# OĞUL İSTƏYİRƏM

Qeyri-adi adamların dünyaya gəlməsi də, dünyadan getməsi də bəzən adi olmur. Elə bil ki, nə isə təbiət ilk gündən onları fərqləndirir, diqqət mərkəzinə atır.

Payızın son ayı təzə girmişdi. Təbiət öz səxavətindən əl çəkir, qəddarlaşır, ziyanı-ziyan üstünsən vururdu. Gah ara vermədən yağış yağdırıb olub qalanı çürüdür, puç edir, gah da şaxtası, soyuğu ilə inkişafını dayandırmayan bitkiləri yandırıb qaraldırdı. Adamlar son işlərini görməyə fürsət axtarır, günəşin hərarətini duyan kimi əl-ayağa düşürdülər.

Güclü şaxtadan sonra hava sakitləşmiş, elə bil yay geri qayıtmışdı. Belə hallara qışın xəbərdarlığı deyirlər. Guya qış bir dəfə başını uzadıb çəkməsə el-oba arxayınlaşar, onu hazırlıqlı qarşılamaz. Qışın xəbərdarlığı adamları yaman səfərbər hala salır. Kəndlinin uşağından böyüyünə hamısı işə girişir, yarımçıq qalan bütün işlərini sona çatdırır.

Ailənin başçısı Niyaz qızları Cəmalə ilə Zəmanəni götürüb lap tezdən gəvən (yanacaq) qırmağa gedib. Arvadı Səlimə isə yarımçıq qalan yeri yenidən suvarmağa, toyuq-cücəyə dən çıxarmağa girişib. İki yaşlı Sərvinaz tez-tez ağlayıb mane olur. Səlimə özünü yaxşı hiss etmir. Gün batır. İş isə qurtarmır. Kim bilir bəlkə hava sabah yenidən xarablaşacaqdır?! Səlimə canını dişinə tutub inadla işləyir. Qızı da, qoyun-quzunun çöldən qayıdıb gəlməsini də unudur. İşi qurtarhaqur-

tarda qonşu qadının qalmaqal səsi onu başını qaldırmağa məcbur edir.

- Ay Səlimə, bu bərəkəti göyə çıxmışınızın qabağına niyə çıxmırsınız? – deyə Badam qarı qışqırır, - çətənəni tutardan salıblar.

Səlimə azca qəddini düzəldir. Cavab vermək, söz qaytarmaq əvəzinə.

- Badam xala, - deyir, bağışla, uşaqlar gəvənə gediblər, hələ gəlib çıxmayıblar. Ağrın alım, qapını aç qoyunları içəri damla, buncağızı əlimdən çıxarım. Özü də gör necədir?

Badam qarı yumşalır. Qabağa gəlib qapını açır. Qoyunları içəri salır. Sonra da qayıdıb deyir:

- Ağız, gərək sizin qoyun 10 olsun, biri əskikdir. Sən işində ol, mən həm çobana xəbər edim, həm də gedib inəyinizi gətirim.

Badam qarı inəyi də gətirib gəlir. İçəri qatıb Səlimənin yanına keçir. Səlimənin işi qurtardığını, lakin oturub qaldığını gördükdə təəccüb edir.

- Ağız, soyuğun qabağına niyə sərilmisən? Bu uşağı niyə ləlidirsən? Qançır olarsan, qalx içəri,- deyir, uşağı götürüb qucağına alır.

- Badam xala, heç taqətim yoxdur. Bir balaca özümə gəlim, qalxacağam. Sən uşağı apar, gələnə qədər Hilalə saxlasın.

Qarı Sərvinazı da qucağına alıb gedir. Səlimə vəziyyətinin daha da ağırlaşdığını görüb çətinliklə ayağa qalxır. Birtəhər özünü içəri otağa salır. Bihuş halda yerə düşür. Sancısı şiddətlənir. Vahimə hissindən ürəyinə üşütmə çökür.

- Bismillah, bismillah, - deyib qışqırır, - ay gavur, rədd ol burdan... . Ayağa qalxmaq istəyir, bacarmır. Gücünü toplayıb bir də dikəlməyə çalışdıqda çağa vığıltısı eşidilir:

- Vığğ, vığğ, vığğ...

Dəqiqələr keçir. Ana qismən özünə gəlir. Lakin əlini uşağa atmır. Niyə? Axı, o bu günü, bu anı həsrətlə, ürək döyüntüsü ilə gözləyirdi. Özü də illərdən, aylardan bəri gözləyirdi. Bəs indi?...

***

Niyaz Səlimənin ikinci əridir. İlk əri, məşhur el aşığı Bəhruz düşmən gülləsindən həlak olanda arvadının qoltuğunda üç uşağı qaldı. İki qız, bir oğul. Oğlu yeddi yaşlı Qabil atasının qırxında həyata gözünü yumdu. Ananın dərdi-qəmi həddini aşdı, naləsi evə-ocağa od saldı. Qonum-qonşu öyüd-nəsihət verib, başına ağıl qoydu. Özü də hiss etdi ki, olan olub, ciyərini odlamağa dəyməz. İçin-için ağladı. Qəlbinin atəşini gözünün yaşı ilə söndürdü. Get-gedə əlinin-ayağının uyuşuğu açıldı. Qapı-bacanın qayğısına qalmağa başladı. Qəlbində qəm dəryası ola-ola üç ildən sonra qəm libasını soyundurdular.

- Ay bala, cavan ömrünü çürütmə, - dedilər, - uşaqların da yazıqdır. Qoy birini gətirək evinə. Həm özün bu zülmdən çıx, həm də uşaqlarına atalıq etsin.

- Səlimə təkid etdi. Bir il də keçdi. 13 yaşında ərə verilən Səlimə 27 yaşında ikinci dəfə ərə getdi. Bu izdivac ürəyindən olmasa da, hər şeyi ürəyinə saldı. Bəxtindən getdiyi oğlan pis çıxmadı. Özü tək, kasıb olsa da ürəyi geniş, zəngin oldu.

Zəmalə ilə Zəmanə qardaş gözlədikləri halda bacıları oldu. Ananın, qızlarının intizarı artdı. Axı, onların diləyi ayrı idi. İstəyirdilər oğlan olsun. Qabilin adını daşısın...

Səlimə özünü ələ aldı. Çətinliklə lampanı yandırdı. Əski-ağ gətirdi, göbəyini kəsdi. Bələyib beşiyə qoydu.

- Xudaya, verdiyinə şükür!- dedi.- Diləyimə çatdım. Bir diləyim də var. əgər bu uşağı biqeyrət edəcəksənsə, indidən al əlimdən. Mən səndən oğul istəyirəm, baş qaxıncı yox.

Bu sözləri o birinci dəfə demirdi. Qəlbi oğul həsrəti ilə döyünən gündən həmişə də belə deyərdi.

- Mən oğul istəyirəm, qeyrətli oğul.

Ailə üzvləri, qonşular, qohumlar bir-bir evə toplaşdılar. Hamını təəccüb götürdü. Afərin, belə oğul anasına! Özü doğub, göbəyini özü kəsib! Bunu əfsanələrdə söyləyirlər. Birinin igidliyindən söhbət açanda deyirlər:
Anası tək doğub, göbəyini tək kəsib!

Ananın, uşağın yerini rahatladılar. Qızların səs-küyündən, qəh-qəhəsindən qulaq tutulurdu. Onlar çağanı əllərindən yerə qoymur, üz-gözünü duz kimi yalayırdılar. Qonşu kənddə yaşayan nənələri gəlib çıxmasa, kim bilir körpənin başına nə oyun gətirəcəkdilər.

Səlimənin anası Həlimə qarı özü ilə "hal dabanı", "Süleyman"ın gözmuncuğunu da gətirmişdi. Qızının yastığı altına iki düyüncə qoydu, uşağın bələyinə muncuq taxdı. Evin üstünə iri tikanlı muncuq sancdırdı ki, pis gözlər tikana rast gəlsin. Həm də xəbərsiz olaraq kimsə içəri girməsin, uşağa duva verərlər.

Nənənin, Həlimə qarının qonşuya getməsindən istifadə edən Səlimə böyük qızına dedi:

- Tez bir əl tərəzisini, bir də yağ küpəmizi buraya gətir.

Cəmalə ikisini də gətirdi. Səlimə düşüb uşağı tərəzinin bir gözünə qoydu. Onun ağırlığında yağ çəkdi. Sonra dedi:

- Nənən gələnə qədər un ələ. De, qoy həmin yağdan quymaq bişirsin. Özünüz küpdən işlədin.

Həlimə qarı qayıdıb quymaq bişirdi. Səlimə doyunca yedi. Əməlli geyindi. Belini sarıdı.

Üçüncü gün "zahı" bayırda göründü. Eşik-baca işlərinə əl atdı.

- Bəxtəvərli sevincindən dəli olub, - dedilər, - başına su çıxacaq.

- Özü doğub, özü kəsənə heç nə olmaz, Allah vergisidir, - deyənlər də oldu.

Səlimə nə dəli, nə də divanə oldu. Başına su da çıxmadı. Qalxan kimi, divarın başına sancılan tikanı, damın üstündəki kolu da götürüb tulladı.

Mən, Allahımdan oğul istəmişəm, - dedi,- verir versin, vermir də öz işidir. Verən də odur, alan da. İtburnu koluna sığınan oğul mənə lazım deyil.

# QEYRƏT HAQQINDA HEKAYƏLƏR

## İŞÇİ ARI KİMİ

Babası hər dəfə arılara baxanda Qeyrət onun yanını kəsib durur, yeşiklərə boylanır, qaynayıb vızıldaşan arılara maraqla tamaşa edirdi. Odur ki, babası məcbur olub ona da arıçı papağı tikmişdi.

Bir gün Qeyrət bir yeşikdə çoxlu ölü arı gördü. Dirilər ölüləri sürüyüb bayıra salırdılar.

- Baba, onlar niyə ölüb?
- Yoldaşları öldürüb.
- Niyə, onlar neynəyiblər ki?
- Onlara " erkək arı" deyirlər. İşə çıxmırlar. Boş - bekar oturub, başqalarının gətirdiyini yeyirlər. Odur ki, işçi arılar onları öldürüb çölə atırlar.
- Baba, işçi arılar yaxşıdır eləmi? Balı da, mumu da onlar hazırlayırlar.
- Əlbəttə, işləyənlər yaxşıdır.
- Bə adamın işləməyənini neyləyirlər?
- Danlayırlar, tənbəl deyirlər.
- Baba, tənbəl pisdir. Mən də yekələndə işçi arı kimi olacağam.

...Onda Qeyrətin dörd yaşı vardı.

## DƏDƏ

Qeyrət məndən soruşdu:

- Babam sənin nəyindir?
- Atamdır, - dedim.
- Bə niyə ona dədə deyirsən?

- Dədə yaxşı sözdür. Evin böyüyü, ailənin başçısı deməkdir.

O, xeyli fikirləşdi. Sonra:

- Onda, bu gündən mən də sənə dədə deyəcəyəm.

Ilk günlər yanılırdı, məni bəzən əvvəlki kimi çağırırdı. Günlər keçdi. O, dədə deməyə vərdiş etdi.

## CƏZA

- Babamın əli niyə elədir?
- Necədir ki, Qeyrət?
- Yaralı, barmaqları əyri, kəsik.
- Müharibədə olub, faşistlər eləyib.
- Faşistlər kimdir?
- Pis adamlardır. İnsanı öldürən, evləri, bağları yandıran, uşaqları oda atan vəhşilərdir. Canavardan, şirdən pisdirlər.
- Bə sən niyə qoydun babamın əlini döyüb əzələr?
- Bu çoxdan olub. Onda mən balaca idim.
- Nə olar balaca olanda? Faşistlər bir də gəlsələr, mən babama qahmar çıxacağam. Quşatanla onların əlini əzəcəyəm.

Həmin söhbətdən bir neçə həftə keçmişdi.

Anam məni səslədi. Bayıra çıxdım.

- Oğluna sən nə deyibsən?- dedi. Qoymur itə yal verəm.
- Niyə?

- Köpəyi dama salıb, qapısının dalında da daş ağac yığıb.
- Aç, Qeyrət, yazıqdı acından ölər.
- Yox, açmaram. O, faşist olmuşdu.
- Nə faşist, neyləmişdi?
- Küçüyümüzü boğub öldürdü. Mən də tutub dustaq eləmişəm. Qoy ağlı başına gəlsin, bir də faşist olmasın.

Bir söz demədik. Qeyrət haqlı idi.

## YUMURTA ƏHVALATI

Eyvanda oturub kitab oxuyurdum. Uşaq ağlaması eşidib bayıra çıxdım. Ağlayan ortancıl oğlum Rövşən idi. Qeyrət onun əlindən tutub evə tərəf çəkirdi. O, isə dartınıb gəlmək istəmirdi.

- Nə olub, nə qalmaqal salmısınız? - dedim.

Rövşən səsimi eşitdikdə daha bərkdən hönkürdü.
Onlara yaxınlaşdım:

- Deyin görüm, nə olub?

Rövşən hıçqıra-hıçqıra dedi:

- Mən yumurta tapmışam. Qeyrət qoymur papağıma yığam, nənəmə verəm bişirə.
- Hanı?
- Gəl göstərim.

Bağçanın küncündəki çır-çırpının altında toyuq yuva düzəldib yumurtlamışdı. Yuvada altı yumurta vardı.

- Qeyrət, niyə qoymursan götürə? O ki, özü tapıb, qoy aparıb bişirtdirsin.

- Axı, bəlkə bizim deyil.
- Bəs kimindir?
- Dədə, ola bilər ki, qonşunun toyuğu gəlib yumurtlayıb.
- Yumurtanın üstünə toyuğun adı ha yazılmayıb, kimin olduğunu nədən bilmək olar?
- Mən bilərəm. Pusquda duracağam. Kimin toyuğu bir də gəlib yuvaya girsə, demək onundur.

Buna Rövşən də razı oldu.

Həmin günün sabahı Qeyrətlə Rövşən aparıb qonşuya 7 yumurta verdilər.

## QEYRƏT DAĞA GETMƏDİ

Aprelin otuzu idi. Qeyrət mənə dedi:

- Bu gün sinif yoldaşlarımla sözləşmişik ki, sabah dağa çıxaq. Bayramı "Cütbulaqların" üstündə keçirək.\

O, duruxdu.

- Sonra?
- Uşaqlar dedi ki, özümüzlə də yemək götürək.
- Get. Nə lazımdır nənəndən istə.
- Nənəm deyir ki, dədəndən icazə al, sonra.
- De ki, mən razıyam.

Mayın 1-i idi.

Günəş günorta yerinə qalxmışdı. Təmiz hava almaq üçün bağçamıza çıxmışdım. Səs eşidib dayandım.

Qeyrətlə bir oğlan uşağı ağacların arasındakı yaşıllığa qəzet sərib oturmuşdular. Qabaqlarındakı süfrənin

üstündə ət, pendir, göyərti, şirniyyat, bir dənə də şüşə vardı. Onlar iştahla yeyir, nə barədəsə danışıb gülürdülər. Ağacın daldasında dayandığımdan onlar məni görmürdülər. Odur ki, hiss etdirmədən də geri qayıtdım. Gördüklərimi anama danışdım.

- Bilirəm, ay oğul, - dedi, - pis gözdən uzaq olsun. Qeyrətin əməllicə adam olacaq.

Sonra əhvalatı danışmağa başladı:

- Uşaqlar şərtləşdikləri yerə toplaşıblarmış. Kimin nə gətirib-gətirmədiyini soruşublar. Həmin bu uşaq da poçtalyon Əsədin oğludur, Fariz. Anası xeyli vaxtdır ki, xəstəxanadadır. Atası da onun yanına gedibmiş. Odur ki, uşaq əliboş gəlibmiş. Kimsə xətrinə dəyib:
- Uşaqlar, siz gedin, mən də qayıdıram.

Nəvəmin gözünə dönüm, qaçıb oğlana çatıb. Könlünü yumşaldıb, evimizə gətirib.

- Ay nənə, - dedi, qonağım var. Dilini işə saldı:

Ay mənim xallı nənəm,
Qaymaqlı, ballı nənəm.
İstəyimi verginən,
Ay qəşəng camallı nənəm.

Mən də əlimdən gələni verdim. Hələ bir şüşə də meyvə şirəsi.

## KÖYNƏK

Qeyrət I sinfi bitirmişdi. Sabah tezdən pioner düşərgəsinə yola düşməli idi.

Onu çağırıb soruşdum:

- Hazırsanmı?

- Hazıram.- dedi. - Amma Səlim getməsə, mən də getməyəcəm.
- Səlim niyə getmir ki?
- İşi düzəlmir. Vaxtında üst köynəyi almayıblar. İndi də dükanlarda yoxdur.

Susduq. Ani fikirdən sonra Qeyrət dedi:

- Dədə, gəl bir iş görək.
- Nə iş?
- Mənim təzə köynəyimi verək Səlimə.
- Bəs özün?
- Əynimdəki mənə bəsdir, köhnə köynəyimdə dirsilməyib.
- Öz işindir, verirsən ver.

O:

- Bu dəqiqə apararam, - deyib sevinclə otağa cumdu.

## SONRA YEYƏRƏM

Qeyrət Göyçə gölünün kənarındakı pioner düşərgəsində dincəlirdi. Ona baş çəkməyə getmişdim. Özümlə də bir qədər meyvə aparmışdım. Sən demə həmin gün Qeyrət növbətçi imiş.

Görüşəndən sonra:

- Meyvə gətirmişəm, aç ye, - dedim.
- Sonra yeyərəm, - dedi. Zənbilin ağzını da açmadı.

Mən, çadırdan bayıra çıxıb vaxtilə şagirdim olan dəstə rəhbəri ilə söhbətə başladım.

Bir qədər keçdi. Uşaqlar çimməkdən qayıtdılar.

Mən, dəstə rəhbəri ilə xudahafizləşib, gətirdiyim zənbili götürmək üçün yenidən çadıra girdim. Uşaqların hamısı meyvə yeyirdi, mənim gətirdiyim meyvədən.

## MƏŞQÇİ QEYRƏT

Anası dedi:

- Qeyrətin on yaşı tamam olur. Özü də üçüncünü "5"-lə qurtarıb. Tərifnamə də veriblər. Uşağa əməlli bir hədiyyə al.

Mən də çox götür-qoydan sonta ona "məktəbli" velosipedi aldım. Qeyrət bir neçə dəfə yıxılıb durduqdan sonra özünü tarazladı. Ikinci gün velosipedi sərbəst sürməyə başladı.

Bir həftə ötməmiş dedi:

- Qapımız dardır, icazə verdin gedib kolxozun idman meydanında sürüm.
- Bəs babana kim kömək eləsin? Vədin nə tez yadından çıxdı? Söz vermişdin ki, tətildə babamın işlərinin çoxunu özüm görəcəyəm.
- Babamla razılaşmışıq. Quzularımızı çölə ötürəndən sonra gedib saat yarım sürəcəyəm. Bir də axşam sərinində saat yarım, quzular qayıdana qədər.
- Üç saat çoxdur. Gündə iki saat məşğul ol.
- Çox yaxşı.

Bu söhbətdən on-on beş gün keçmişdi. Qeyrətin sinif müəllimi ilə qarşılaşdıq.

- Qeyrəti sağ olsun, - dedi,- gözəl bir təşəbbüs göstərib.
- Nə təşəbbüs, Musa müəllim?

Velosipedçilər dərnəyi təşkil edibmiş. Sinif yoldaşlarından on nəfərini yaxşıca öyrədibmiş. Dünən yarış təşkil edib, məni də çağırmışdılar. Düzü heyran qaldım. Afərin Qeyrətə, əməllicə məşqçi imiş.

## MƏKTUB

- Dədə, bilirsən aranda nə qədər isti var?
- Nə qədər?
- 45 dərəcə.
- Nə bilirsən?
- Tezdən radiodan eşitdim.
- Neyləyək olsun da, aranda isti olar.
- Bəs oradakı uşaqlar?
- Hə, uşaqlara bir az çətindir.
- Yunisgil indi tərdən boğulur.

Onun nə demək istədiyini anladım. Lakin sözünün sonunu gözlədim.

- Dədə, qoy Yunislə Fazilə məktub yazım.
- Nə yazacaqsan?
- Yazım ki,gəlin məktəb açılana qədər bizdə qalın.
- Axı, onlar tək gələ bilməzlər.
- Onda ailəliklə gəlsinlər. Böyük otağımızı verək onlara. Siz orta otaqda yatın, nənəmlə uşaqlar yan otaqda. Babamla mən də eyvanda, yaydı, daha yaxşı.
- Yaz, amma əvvəlcə gətir, mən oxuyum.

Məktubun altından bir-iki cümlə də mən əlavə etdim.

7-8 gündən sonra aranda yaşayan Məcid müəllim bir neçə gün qaldıqdan sonra:

- Uşaqlarla anası qalsın, - mən gedib bağa-bostana baxım.

Uşaqlar tədricən dağ havasına uyğunlaşdılar. Getdikcə əməlləşdilər, ətə-qana gəldilər.

Onlar evlərinə qayıdanda belə şərtləşdilər ki, Qeyrət də qış tətilində arana getsin.

...Elə həmin qış Qeyrət babası ilə arana getdi.

Bu gediş-gəliş indi də davam edir.

# ELOĞLUNUN DEDİKLƏRİ

## MƏQAMINDA DEYİLƏN SÖZ

***

Tanınmış yer axtarma, getdiyin yeri tanı.

***

Mən ölməkdən qorxmuram, faydasız olmaq təhlükəsindən dəhşətə gəlirəm.

***

Dəmirin işləməyəni pas tutduğu kimi, fəaliyyətsiz adamı da qərəmət basır.

***

Pis, ziyanlı təcrübədənsə, təcrübənin heç olmaması yaxşıdır.

***

Həqiqəti də hər yerdə deməzlər.

***

Vəzifənin böyüməsi – qeyrətlilər üçün, el-obasına xidmət etmək arzusu ilə yaşayanlar üçün imkanın, meydanın böyüməsidir.

***

Məqamı çatmamış deyilən söz- tuşlanmadan atılan güllə kimidir.

***

Sinəsi dolu olanın nitqi də rəvan olur.

***

Məndən olsaydı “nümunəvi müəllim” ifadəsini “nümunəvi insan” ifadəsindən ayrı işlətməzdim.

***

“Yaxşı işçi olmasa da, yaxşı adamdır” fikrini mən qətiyyətlə rədd edirəm. Əgər işçi geri qalır, danlanır və bundan uzun müddət nəticə çıxarmırsa, fəallaşmır, irəliləmirsə, deməli o, zərif hiss və duyğulara malik deyildir. Bu keyfiyyətlərdən məhrum adamlar isə yaxşılıq nümunəsi ola bilməzlər. Yaxşılar adətən yaxşı da işçi olurlar.

***

Dostluq və yoldaşlıqda qızlar və qadınlar daha fədakar olurlar.

***

Necə yəni hamıya yaxşılıq etmək lazımdır?

Tutaq ki, biri pisdir, fikri-zikri fənalıq görməkdir. Şeytan kimi, iblis kimi nalədən nəşələnib qəşş edir.

Beləsinə yaxşılıq etmək, əl-qol açmasına imkan vermək - pərpətöyün və qanqalın yetişib toxumlarının ətrafa yayılmasına kömək etməkdir. Axı bir də naqis və şər-xata adamlar alaq otu kimi üzlü və dözümlü olurlar, faydalıları köklənənə qədər üstələyir, onların payını əllərindən alırlar. Odur ki, hamıya qarşı eyni dərəcədə mülayimlik göstərmək maymaqlıq və acizlikdir. Əsl xeyirxahlıq - bədə və şərə qarşı döyüşə-döyüşə faydalı və nəcib adamlara əl tutmaqdır.

***

Ailə qurmaqda gənclərə sərbəstlik verməliyik. Kimin və nəyinsə naminə onları ömürlük iztiraba salmaq əsl cinayətdir. Sevgi və nigah məsələlərində könüllərin səsinə qulaq asmağa borcluyuq. Yoxsa, Aşıq Ələsgər demişkən -

*İki könül bir-birini tutmasa,*

*Alan da yazıqdır, gələn də yazıq.*

***

Qadınlarda gördüyüm etibar və sədaqəti kişilərin çox qismində görməmişəm.

***

Müdrik qadın ərinin ən yaxşı məsləhətçisidir.

***

Adam sərxoşluq dərəcəsində araq şüşəsindən başqa hər şeyi unudur.

***

Hamı tərəfindən tədqiq olunan qaydaların əksinə hərəkət etməklə özünü göstərmək istəyənlər, əslində qeyri-yetkin olduqlarını biruzə verirlər.

***

Nə özünü qına, nə də məni. Gözlərindən saçan şəfəq yollarımı işıqlandırmasaydı, bu qaranlıqda gəlib səni necə tapa bilərdim? Sən gözünlə bacaran deyilsən, mən də özümlə. Yaxşısı budur ki, sən gözlərinin istəyinə əməl et, mən də ürəyimin.

***

Elə bilməyin ki, mən ölümdən qorxuram. Yox, başladığım işlərin yarımçıq qalacağı məni narahat edir.

***

Əzizim! Özünü insana borclu bilənlər göstərdikləri xidmət, yaxşılıq üçün heç kəsdən əvəz gözləmirlər.

***

Qəhrəmanlıq və fədakarlıq özünü qorumağı və xırda diplomatiyanı tanımır. Ancaq özünü əsirgəməyənlər, mərdlər və səxavətlilər qəhrəman olurlar. Qəhrəmanlıq

və fədakarlıq düşünülmüş hərəkət deyil, şəxsin daxili aləmi, xisləti və fitrəti ilə bağlı keyfiyyətlərdir.

***

Mənə güzəşt edilməsinə nifrət edirəm. Bir şeyi bilin ki, mənim kimilər pəncələri və dizləri üstə hərəkət etmək vəziyyətində belə güzəşt və sədəqəyə ehtiyac duymurlar.

***

İxtiyar sahibləri mərhəmətli olmalıdır.

***

Qane etmək çətindir, rədd etməyə, könülə toxunmağa nə var ki?!

***

Bütün hallarda məzlumun halı məni düşündürür, için-için ağladır. Niyəsini bilmirəm, bəlkə göz yaşlarımla hamının halına yanmaq həsrətini söndürmək istəyirəm.

***

Elə bil ki, dünyaya başqaları üçün gəlmişəm. Təki hamının işi avand olsun, heç kəs əzab-işgəncə çəkməsin. Mənə bunlar bəs edir.

***

Ən böyük xoşbəxtlik başqalarına xoşbəxtlik bəxş etməkdir.

Danışmaq üçün nağıl, susmaq üçün ağıl lazımdır.

***

Yüz mənsəbpərəstin saxta təbəssümündən, mənim üçün bir məzlumun xeyirxahlığıma söz tapa bilməməsi yaxşıdır.

***

Bilmirəm niyə tez-tez ölümü yada salıram? Görünür, güclü rəqib axtarıram, axı mən pəncələşməyə vərdiş etmişəm.

***

Yaman kinli olurmuş ölüm! Hər məğlubiyyətindən sonra mənə qəzəblə baxır, dişlərini qıcıdır. Həm də şöhrətpərəstdir bu ölüm. Özünü sübut və təsdiq etmək üçün mənimlə küştiyə çıxır. Daha bilmir ki, mən də onun zəif damarını tuta bilmişəm. Qoy nə olur-olsun, mən ki, ona bir neçə ölüm qədər əzab vermişəm.

***

Tamahkarlıq təkcə bəla deyil, həm də xəstəlikdir. Xəstənin özü müalicə olunmağa səy göstərməsə, verilən dava-dərmanın istənilən xeyri olmaz.

***

Rüşvət təklif etdiyinizə görə sizi qınamıram, məni başqalarından fərqləndirə bilmədiyinizə təəssüf edirəm.

***

Hakimin məharəti haqqı nahaqdan ayırmağındadır. Əks təqdirdə onun ticarətçidən, alverçidən nə fərqi?

***

Haqq və ədalətin əsgəri olduğumdan özümü həmişə döyüş meydanında hesab edirəm.

***

Məsləki olanın yolu olar, məsləksizin nə yolu?!

***

Əvf etməyi bacarmayan rəhbərlik etməyi bacarmaz.

***

Rəhm etmək böyüklük əlamətidir.

***

Nə haqsız olaraq bir kimsənin xətrinə dəy, nə də başqasına boyun əy.

***

Xəstə hamıdan, hətta çoxdan yada salmadığı adamlardan umub küsür. Bəlkə də bu təbiidir. Görünür, hər ehtimala qarşı, hamı ilə halallaşmaq istəyir.

***

Qadın bütün yaşlarında qadındır və həmişə də kişi nəvazişinə möhtacdır.

***

Qabiliyyətsiz elə bilir ki, pul buraxılış vərəqidir.

***

Yaşamaq eşqini anamdan, dönməzliyi atamdan əxz etmişəm. Anamın el anası, atamın atalar atası olması ilə fəxr edirəm. Kaş atam kimi olaydım… Dünyada atamdan çox paxıllığını çəkdiyim adam yoxdur. Ha çalışıramsa, onun kimi ata ola bilmirəm.

***

Nə qədər anam sağ idi ölməkdən, onun ürəyinə dağ çəkmək əzabından qorxurdum. İndi nədən qorxacağam ki?!

***

Ana və uşaq anlayışı münasibəti bütün yaş dərəcələrində eyni qalır. Burada yaşın məsələyə dəxli yoxdur, istər beş olsun, istərsə də yüz beş. Sən bütün yaşlarında ana mehrinə möhtacsan.

***

Böyük arzular və əməllərlə yaşamadan, böyük olmaq, ülvi bir zamanın yolçusu olmadan yüksəklərə qalxmaq mümkün deyildir.

***

Kinlilik və intiqamçılıqla böyüklük bir araya sığmır.

Böyüklük – böyük dözümdür .

Özündən xırdalarla öcəşmək böyüklərə yaramaz. Lakin yersiz güzəşt də olmamalıdır.

***

Həyasız adam da ölüm kimidir, qabağından çəkildikcə üstünə ayaq alacaqdır.

***

Adətən, qoyulmuş qaydaları pozanlar qanunsuzluqdan daha çox gileylənirlər.

***

Hər kəs zəhmətinə güvənsəydi, alın təri ilə yaşamağa vərdiş etsəydi, onda nə paxıllıq, nə də yaltaqlıq olardı.

***

Paxıllıq istedadsızlıqdan, tənbəllikdən, özünü işə salmaqdan, xəbərçilik gözügötürməzlikdən, yaltaqlıq təmənna güdməkdən irəli gəlir. Paxıllıq – ömrün, xəbərçilik – mənliyin, yaltaqlıq – ləyaqətin qayçısıdır.

***

Məsuliyyət hissi özünü borclu bilməkdən doğur.

Mənim böyüklüyüm başqaları üçün cavabdehlik daşımağımdadır.

***

Mən özümü həmişə başqalarına borclu bilirəm.

***

Səhvlərini etiraf etməkdən çəkinmə.

Səhv etmək hələ məhv olmaq deyildir.

***

Etiraf – özünü dərk etmək, özünə inanmaqdır.

***

Səliqəlilik, təmizkarlıq özünə və ətrafdakılara hörmət bəsləmək əlamətidir.

***

Adi halında yaşamağa nə var ki?!

Bəla üz verdikdə, yarımcan olduqda müvazinəti saxlamaq, səndələməmək gərəkdir.

## ŞƏHƏR YENİLİKLƏRİ

Əlaqədar idarə və müəssisələrin başçıları söhbət zamanı bizə bildirirdilər ki, tezliklə:

- Kommunal xidməti şöbələri küçələri günaşırı tərtəmiz süpürtdürəcək; bu məqsədlə, ştat cədvəllərində adları olan bütün adamları qısa müddətdə tapıb işə cəlb edəcəklər.
- Vorovski qəsəbəsinin küçələrində batıb-qalmış avtomaşınları dartıb çıxarmaq üçün suda və quruda hərəkət edə bilən maşınlara sifariş veriləcəkdir.
- Avtobuslar göstərilən interval əsasında hərəkət edəcəkdir.
- Taksi sürücüləri sərnişinlərdən artıq pul qoparmağa tövbə edəcəklər.
- Restoran və yeməkxanalarda bişirilən lüləkabab, tavakabab, küftə, kotlet və s. xörəklərə ət də qatılacaqdır. Kofe və çay qaynanmış sudan dəmlənəcəkdir.
- Əksər xəstəxanalarda təmənnasız müalicəyə keçiriləcəkdir. Daha cərrahlar xəstəni ortada qoyub, məzənnə üstündə çənə-boğaz olmayacaqlar.

- Diş həkimləri müalicə olunmalı dişləri tamah xatirinə çıxarıb atmayacaqlar.

- Adi teleqramlar ən çoxu iki-üç günə, “təcili”lər isə elə həmin gün sahiblərinə çatdırılacaqdır.

- Daxili işlər şöbələrinin işçiləri möhtəkirlərlə şəxsi əlaqələrini kəsəcək, hətta belə hallara rast gələndə onların ünvanlarını rəislərinə xəbər verəcəklər. Möhtəkirliyin kökü tezliklə kəsiləcəkdir. Kolxozçular və sovxoz fəhlələri məhsulları özləri istədikləri bazarda sərbəst qaydada sata biləcəklər.

- Nəşriyyatlarımız rəhmətə getmiş müəlliflərin əsərlərini də tanrının kəraməti ilə hazırda yaşayıb-yaradan ədiblərin kitabları kimi səliqə-səhmanla buraxacaqlar. Ölənlərin də ruhu şad olacaqdır.

- Telefonla faktlar götürüb, mənalı-mənalı oçerklər yazıb bizi sevindirən qələm sahiblərinin ümumşəhər müsabiqəsi keçiriləcəkdir. Özünəmənsub fikri olmayanlara üstünlük veriləcəkdir.

- Ali məktəb rəhbərləri dərsə şəxsi nəqliyyat vasitələrində gəlib-gedən tələbələrə xüsusi imtiyazlar verilməsinə dair elmi-praktiki konfransa hazırlaşırlar.

- Kooperativ ev tikdirənlərin növbəsinə ancaq ehtiyacı olanlar götürüləcəklər. Bununla əlaqədar köhnə siyahılar yenidən nəzərdən keçiriləcəkdir.

- Dəmiryol və təyyarələrə biletlərin taarifdə göstərilən qiymətlərə satılması təmin olunacaqdır.
- Fakturalara yazılmış bütün mallar toxunulmadan birbaşa ticarət nöqtələrinə çatdırılacaqdır.

# MƏQALƏLƏR

## AZƏRBAYCANIN ZÜMRÜD QAŞI

*Hüsnünə şairlərin min bir söz qoşduğu gözəl diyar! Təbiətin hər cür gözəlliklərinin təcəssümü olan nazlı dilbər! Natəvan kəramətli, Nəvvab hikmətli, Üzeyir qüdrətli, Bülbül məlahətli, Süleyman sədaqətli, Aslan qeyrətli şəhər!*

Təbiət elə bil mehriban bir ana tək özünün bütün gözəlliklərini dağlar qoynunda yerləşən bu şəhərə bəxş etmiş, min əlilə ona sığal çəkmiş, casibədarlıq timsalı yaratmaqda öz qüvvəsini sınamışdır.Şuşa Azərbaycanın, onun ayrılmaz hissəsi olan Dağlıq Qarabağ torpağının möcüzəli guşəsi, nazlı-qəmzəli, gözləri-könülləri ehtizaza gətirən nəğməsi, neçə-neçə tarixləri əks etdirən salnaməsidir.

Şuşaya gələnlər Əsgəran qalasını keçdikdən sonra sıldırım qayalar üzərində ucalan bir şəhər görürlər. Bu şəhər elə bil döyüşlərə can atan qartaldır. Bəli, həqiqətən, onun görkəmi nəhəng qanadlarını açaraq, səmanın ənginliklərinə baş vurmağa hazırlaşan dağ qartalını xatırladır.

Şuşanın hər daşı, hər qayası bir tarixdir. Bu tarix Azərbaycan xalqının, bütün Qafqaz xalqlarının öz

azadlığı və səadəti uğrunda apardığı mübarizənin ayrılmaz hissəsidir. Bu tarix, milli operamızın yaranması, M.F.Axundov tərəfindən bünövrəsi qoyulan milli dramaturgiyamızın inkişafı, keçən əsrin 70-ci illərində əsası qoyulan milli teatrın yaranması tarixinin ayrılmaz bir hissəsidir.

Şuşa təbii gözəlliklər məskəni, cənnət timsallı bir diyardır. Lakin Şuşa hər şeydən əvvəl, dünyanın hər tərəfində tanınan dahi bəstəkarları, yazıçıları, müğənniləri, elm adamları, hərbi və dövlət xadimləri ilə məşhurdur. ədəbiyyat və incəsənətimizin inkişafında şuşalıların xidmətləri misilsizdir. Böyük şair Q.B.Zakir hələ XIX əsrin birinci yarısında satirik ədəbiyyatımızın əsasını qoymuş, özünün şeirləri ilə Azərbaycandakı çar hakimlərini, yerli bəyləri, xanları, murovları kəskin tənqid etmiş, zəhmətkeş xalqın tərəfini saxlamışdır.

Görkəmli ədib - dramaturq N.B.Vəzirov XIX əsrin ikinci yarısında Moskvada təhsil almış, böyük rus yazıçısı V.Q.Korolenko ilə dostluq etmiş, həmin əsrin sonlarında ədəbiyyatımızda faciə janrının əsasını qoymuşdur. N.B.Vəzirov 1873-cü ildə milli teatrımızın bünövrəsini qoyanlardan biridir.

Ə.B.Haqverdiyev XIX əsrin ikinci yarısında yazdığı qiymətli pyesləri ilə Azərbaycan dramaturgiyasını daha da inkişaf etdirmiş, həm də gözəl və mənalı hekayələr

müəllifi kimi məşhurlaşmışdır. O, XIX əsrin sonunda ədəbiyyatımızda ilk dəfə olaraq öz qəhrəmanının dili ilə: "Torpaq onu becərənin olmalıdır" kimi siyasi cəhətdən çox dəyərli olan bir hökm vermişdir.

XIX əsr realist incəsənətimizin inkişafında Mir Möhsün Nəvvab və Xurşud Banu Natəvanın xidmətləri böyükdür. Onların təşkil etdikləri "Məclisi-üns" və "Məclisi - fəramüşan" kimi ədəbi məclislərdə yüzdən artıq şair iştirak etmişdir.

Azərbaycan ədəbiyyatı tarixinin ilk dəfə elmi şəklə salan alim-ədəbiyyatşünas şuşalı Firudin bəy Köçərli olmuşdur. Ədəbi tənqidin və ədəbiyyatşünaslığın inkişafında Firudin bəyin xidmətləri çox böyükdür.

Dünya ədəbiyyatının ən böyük klassiklərindən olan V.Şeksprin "Otello" faciəsini Azərbaycan dilinə ilk dəfə şuşalı yazıçı və publisist Haşım bəy Vəzirov tərcümə etmişdir.

Dahi bəstəkarımız Üzeyir Hacıbəyov Şuşada boya-başa çatmış, ilk ilhamını dağlar qoynunda yerləşən şəhərin füsunkar təbii mənzərələrindən almışdır. Şuşanın əsrarəngiz təbiəti, nəğməli - musiqili həyatı gənc Üzeyirin qəlbini riqqətə gətirmiş və onun gələcəyini müəyyən etmişdir.

Ü. Hacıbəyov 1908-ci ildə Şərq ədəbiyyatının ən böyük simalarından biri olan M.Füzulinin sözlərinə yazdığı "Leyli və Məcnun" operası ilə milli opera sənətimizin əsasını qoydu.

Azərbaycanda milli musiqimizin, opera janrının inkişafı, milli musiqi kadrlarının yetişdirilməsi bu böyük və dahi insanın adı ilə bağlıdır. Onun yaratdığı "Arşın mal alan", "O olmasın, bu olsun" musiqili komediyaları, "Koroğlu" operası, onlarca şirin mahnıları, romans və kantataları dünya musiqisinin incilərindən hesab olunur.

Şuşanın şair təbiəti qəlbləri coşdurur, insanları yazmağa, yaratmağa həvəsləndirir. Burada hər daş, qaya, yaşıl çəmən, zümrüd yamaclar, səhər mehinin təsiri ilə həzin nəğmələr oxuyan meşələr, şır-şır axan bulaqlar, min bir dərdin dərmanı olan mədən suları, insan qəlbini oxşayan və ona can rahatlığı verən hava elə bil insanlara: "Gəl-gəl, gəl bizi tərənnüm et" – deyir. Vaqifi Qazax mahalından, Aşıq Pərini Araz qırağından çəkib Şuşaya gətirən bu xoş təbiət, bu gözəlliklər idi.

Şuşada gözəl təbli, fitri istedadları ilə Qarabağdan çox-çox uzaqlarda tanınan çoxsaylı qadın şairlər - Ağabəyim Ağa Ağabacı, Aşıq Pəri, Gövhər ağa, Xurşud Banu Natəvan, Fatma xanım Kəminə, Xanbikə, Qəmər Bəyim Şeyda və başqaları yaşayıb - yaratmışlar.

Şuşanın "Qafqazın konservatoriyası" adlandırılması təsadüfi deyildir. Hələ keçən əsrin 70-80-ci illərində Şuşada musiqi salonları, dərnəklər və musiqi məktəbləri fəaliyyət göstərmişdir. Xarrat Qulu tərəfindən təşkil edilmiş musiqi məktəbi Şuşada çox-çox uzaqlarda məşhur idi. Klassik musiqimizin məşhur ifaçıları olan Hacı Hüsü, Məşədi İsi, Sadıqcan, Əbdülbaqi Zülalov, Cabbar Qaryağdı, Keçəçi Məhəmməd və onlarca başqaları bu məktəbin yetişdirmələridir.

XIX əsrin ikinci yarısında Şuşa musiqiçilərinin şöhrəti o qədər geniş yayılmışdır ki, bütün Zaqafqaziyanın məşhur xanəndə və çalğıçıları tez-tez buraya toplaşar, konsertlər verərmişlər.

Yalnız şuşalıların deyil, bütün xalqımızın adlarını böyük bir iftixarla çəkdikləri SSRİ xalq artistləri Ü. Hacıbəyov, Bülbül, Niyazi, F. Əmirov, S. Hacıbəyov, R. Behbudov musiqi mədəniyyətimizi inkişaf etdirmək sahəsində misilsiz xidmətlər göstərmişlər. Ü. Hacıbəyov respublikamızda milli musiqi kadrları yetişdirmək sahəsində müstəsna fəaliyyət göstərmiş, Qırmızı Əmək Bayrağı ordenli Azərbaycan Dövlət Konservatoriyasının əsasını qoymuş, dünya opera sənəti klassiklərinin əsərləri ilə yanaşı duran "Koroğlu" operasını yaratmışdır. Hələ 1938-ci ildə o, SSRİ-nin paytaxtı Moskvada keçi-

rilən Azərbaycan incəsənəti ongünlüyündə yüz minlərlə moskvalının qəlbini fəth etdi.

Adlarını milli iftixar və qürur hissi ilə çəkdiyimiz şuşalı SSRİ xalq artistlərinin hamısı Dövlət mükafatı laureatlarıdır.

Şuşadan görkəmli rəssam və heykəltaraşlar, elm adamları, partiya və dövlət xadimləri çıxmışdır.

Neftçıxarmanın məşhur təşkilatçılarından biri olan əməkdar elm xadimi, Sosialist Əməyi Qəhrəmanı Süleyman Vəzirov bütün dünyada yeraltı qazma işinin nadir bilicilərindən idi.

Azərbaycan SSR xalq rəssamı, SSRİ Dövlət mükafatı laureatı Lətif Kərimov Azərbaycan xalçaçılığının görkəmli tədqiqatçısıdır. Onun rəhbərliyi ilə toxunan xalçalar dünya şöhrəti qazanmışdır. Alim-rəssam Lətif Kərimov Azərbaycan xalçaçılığına dair bir neçə elmi əsərin müəllifidir.

Azərbaycan heykəltaraşları içərisində respublikanın xalq rəssamı Cabbar Qaryağdı fəxri yer tutur.

Respublika Elmlər Akademiyasının həqiqi üzvü V.Tutayuq, müxbir üzvləri L.İmanov, C. Allahverdiyev, C.Quliyev, müxtəlif elmi mərkəzlərdə çalışan onlarca elmlər doktoru sovet elm və texnikasının inkişafı naminə kəşflər edir, mühüm elmi işlər aparırlar. M. Əzizbəyov adına Neft və Kimya İnstitutu, S.M.Kirov adına

ADU, N.Nərimanov adına ATİ, V.İ.Lenin adına APİ və başqa institutlarda onlarca şuşalı alim dərs deyir, ali təhsilli kadrların hazırlanması işinə böyük əmək sərf edirlər.

Mərhum akademik S.M.Əsədov Azərbaycanda helmintalogiya elminin yaradıcılarından biridir. Onun 100-dən artıq elmi əsəri SSRİ-də və xaricdə müxtəlif dillərdə tərcümə edilmişdir.

1920-ci ilin sentyabrında işə başlayan M. Əzizbəyov adına Şuşa Pedaqoji məktəbi (Şuşa seminariyası) bu gün də respublikamız üçün pedaqoji kadrlar hazırlayır. İndi respublikamızın elə bir guşəsi, xalq təsərrüfatının elə bir sahəsi yoxdur ki, orada pedaqoji məktəbin məzunu olmasın. Şəhərdə 4 orta ümumtəhsil məktəbi, 3 internat-məktəb, kənd təsərrüfatı texnikumu, texniki peşə məktəbi, idman məktəbi, musiqi məktəbi vardır.

Şuşa respublikamızdan çox-çox uzaqlarda uzunömürlülər diyarı kimi şöhrət tapmışdır. Buranın gözəl təbiəti, saf havası, dərdlərə dərman olan suyu insan ömrünü uzadır, onu sağlam və gümrah edir.

Şuşanın təbiəti, onun iqlimi İ.V.Fiqurovski, K.A.Yeqorov, B.A.Eyvazov, E.M.Əfəndiyev, A.P.Afonski, Ş.M.Həsənov kimi alimlər tərəfindən öyrənilmişdir. Onlar belə bir elmi nəticəyə gəlmişlər ki, Şuşa özünün

bütün müalicə xüsusiyyətlərinə görə İsveçrənin məşhur Davos kurortundan üstündür.

Hazırda Şuşada və onun kəndlərində 100-130 yaşlı sağlam və gümrah adamlar çoxdur. Yaşının 100-dən artıq olmasına baxmayaraq, şuşalı Bahadır Məmmədov özünün sevimli peşəsi olan ovçuluqdan əl çəkmir.

Məşhur İsa bulağının yaxınlığında olan Zamanpəyə kənd sakini Qabil kişi 157 il, Şuşanın ən yüksək zirvəsi olan Şırlan kənd sakini Şükür kişi 180 il, Zarıslı kənd sakini İbiş kişi 140 il ömür sürmüşlər.

Müxtəlif illərdə burada dağ-iqlim sanatoriyası, pansionat, ailəlilər üçün pansionat, turist bazası, qocalar və əlillər evi, sağlamlıq məktəbi, çoxsaylı pioner düşərgələri təşkil edilmiş və beləliklə də Şuşa əsl sağlamlıq mərkəzinə çevrilmişdir.

İndi Şuşa Ümumittifaq əhəmiyyətli kurort şəhəridir. Hər il burada ittifaqın bütün respublikalarından minlərcə adam dincəlir və müalicə olunur. İstirahətə gələnlər şəhərin xoş təbiətindən, könül açan, qəlbləri coşduran İsa bulağı və Turşsuyundan, min bir tarixin şahidi olan Cıdır düzünün lətafətindən, uzaq və yaxın keçmişimizdən qonaqlara çox şey danışan tarixi abidələrdən, ən vacibi isə onlara əsl ata qayğısı, ana-bacı nəvazişi göstərən şuşalılardan ağızdolusu razılıq edirlər.

Dünyada ən uzun mineral su xəttinin - 32 km-lik Şırlan - Şuşa kəmərinin çəkilib, "Narzan" tipli şəfa suyunun şəhərə gətirilməsi, zəhmətkeşlərin istifadəsinə verilməsi bir kurort şəhəri kimi Şuşanın şöhrətini daha da artırmışdır.

Şuşanın təbiəti uşaqların müalicə və istirahəti üçün olduqca əlverişlidir. Şəhərdə olan uşaq sanatoriyası, respublika sağlamlıq məktəbi və yay fəslində fəaliyyət göstərən onlarca pioner düşərgəsində hər il minlərlə məktəbli dincəlir və müalicə olunur.

Şəhərdə hər cür tibb avadanlığı ilə təmin edilmiş xəstəxana, qadın və uşaq məsləhətxanası, şəhər poliklinikası, doğum evi, 4 uşaq bağçası-körpələr evi təşkil edilmişdir. Bütün bunlar əhalinin sağlamlıq və rahatlığını təmin etmək üçündür.

Şuşada xidmət və sənaye müəssisələrinin sayı durmadan artır. Şəhərin tələblərinə uyğun yeni sənaye müəssisələri yaranır. Son illərdə yaradılmış Şərq musiqi alətləri sexi keçən ildən Azərbaycan KP MK və Respublika Nazirlər Sovetinin qərarı ilə fabrikə çevrilibdir. Qarabağ ipək kombinatının şəhərimizdəki 3 nömrəli sexi hər il on min metrlərlə məhsul buraxır. İndi bu sexin yeni, iri korpusu tikilir. Son illərdə burada şəhər xəstəxanası kompleksi, yeni turizm bazası, sanatoriyada 430 yerlik yeməkxana, turşsu vanna otaqları,

qocalar və əlillər evi, kənd təsərrüfatı texnikumunun tələbələri üçün 4 iri korpusdan ibarət 400 yerlik yataqxana, pedaqoji məktəbin tədris korpusu, mədəni-məişət, ticarət obyektləri, çoxsaylı yaşayış evləri tikilib istifadəyə verilib.

Son illər şəhərdə böyük abadlıq işləri görülmüş, Şuşa – Xankəndi yolu yenidən qurulub asfaltlaşdırılmışdır. Hazırda Şuşa-Laçın yolu xeyli genişləndirilir.

Şuşa inkişaf, yüksəliş yollarındadır. Hələ bundan sonra Şuşada yeni sağlamlıq ocaqlarının çoxmərtəbəli korpusları ucalacaq, yeni salınmış bağların, bağçaların, parkların sinəsini güllər, çiçəklər bəzəyəcək, nərgizin, bənövşənin, qızılgülün, yasəmənin ətri Cıdır düzündən əsən sərin mehə qarışacaq, Cabbarın, Seyidin, Bülbülün,

Xanın nəvə-nəticələri Üzeyirin və Fikrətin, Soltanın və Niyazinin, Süleymanın və Əşrəfin könülləri riqqətə gətirən nəğmələrini dilləndirəcək.

## TORPAQ DEYİR...

Dünyaya kənddə göz açmışam. Torpağın ətrini, nəfəsini uşaqlıqdan hiss edib duymuşam.

Torpaq, çörək, bərəkət dərsimi, təlimimi nənəm verib. Ağıllı, nağıllı nənəmi deyirəm. Elə - belə danışmayıb. Bildiyini, inandığını, inamını sözüylə, ağısı, bayatısı ilə nağılı, əfsanəni ruhumuza, iliyimizə hopdurub.

Bir neçə məktəbdə oxumuşam. Müəllim olmuşam. Üç qəzet redaksiyasında əməkdaşlıq etmişəm. 20 ildən artıqdır ki, ictimai işdə çalışıram. Müxtəlif auditoriyalar qarşısında çıxış etmişəm. Lakin həmişə də bir fikrim, yaxşı mənada bir nisgilim olub: niyə nənəm kimi inandıra, onun kimi sövq edə bilmirəm? Necə də deyirdi:

- Oğul, torpaqdan bərk yapışan naümid, ruzisiz qalmaz. Torpaq deyir: öldür məni, dirildim səni.

Səsinin tonunu dəyişdirdi. – Çox qədirbiləndi torpaq, ay oğul, bir elədiyini min bir edib özünə qaytarır. Həm də dəvə kinlidi. Xətrinə dəydin, küsdürdünmü, uzun müddət barışan deyil. Səni dizi üstə gətirənə kimi ipə-sapa, rəhmə gələn deyil.

İşlədiyim İsmayıllı rayonunda xeyli əvəllər iki yaxın kənd olub: bu kəndlərin də hamısının özünəmənsub, bir-birinə bənzəməyən mənzərəsi, keşməkeşli tarixi, adət-ənənəsi, məişəti. Həmin kəndlərin əhalisi müxtəlif vasitələrlə əkin-biçin edir, mal-qara, toyuq-cücə saxlayır, meşədə, çəməndə faydalı, yeməli nə varsa toplayıb özlərini də təmin edirdilər, rayon mərkəzini də, şəhərdə

yaşayan dost-tanışa göndərirdilər. Bir qismini isə bazara çıxarırdılar.

Təsərrüfatların iriləşməsi ilə əlaqədar sovxoz və kolxozların mərkəzi malikanələrini yaratmaq problemi ortaya atıldı. Elə bu vaxt yanlış, həyata zidd bir ehram da ortaya çıxdı: perspektivsiz kəndlərdə hər cür quruculuq işlərini dayandırmaq. Küyə düşənlər hətta o dərəcədə məhdudiyyət yaratdılar ki, evlənib ailə quranlara torpaq sahəsi verilmədi. Kəndin məktəbi, mədəni-məişət ocaqları əsaslı təmir edilmədi ki, əhali mərkəzi malikanəyə köçməlidir... İllərlə kəndinə bağlı olan nəsillərə bu haqq anlaşılmaz qaldı. Odur ki, yerindən tərpənənlər qonşu kəndə sığınmağı özünə rəva bilmədi, birbaşa ya rayon mərkəzinə, ya da iri şəhərlərə köçməyi üstün bildi. Qonşu respublikada yanlışı tez düzəltdilər. Demək olar ki,  bütün kəndlərin kolxoz və sovxozları bərpa edildi. Bütün kəndlərin sosial-iqtisadi problemləri eyni səviyyədə həll olunmaqla davam etdi. Belə olduqda hətta kəndini tərk edənlərin bir qismi yurduna-yuvasına, evinə-ocağına qayıtdı.

Bizdə isə, necə deyərlər, atılan daşı uzun müddət quyudan çıxarmaq yada düşmədi. Nəticədə kəndlərin sayı təxminən yarıya endi. Elə kəndlər oldu ki, on illərlə yolunu qaydaya salan, düşmən daşını daş üstə qoyan olmadı. Beləliklə, kəndlərin bir qismi boş, torpaq

sahibsiz qaldı. Ərzağını torpaqdan çıxaranlar da, özünü, qismən də bazarları təmin edənlər də gəlib mərkəzlərdə cəmləşərək gözlərini bazara dikdilər.

Yaxşı ki, yanlışlıq nəhayət aşkar və dərk edilməyə başlanıb. Bütün kəndlərimizə qayğı göstərilməyə, onların illərdən bəri həll edilməyən problemləri həll edilməyə girişilib. Qısa müddətdə bütün kəndlərə müasir yollar, qaz və su kəmərləri çəkilməyə, mədəni-məişət ocaqları, məktəblər tikilməyə başlandı. İndi eyni vaxtda kəndlərimizdə beş yüzdən artıq mənzil, 12 məktəb, 7 mədəniyyət evi, 14 kənd soveti binası, çoxsaylı məişət evləri, uşaq bağçası və körpələr evləri tikilir.Son bir ildə Yeni İsmayıllının kəndlərinə 150-dən artıq ailə qayıdıb. Bu proses getdikcə dərinləşir. Kəndlər öz görkəmini dəyişir, canlanma, şənlik quruculuğu, abadlığı tamamlayır. Onun daha da inkişaf etməsi, irəliləməsi, bizim fikrimizcə planlaşmada, idarəetmədə yerlərin vəziyyətinə konkret yanaşmaqdan asılıdır. Deyilənlə, təklif edilənlə hesablaşmaq, təsərrüfatlara ümumi qaydalar çərçivəsində müstəqillik vermək, yaxşını, mütərəqqini daha həssaslıqla görüb qiymətləndirmək, maddi marağa, mənəvi həvəsləndirməyə daha geniş yol açmaq, hər yerdə, hər şeydə qənaətçil olmaq bu irəliləyişin hərəkətverici qüvvəsi, ucalığa gedən bu yolun pilləkənləridir. Bizim vəzi-

fəmiz isə bu qüvvəni düzgün istiqamətə yönəltməkdən ibarətdir.

# BU GÜNÜN PUBLİSİSTİKASI

Mən bu yazıda publikistikanın bütün problemlərindən bəhs etmək fikrində deyiləm, məqsədim bu aktual janrın bəzi məsələlərinə toxunmaqdır.

Publisistika – jurnalistika sənətinin zirvəsidir. Yazıçılıqla jurnalistliyin, həqiqətlə romantikanın qovuşması, vəhdətdir.

Publisistika vətənpərvərliyin parlaq ifadəsi, həssas vətəndaş ürəyinin döyüntülərindən zamanın səsköçürmə lentinə düşmüş əks-sədadır. Elə bir əks-səda ki, burada hər şey nəzəriyyə ilə nurlandırılmışdır.

Publisistika – kəsərli silahdır. Düşündürmək vasitəsidir. Onun borcu və vəzifəsi geniş oxucu kütləsini narahat edən məsələləri qabarıq şəkildə ümumiləşdirmək, hamıya təsir edə biləcək səviyyəyə qaldırmaqdır. Diqqəti, qüvvələri həlli vacib olan məsələyə yönəltməkdir.

Publisistika nə dərs vəsaiti, nə də mühazirə stenoqramıdır. O, vacib ictimai-siyasi hadisələrin gedişində formalaşır və bu hadisələrin ideya istiqamətinə ciddi təsir edən vasitəyə çevrilir.

Publisistikanın gücü, hədəfi sərrast nişan ala bilməsində, kəsərli və yığcam olmasındadır. İşgüzarlıqdan ritorikaya, nəsihətçiliyə keçmək publisistikaya büsbütün

yaddır. Yersiz qəyyumçuluq, mühafizəkarlıq və ən başlıcası qərəzçilik publisistikanın ölümüdür.

Oxucu hadisələrin gedişini, məsələlərin qoyuluşunu dərk etməkdə adətən mətbuat orqanından istiqamət gözləyir. Buna görə də publisist düzgün nəticəyə gəlməkdə oxucusuna kömək etməli, ona fikir aydınlığı aşılamalıdır. O, yalnız oxucuya havadar çıxmamalı, onun yolunu işıqlandırmalı, götür-qoy etməyə, düşündürməyə, hadisələrin təkinə, dərinliyinə enməyə sövq etməlidir.

Publisist ziddiyətli, mübahisəli məsələlərə girişməkdən qorxmalıdır. Əksinə, çoxları üçün dumanlı görünən, anlaşılmayan, çətin dərk edilən problemlərə daha çox meyl etməlidir.

Polemikaya mübahisəli girişmək, cəsarətdən və işə bələdlikdən doğurur. Ondan çəkinmək lazım deyil. Polemika fikirləri saf-çürük edir, ümumi bir rəyə gəlməyə yardım göstərir və beləliklə, keyfiyyət dəyişikliklərinə aparır. Oxucu ilə diskussiya-mübahisəli məsələnin müzakirəsi mətbuat orqanını kütləyə daha da yaxınlaşdırır, fəallığı və sayıqlığı artırır. Polemika, diskussiya - vəziyyəti, mənzərəni əks etdirən güzgü, düşüncələri təxmin edən cihazdır. Oxucunun, müsahibin susması, düşündüklərini deməməsi, gizlətməsi, ürəyindəkiləri büruzə verməyib daxilində boğması daha dəhşətlidir. Dis-

kussiya zamanı birinin tərəfindən yürüdülən fikrə etiraz etməsi, onun susmasından, deyilənlərə biganə qalmasından daha yaxşıdır. Bəli, susmaq, olub – keçənə heç bir əhəmiyyət verilməməsi deməkdir. Müsahibimizin haqsız, özümüzün haqlı olduğumuzu demək azdır. Şərt odur ki, fikrin düzgünlüyünü sübut etməyi bacarasan. Lakin hər şeydən əvvəl; girişdiyimiz məsələdə bizim özümüzün qəti mövqeyimiz olmalıdır. Məlum bir həqiqəti unutmamalıyıq ki, yanlış həqiqət mükəmməl yalandan faydalıdır.

Publisist dərin müşahidə aparmalı, görüb öyrəndiklərini ciddi təhlildən, sinfin ələyindən, süzgəcindən keçirməlidir. Onun hadisələri təfərrüatı ilə təsvir etməsi, faktları sadalaması vacib deyil, onları maraqlandıra bilməsi vacibdir. Lakin münasibət və meyl sözlərlə ifadə olunmamalı, fikirlə açılmalıdır. Ümumiyyətlə, publisistika sözlərdən deyil, fikirlərdən ibarət olmalıdır.

Yazarkən oxucunun vəziyyətini nəzərə almalıyıq. Ona vətəndaşlıq və siyasi yetkinliyi mütəmadiyyən artan bir şəxs kimi baxmalıyıq. Hər şeyi ona təfsilatı ilə söyləmək, hazır nəticələri demək, onu anlamaz yerinə qoymaq olardı.

Yaxşıya yaxşı, pisə pis demək publisistlik deyildir. Öz sözü, öz kəşfi olmayanı publisist adlandırmaq ol-

maz. Publisistdə siyasi yetkinliklə sənətkarlıq məharəti birləşməlidir.

Respublikamızda publisistikanın lazımi səviyyəyə qalxmasının bir səbəbi də onun diqqət mərkəzindən kənarda qalmasıdır. Axı, nə üçün başqa janrlar üzrə vaxtaşırı müsabiqələr keçirildiyi, mükafatlar təsis edildiyi halda, publisistika sahəsində belə tədbirlərdən istifadə olunmasın, mübariz bir janr kimi qiymətləndirilməsin. İl ərzində respublika mətbuatında dərc edilən ən yaxşı publisist yazıları toplayıb məcmuə halında nəşr etmək, vaxtaşırı olaraq oxucularla publisistlərin görüşünü keçirmək, onların yaradıcılığına dair oxucuların rəyini eşitmək ümumi işimizə ancaq fayda verərdi.

1973.

## ADƏT VƏ ƏNƏNƏLƏRİMİZ HAQQINDA

İnsan yaşadığı hər bir dövrün şəraitinə, tələbinə uyğun olaraq müəyyən adət - ənənələr yaradır, yaşadır, şərait dəyişdikcə onları başqaları, daha yeniləri ilə əvəz edir. Adətsiz, ənənəsiz, bayramsız, matəmsiz insan yoxdur.

Lakin heç bir adət və ənənə, heç bir ayin və mərasim əbədi deyildir, yarandığı şəkildə qalmır, vaxt, zaman keçdikcə, ya müəyyən dəyişikliklərə məruz qalır, ya da tamam unudulub aradan çıxır. Bu gün də ata – babadan qalmadır – deyə əl vurmadan davam etdirmək inadı düzgün deyildir.

Biz əsrlərdən bəri yaşayıb gəlmiş adət və ənənələrimizə, ayin və mərasimlərimizə də bu ölçü ilə yanaşmalı, pislərini tərgitməli, yaxşılarını isə daha da təkmilləşdirməli, yeni məna, yeni məzmunla zənginləşdirməli, həm də yeni forma verib gözəlləşdirməliyik.

Biz bu məqalədə doğum, toy və yas mərasimlərimiz haqqında qısaca danışmaq, öz mülahizələrimizi oxucularla bölüşmək istəyirik.

İnsan ömründə ən sevincli və unudulmayan hadisə toydur. Toy, necə deyirlər, iki həsrətin qovuşması, iki könülün birləşməsi, iki məhəbbətin vüsala çatması şənliyi, yeni ailə qurulması təntənəsidir. Buna görə də ictimai hadisədir. Belə əhəmiyyətli bir hadisə olduğuna görədir ki, onun ta ilk elçiləmə günündən duvaqqapanma gününə qədər xüsusi mərasimləri vardır. Bu prosesin ən vacib şərti kəbindir, nigahdır.

...Məclis toplaşır, gəlinlə bəyi içəriyə gətirirlər, hamı ayağa qalxır. Qızla oğlan döşlərindəki gülləri çıxarıb bir-birinin döşünə sancırlar. Məclis əl vurur. Sonra onlar

barmaqlarındakı nişan üzüklərini dəyişirlər. Məclis yenə də əl vurur. Bundan sonra sağdışla soldış onlara eyni kuzədən tökülmüş şərbət qədəhləri verirlər. Onlar bu qədəhləri də dəyişib içirlər. Bununla da toy başlanır...

Bizcə hazırda tətbiq olunan müasir toy məclisi toyların ən yaxşısıdır. Bəzən elə qabarıq, rəsmiyyətçi, iclasbaz tamadalar seçilir ki, toy bütün gözəlliyini itirir, sıxıcı iclasa çevrilir. Toyda hamı sevinməli, gülməli, oynamalı, oxumalı, şənlənməlidir.

Son zamanlar bəzi yerlərdə hədiyyəli toylar meydana çıxmışdır ki, bu da toya gələnlər üçün böyük çətinlik törədir, toy sahibinə isə əsaslı kömək göstərmir. Bir də görürsən ki, toya gələnlərin əksəriyyəti mağazalarda olan eyni şeylərdən alıblar. Misal üçün bir neçə ət maşını, bir neçə divar saatı, bir neçə dəst çəngəl-bıçaq və s.

Bəzi yerlərdə isə pullu toylar əmələ gəlmişdir ki, bu artıq adət deyil, rəzalətdir. Bu, oğlu da, qızı da, onların məhəbbətlərini də, sevinclərini də pula qurban vermək, heçə döndərmək deməkdir. Bizcə, əlaqədar orqanlar buna qarışmalı, bunu qadağan etməlidir. Bəzən elə atalar da tapılır ki, pulu toplamaq üçün kiçik yaşlı uşaqlarına “avans” toy edirlər. Bizcə belələri cani kimi cəzalandırılmalıdırlar.

Başlıq haqqında isə bircə bunu deməklə kifayətlənmək olar ki, bu, doğma övladın heysiyyətini, mənliyini tapdalamaq, onu əmtəə kimi, mal kimi satmaq deməkdir. Başlığı bəzən "süd pulu" adlandırırlar, bəzən də cehiz vermək vacibliyi ilə bağlayırlar. Lakin bunların heç biri bu çirkin adətə bəraət qazandıra bilməz. Məlum olduğu kimi cehiz adəti də çox qədimdir, özü də keçmişdə bu ancaq və ancaq qızın əl qabiliyyətini, məharətini, səliqəsini, sənətkarlığını nümayiş etdirmək məqsədi daşıyan bir adət olmuşdur. Qız evi elçiliyə gələn oğlan adamlarına qızın illərdən bəri tikdiyi, toxuduğu, çəkdiyi,bəzədiyi şeyləri göstərər, toyda da ancaq bunları cehiz verərmişlər. Sonralar bu, ata – anaların yeni qurulan ailəyə köməyi şəklinə düşmüşdür. Bu iki məqsədin və bunlara xidmət edən iki adətin ikisi də yaxşıdır, bizcə bu şəkildə davam da etdirilə bilər. Əlbəttə, bunun özünü də dəqiqləşdirmək, təkmilləşdirmək, yeni məna və məzmunla daha da zənginləşdirmək lazımdır.

Bizcə cehizvermə adətini yeni ailə quranlara ilk yardım şəklində yaşatmaq olar. Bu çərçivədən çıxıb başqa məqsədlərə "xidmət" edən təmtəraqlı cehiz isə bu xalqa yaraşan şey deyil.

Dədə Qorqud boylarında qadın hətta Allahla bir tutulur. "Ana haqqı, Tanrı haqqıdır"- deyilir. Hələ indi

də ən qatı, ən qanlı düşmənçiliyin aradan qaldırılması üçün bir qadın yaylığının ortaya atılması kifayətdir.

Həyatın dəyişməz əzəli bir qanunu var ki, hər doğulan ölür, ölümə və ölüyə münasibət də bizdə çox maraqlı bir tarixçəyə malikdir. Qədim Midiyada ölü üçün ağlamazdılar.

Daha sonrakı əsrlərdə bayatı matəmin ən təsirli bəzəyi olmuşdur.

Hər yasa gələn vəziyyətə münasib bir neçə ağı deməyi özünə borc bilmişdir. Bununla bir tərəfdən yasın təsirini qüvvətləndirmiş, bir tərəfdən yas sahibinin kədərini yüngülləşdirmiş, digər tərəfdən də yeni-yeni variantlarla bu janrı zənginləşdirmişlər.

Bizim ağılar doğrudan da o qədər təsirlidir ki, həm ağladır, həm də ovundurur. Axı, yasın lalı çox dəhşətli olur. Buna hər ürək dözmür. Ağı belə ürəklərin köməyinə çatır, onlara təskinlik verir.

Bizdən yasa gələnlərə yemək vermək keçmişdə əsasən kasıbları, ehtiyacı olanları doydurmaq məqsədi daşımışdır.

İndi belə acınacaqlı vəziyyətdə ac olan yoxdur. Lakin yeməyi tamamilə aradan qaldırmaq da bizcə düz deyildir. Axı, yasa uzaq yerlərdən gələnlər də, işdən çıxıb evinə getməmiş gəlməyə məcbur olanlar da vardır.

Yaslara molla dəvət olunmasından da diqqətli olmaq

lazımdır. Mollalar məclisdə ilk zaman son dərəcə primitiv, mənasız, hətta gülünc sözlər danışırlar. Arabir çəkdikləri salavatın, oxuduqları həmdsurənin də mənasını bilmirlər. Nəticə də bu olur: dediklərini başa düşməyən və onlara inanmayan molla aldadır, ondan qat-qat yüksək biliyə malik olanlar isə aldanırlar.

## TƏZADLAR ÖLKƏSİNDƏ

*(İngiltərə təəssüratları)*

Biz Bakıdan çıxanda artıq hər tərəfi qar basmışdı. Boran göz açmağa qoymurdu. Moskvada isə kəsici şaxta idi. Belə güman edirdik ki, İngiltərə daha soyuq olacaqdır. Odur ki, qalın paltarlarımızın sayını artırdıq, daha isti ayaqqabı götürdük.

Ancaq gözlədiyimizin əksinə oldu. Londona çatmağımızla çisələməyə başlayan yağış getdikcə şiddətlənməyə başladı. Qaldığımız mehmanxananın yüz-yüz əlli metrliyində yerləşən restorana çatana qədər su dabanlarımızdan süzülürdü. “Yağışdan tut, göyə çıx” – buna

deyirlərmiş. Nə isə, plaş, çətir götürməməyimizə çox təəssüfləndik.

Londona gəldiyimiz günün sabahı səma aydınlaşdı, günəş hərarətini xeyli artırdı, çöl-bayır daha yaşıl görünməyə başladı. Fevral ayında yaşıllıq?! Bəli, ölkənin tam şimalına qədər hər yerdə yaşıllıq gördük. Dedilər ki, yanvarın ortalarında bir dəfə qar yağıb. O da çox tez əriyib.

Londonla tanışlığımız Karl Marksın məzarını ziya rətlə başladı.

Mərkəzə qayıtdıq. Verilən izahatlara qulaq asa-asa kitabda, qəzet və məcmuələrdə haqqında dəfələrlə oxuduğumuz yerlərlə tanış olmağa başladıq.

Şübhəsiz, qədim elm və mədəniyyət mərkəzi olan İngiltərədə yaxşı, xoşagələn cəhətlər gördük. İngilis xalqı səliqə-səhman sevəndir. Abadlığa, yaşıllığa ciddi fikir verəndir. Adamlar davranışlarında nəzakətli və diqqətlidirlər.Xüsusilə, zəhmət adamları qonağa qəribə nəvaziş, qayğı göstərirlər.

Ata-babadan qalma nə varsa, xalq onları ehtiram və qayğı ilə hifz edir. Bütün bunlar bizə xoş təsir bağışladı. Dəhlizdə dayanıb bir qədər sonra toplaşacaq turist yoldaşlarımı gözləyirdim. Xidmətçi ispaniyalı gənc ətrafa boylandı sonra mənə yaxınlaşıb ingilis dilində nə isə dedi. Tərcüməçimiz olmadığından yaxındakı otaqda

ingiliscə pis bilməyən kalininqradlı tələbə Oleq Nemovu köməyə çağırdım. Oleq gənci dinlədikdən sonra onun dediklərini tərcümə etdi:

– Deyir ki, mehmanxananın işçiləri rus olmadığınız halda nümayəndə heyətinə başçılıq etmənizdən danışırlar. Bəzisi inanır, çoxusu isə yox. Deyirlər bu ola bilməz...

Həmin gəncə turist dəstəmiz haqqında izahat verməli olduq. Aramızda müxtəlif millətlərin – rusların, ukraynalıların, azərbaycanlıların, gürcülərin nümayəndələrinin olduğunu və ümumiyyətlə ölkəmizdə milli seçkiliyin olmadığını söylədik. Söhbətin sonlarında ukraynalı tələbələr Orta Şeirbitskaya, xaçmazlı Aslan Süleymanov və gürcüstanlı aspirant Ömər Sakandelidze bizə yaxınlaşdı.

İspaniyalı gəncə işarə edərək zarafatyana dedim:

– Uşaqlar, Bill Avetisovu da çağırın. Qoy bu oğlanın ürəyində nisgil qalmasın.

Səmimiyyətimiz ispanı həm sevindirdi, həm də mütəəssir etdi. Ona respublikamıza aid hədiyyələr verdik. Olqa onun yaxasına üzərində Taras Şevçenkonun, Aslan isə Nəriman Nərimanovun əksi olan döş nişanları taxdılar.

Bizə hər yerdə böyük maraq göstərirdilər. Geyimimizə də, hərəkətlərimizə də nəzər salırdılar. Kim olma-

ğımızı, necə yaşadığımızı öyrənmək istəyirdilər. Haraya gedirdiksə, ətrafımıza çoxlu adam toplaşır, sualı sual ardınca verirdilər:

– Əyninizdəki paltarın hamısı özünüzündürmü?

– Sizdə kilsəyə, məscidə gedənlərə nə kimi cəza verirlər?

– Başqa millətdən qız alanları öz yurdlarına buraxırlarmı?

– Sizin kino-teatrlarda bayağı filmlər göstərirlərmi? və s. və i. a

İlk günlər bu sualların səmimiyyətinə şübhələnirdik.

Ölkə ilə, xalqla, onun yaşayış tərzi ilə az-çox tanışlıqdan sonra qənaətimizin yanlış olduğunu anladıq.

Zövqlə geyinməyimiz, normal hərəkət tərzimiz, oturub-durmağımız yerlərdə qəribə gəlirdi

Azərbaycan Dövlət Tibb İnstitutunun gənc müəllimi Rafiq Yusifov tədbirlərin keçirilməsində xüsusilə fəal iştirak edirdi. O, mahnılarımızın, rəqslərimizin gözəl təbliğatçısı kimi bizi sevindirir, yerliləri heyran edirdi. Görüşlərin birində Rafiq milli rəqslərimizi ifa edəndə nəcib bir şotland qızı ona qoşuldu. Qız da böyük məharətlə oynayırdı. Sonra Şotland xalq rəqsi çalındı. Rafiq dərhal rəqsin hərəkətlərini qavradı. O, bizim təkcə həkimimiz yox, həm də özfəaliyyət üzrə "məsləhətçimiz" oldu.

Bir axşam İngiltərənin tarixindən, ədəbiyyat və incəsənətindən söhbət düşmüşdü. Nazimin (Şmidt adına zavodun tokarı) geniş məlumatı ingilislərdə onun sənətinə şübhə oyatdı. Biz dedik ki, Nazim həqiqətən adi tokardır. İnanmadılar. Dedilər ki, ingilisşünas alimdir. Daha yaxşı! Qoy bizim adi tokarımızı alim bilsinlər.

Gedənbaş Londonda az qaldıq. Ötəri tanışlıqdan sonra Şotlandiyaya yola düşdük.

Şotlandiyanın mərkəzi Qlazqodur. Elə əhalisinin sayına görə də Qlazqo Edinburqdan iki dəfə böyükdür.

Qlazqo yaxınlığındakı viski zavodunda gördüyümüz vəziyyət və eşitdiyimiz söhbət çox səciyyəvidir.

Həmin zavodda viskinin hazırlanması və texnologiyası ilə tanış olurduq. Baş texnoloq (o, həm də direktor müavinidir) bölmələri göstərə-göstərə bizi qaranlıq zirzəmiyə dəvət etdi. Burada iki nəfər var idi. Baş texnoloq onları bizə təqdim etdi:

– Bu çəlimsiz cənab bizim əməkdaşdır. Bu gümrah cənab isə Londonun nümayəndəsidir. Təəccüblənməyin. London indi qaranlıq zirzəmilərdəki çəlləklərə də burnunu soxur...

Söz yarızarafat deyilsə də londonlu cənabı pərt etdi, rəngini dəyişdi. Amma nə edəsən, deyilən həqiqət idi. Zavod dövlət müəssisəsi olmasa da, burada hər şey nəzarət altına alınmış, dənlikdən tutmuş hazır məhsul

süzülən sonuncu boruya qədər hər yerdə hesablayıcılar qoyulmuşdu. Dedilər ki, zavodun qazancının bir qismi birbaşa Londona verilir.

Bizi müşayiət edən və üz-gözündən səmimiyyət yağan tələbə Əlesta zavoddan çıxandan sonra mənə dedi:

– Axı, niyə belə olmalıdır? Taxıl özümüzün, su, yer, avadanlıq özümüzün, işləyən biz, yarı qazanc isə Londona axır…

Əlesta ürək ağrısı ilə söylədi ki, rəsmi sənədlərdə bir milyon göstərilsə də, hazırda ölkədə milyon yarımdan artıq işsiz var. Onların çoxu da Şimali İrlandiya və Şotlandiyadadır. Bəla burasındadır ki, işsizlərin sayı getdikcə artır.

Yeri gəlmişkən, bu görüşdə yaranan bir mənzərəni də xatırlatmağı lazım bilirəm. Heyne Markla söhbətimiz zamanı sarışın bir gəncin kənarda dayanıb məzlum-məzlum bizə baxdığını gördüm. Gözləri yaşarmışdı. Onu da söhbətə dəvət etdik. Adı Andrey idi. Oktyabr inqilabından sonra ailəsi bura "pənah" gətiribmiş. Özü Londonda doğulub. Andrey Sovetlər ölkəsini atasının inqilabdan əvvəl gördüyü, təsvir etdiyi Rusiya kimi təsəvvür edirdi: hər yerdə aclıq hər yerdə fəlakət və cəhalət...

– Sizi görəndə, sizi dinləyəndə...- qəhər Andreyi boğdu. Andreyin hıçqırığı qulaqlarımda daim “məskən” salıb. Andreyin köks ötürməsi köksümdə həmişəlik ocaq qalayıb. Vətən həsrətinin nə demək olduğunu dərk etmək üçün Andreyi görmək, Andreyi dinləmək nə qədər də ibrətli imiş. Kaş o anları lentə köçürmüş olaydım. Bir neçə dəqiqənin içərisində yaranmış “filmim” Vətən sevgisi haqqında əvəzsiz sənət əsəri olardı...

Ölkəyə səhifələrimizdən cəmi bir neçə gün əvvəl Şimali İrlandiyada-Londonеridə baş vermiş hadisələr-burada dinc nümayişin gülləbaran edilməsi nəticəsində 13 nəfərin öldürülməsi, 18 nəfərin ağır yaralanması şotland gənclərinin də hiddətini artırmışdır. Çoxu hələ həddi-buluğa çatmamış gənclərin günahsız ölümünə qarşı hər yerdə açıq etiraz eşidilirdi.

Ölkənin tələbə cəmiyyəti İrlandiya gənclərinin hüquq bərabərliyi uğrunda apardığı mübarizəyə hərtərəfli köməklik göstərir. Tələbələr mitinqlər və nümayişlər keçirməklə kifayətlənmirlər. Onlar gənclər hərəkatının ehtiyacları üçün vəsait toplayır, dünyanın müxtəlif ölkələrinin gənclərini İrlandiya xalqının mübarizə şəraiti ilə tanış edirlər.

İrlandiyada olduğu kimi, Şotlandiyada da bərabərlik, müstəqillik tələb edənlərin sıraları getdikcə sıxlaşır, azadlıq meyli gündən-günə qüvvətlənir. Hakim dairələr

gəncləri siyasi mübarizədən ayırmaq üçün hər cür "gözəgörünməz" tədbirlər həyata keçirirlər.

Xüsusi mağazalarda, habelə küçələrdə, dayanacaqlarda, kəndlərdə, ümumiyyətlə, harada adam varsa, orada əxlaqsızlıq təbliğ edən jurnal və məcmuələr satılır. Xüsusi bər-bəzəkli çap edilən bu nəşrlərdə "qadın-kişi münasibətlərində ingilissayağı yeniliklər" ehtirasla intişar edilir.

Barlarda rəqs edən qızlar bütün əzalarını nümayiş etdirmək üçün üst-başlarında nə varsa, tədricən soyunub atır, lüt-üryan olurlar. Meymunun həya edib göstərmədiyi hərəkətləri bu qızlar utanmadan, xəcalət çəkmədən icra edirlər.

Kino-teatrlarda isə dəhşətdir. Səhər tezdən gecə yarıya qədər fasiləsiz hərlənən kinolentlərində xəyala gəlməyən iyrəncliklər cinsi münasibətlərdə Böyük Britaniya hakim dairələrinin yaratdığı "rekord dönüş" əks etdirilir.

## YARADICI GƏNCLƏRİMİZƏ NƏ ARZULAYIRAM?

Mən, istədiyim bütün adamlara, o cümlədən gələcəyimizə böyük ümidlər bəslədiyimiz yaradıcı gənclərimizə xoşbəxtlik arzulayıram.

Sənətkarın xoşbəxtliyi isə oxucunun, dinləyicisinin, tamaşaçısının könlünə yol tapması, onun ruhunu, zövqünü oxşaması, işdə, yaşayışda ona kömək etməsidir. Sənətkarın xoşbəxtliyi ancaq bir nəslin deyil, sonrakı nəsillərin də müsahibi olması, onun yaşayış və döyüş yolunu işıqlandırması, həyatı, insanı dərk etməkdə ona havadar çıxmasıdır.

Xoşbəxtliyə, səadətə isə ancaq əmək, zəhmət, dözüm, səbr və mətanətlə nail olmaq olur. İstedad çoxlarında ola bilər. Lakin bütün istedadlılar böyük sənətkar olmaya da bilər. Böyüklük- istedadla zəhmətin birliyidir, vəhdətidir. "Yeniyetmələr" adlı ərəb filmində deyilən bir kəlamı yada salmaq istəyirəm: "Dahilik-2 faiz əql və istedad, 98 faiz zəhmət və alın təri deməkdir".

Tər - isə alman şairi Peter Gile demişkən, əməyin göz yaşıdır.

Bax buna görə, mən gənc qələm və fırça sahiblərində çalışan gənc dostlarımıza əməkdən usanmamağı,

onun nəşəsini duymağı, öz cəbhəsində əsl fədakarlıq göstərməyi diləyirəm. Özü də qəlbimin bütün hərarəti ilə.

Çox təəssüf ki, bəzən gözlədiyimizin əksinə olur. Yaradıcı gənclərimizin bir qismi işləmək, öyrənmək, aramaq, püxtələşməyə səy göstərmək əvəzinə, yüngül şöhrətə uyur, getdikcə zəhmətdən aralaşırlar. Yazdığı bir neçə şeiri, çəkdiyi bir - iki rəsmi, bunun fərqi yoxdur necə olur-olsun, çap etdirənə qədər redaksiya və nəşriyyatların qapılarını döyür, idarədən-idarəyə keçir. Günlərlə vaxt itirir. Yeni ifadə tərzi, yeni üslub axtarmaq əvəzinə tanış-biliş, qəyyum və himayəçi axtarır.

Biz də, mətbuat işçiləri də bəzən ürəyi yumşaqlıq, qəlbiyananlıq - prinsipsizlik edirik. Gələn əsərin keyfiyyəti, bədii dəyərinə deyil, kimin gətirdiyinə, müəllifin nə dərəcədə üzlü və ya sakit olması ilə hesablaşırıq.

Bizim başqa bir ziyanlı yolumuz da var. Həqiqətən istedadı, ilk müvəffəqiyyəti olan gəncləri bəzən hədsiz dərəcədə, olanından artıq tərifləyirik. Özü də dalbadal. “Öz səsi”, “öz nəfəsi”, “öz dəsti-xətti” deyib olanı da korlayırıq, arxayınçılıq yaradırıq. Gənc isə özünün həqiqətən “nadir istedad”, “üçün xəyala gəlməz tapıntı” olduğunu güman edib, başqalarının da ona çatmasını oturub gözləyir. Həmişə də belə olub: yersiz tərif, layiq

olmayan söz, adətən adamın ayağını yerdən üzüb. Ayaq da ki, yerdən üzüldü- şair yaxşı deyib:

*Kimin ki, ayağı yerdən üzüldü,*
*Bəxtinə nə günəş, nə də ay güldü.*
*Özü xəzan olub vaxtsız töküldü,*
*Ömrün baharını duymadı getdi.*

Bəzən də əksinə edirik. Sənət aləminə yeni gələnlərə laqeyd, soyuq, ruhsuz yanaşır, onların hamısına: "get-sənətkarlığını artır", "oxu, öyrən, sonra gəl" kimi qulaqları dəng, döyənək etmiş cavablar verir, qığılcımı alovlandırmır, sönməsinə səbəb oluruq. Məncə, yüz gəncə "oxu, öyrən" deməkdənsə, hərə bir nəfəri öyrətsə, sənət dünyasına çıxmaqda ona əməlli köməklik etsə, ata, böyük qardaş-bacı qayğısı göstərsə daha faydalı olardı.

Gənc istedadların, yaradıcı gəncliyin formalaşıb yetişməsində mətbuat işçilərinin, yaradıcı təşkilatların səyləri qəti qaydada birləşərsə, daha bəhərli olar. Deyir, hamı çəkici bir yerə vursa, zərbə daha tutarlı olar, səs-səda isə daha uzaqlara gedər. Gəncliyə qayğı və tələbkarlıqla yanaşmaq, onlara ümidlə baxmaq lazımdır.

Fikrimi böyük şairimiz S.Vurğunun müdrik sözləri ilə tamamlamaq istəyirəm: *"Gənclərimiz öz ata-babalarımızdan qalan ən gözəl və xeyirxah adətləri öz qəlblərində yaşadırlar. Onlar bilirlər ki, hünər və səxavət Azərbaycan kəndlisinin ən vacib xasiyyətlərin-*

*dəndir. Öz nəcib ruhunu, insanpərvər adətlərini gəncliyində miras kimi yaşadan bir xalq bəxtiyardır! Onun daha böyük gələcəyi var!".*

Arzum budur ki, hamımız belə düşünək. Hamımız qayğı çəkək ki, şivlərimiz köklərimiz üstündə boy atsın, sonradan peyvəndə ehtiyac qalmasın.

# MİNİATÜRLƏR, SATİRALAR



## QORXURAM

- Bayram münasibətilə nöş anana teleqram vurmursan?
- Qorxuram, arvadım yerimi bilə.

## ARZU

- Yeni ildə nə arzulayırsan?
- İdarəmizə, yoxsa özümə?
- Elə hər ikinizə.
- İdarəmizə maymaq bir müdir, özümə isə dibi görünməyən cib.

## BİLİRİK

Müştəri:

- Azacıq yağ üçün o qədər kağız qoymaq nə üçün, qənaətçil olmaq lazımdır.

Satıcı:

- Heç narahat olmayın, nəyə qənaət etməyi biz sizdən də yaxşı bilirik.

## DOST

- Oğlum, atanı telefona çağır.
- Atam xəstələnib.
- Çoxdan?
- Sizin şəhərə gəldiyinizi bildi vaxtdan.

## MÜDİR KİMİ

- Sifətinə yaraşıq verən qara, qəşəng bığını niyə qırxdırmısan, qədəş?
- Əşşi, bığ nədir, artıq onun vaxtı keçib. Əgər xeyirli bir şey olsaydı, ağıllı-kamallı təzə müdirimiz də özünə bığ qoydurardı.

## TƏRBİYƏÇİ

Gənc müəllimə valideynə şikayətlənərək dedi:

- Uşağınız məktəbdə özünü yaxşı aparmır. Yaramaz hərəkətlər edir, nalayiq sözlər danışır...

Valideyn müəllimənin sözünü kəsib:

- Aydındır, aydındır, - dedi, - evə çatan kimi o it küçüyünün qulaqlarından tutub yerə çırpacağam. Onu tərbiyəsiz öyrədən anası heyvan qızını da evdən qovacağam.

## İNKİŞAF YOLU

- Son vaxtlar böyüklər olan yerdə əcnəbi dildə kəkələyirsən. Olmaya...

- Əşşi, bəs deyil yerimizdə saydığımız? İrəli çəkilənlərin nəyi bizdən artıqdır.

## ABUNƏÇİ

Birindən soruşdular ki, qəzet alırsanmı?

O dedi:

- Niyə almıram! Bəs bazardan aldığım şeyləri ətəyimə bükürəm?

## HANSI ARVADIM

Şagird direktorun kabinetinə daxil olub dedi:

- Müəllim, arvadınız sizi bayırda gözləyir.
- Hansı arvadım? – deyə direktor tələsik pəncərədən boylandı.

## NÖVBƏLİ İŞ

Qonşu qadın rəfiqəsindən nə üçün evi süpürmədiyini soruşduqda ev sahibəsi dedi:

- Bu gün ərimin növbəsidir, işdən qayıdandan sonra süpürəcək.

## HƏLƏ KEÇMƏMİŞİK

İnstitutun dil-ədəbiyyat fakültəsinin son kursunda qiyabiçi olan dostumdan bir mürəkkəb cümlə deməsini xahiş etdim.

O, xeyli fikirləşdikdən sonra:

- Mürəkkəb cümləni hələ keçməmişik. – dedi.

## KEYFİYYƏT ƏLAMƏTİ

Müxbir:

- Yeni çəkdiyiniz film necə alınır?

Rejissor:

- Əla! Hələ heç bir filmdə bu qədər adam iştirak etməyib.

## ADAM TAPIB YAZDIRARAM

Maarif şöbəsinin müdiri səkkizillik məktəbin direktoruna dedi:

- Sizi irəli çəkib, orta məktəbə direktor təyin etmək istəyirik, təcili şəxsi işinizi hazırlayın.

Direktor gözünü döyə-döyə:

- Yazı işim olacağını bilmədiyimdən dil müəllimini özümlə gətirməmişəm. Bircə saat vaxt verin, başqa bir adam tapıb yazdırım, - dedi.

## QAYĞIKEŞ MÜDİR

Kolxozçu qadın:

- Yoldaş müdir, - dedi, - idarənizin işçilərinə siz nə deyirsiniz, bir aydır ki, ayaq döyürəm, lakin qanun üzrə çatan pulumu ala bilmirəm.

Müdir dərindən ah çəkərək, belə cavab verdi:

- Eh bacı, bizim işçilərin üzünü mürdəşir yusun, əgər beş-altı manatından keçməsən, bir ay nədir, bir il də gedib-gəlsən, sənə iş düzəltməzlər.

## RAZILIQ

- Heç olmasa sonuncu ərindən razısanmı?

- Deyəsən bu yaxşıdır. Haraya gedib-gəlməyimlə, kimlə oturub-durmağımla hələlik bir dəfə də maraqlanmayıb. Bir hərəkətimə etiraz etməyib...

## MÜNTƏZƏM MÜTALİƏ

Məsul işçi olan bir nəfərdən xəbər aldılar:

- Öz üzərinizdə çalışırsınız?

- Çox müntəzəm qaydada, - dedi, elə bu yaxınlarda "Molla Nəsrəddinin lətifələri"ni oxuyub qurtarmışam.

## MƏNDƏN BÖYÜK

Bərbər içəri yeni girən adamın əksini güzgüdə görən kimi, məni bir təhər yola salmağa tələsdi. Mən, ondan qayda-qanunla işləməyi, tüklərimi yolub-tökməməyi xahiş etdim. Bərbər ağzını qulağıma yaxınlaşdırıb dedi:

- Bala, səndən böyük vəzifə sahibinin növbə gözlədiyini görmürsən?!

## QONAĞINIZ GƏLİB

Sədr tarladan qayıdarkən kolxozun sürüsündən kök bir erkək ayırıb aparan ferma müdiri ilə qarşılaşdı. O, müdirdən erkəyi haraya apardığını soruşdu.

Müdir:

- Yoldaş sədr, bəs qonağınız gəldiyini bilmirsən? – deyə suala sualla cavab verdi.

## EZAMİYYƏT

- Son vaxtlar nə çox ezamiyyətə gedirsən?
- Mən təqsirkaram? İstədiyin məhsulu mağazada tapa bilmirsən ki, oturub qalasan şəhərdə.

## HESABDARIN ARVADI

Məhsul toplanışının qızğın vaxtında qonşu kolxoza getmişdim. Bulaq başında qab-qacaq yuyan bir qarıdan başqa kənddə heç kəs görünmürdü. Mən onun yanına gedərək soruşdum:

- Bəs nə yaxşı siz işdən qalmısınız?

Qadın gülümsəyərək:

- Görünür məni tanımırsan, hə, hesabdarın arvadıyam dayna, - dedi.

## MÜDİRİN ZÖVQÜ

Müştəri pivə bakalının yarımçıq süzüldüyünü görüb, narazılığını bildirdikdə, bufetçi dedi:

- Müdirimiz belə xoşlayır, biz də onun zövqünə uyğun işləyirik.

## VƏZN NƏDİR?

Redaksiyaya gələn gənc gətirdiyi şeiri tərifləməyə başladı. Ədəbi işçi şeirin hansı vəzndə yazıldığını soruşdu.

Gənc çiyinlərini çəkərək:

- Vəzn nədir? – deyə təəccüb etdi.

## ADI AYRI, ÖZÜ EYNİ XÖRƏKLƏR

Yoldaşımla birlikdə menyuya baxıb, hərəmiz bir cür xörək sifariş etdik. Lakin ikimizə də eyni şey gətirdilər. Biz, xörəkpaylayandan sifarişimizə nə üçün düzgün əməl etmədiyini soruşduq.

O, soyuqqanlıqla:

- Necə, yəni eyni xörəklərdir? – dedi. – Məgər bir qabda ətin, o biri qabda kartofun çox olduğunu görmürsünüz?

## SƏDAQƏT

Qız oğlanı məzəmmət edib dedi:

- Əzizim, sən həmişə deyirdin ki, ömrümün axırına qədər sənə sadiq qalacağam, səndən ayrılmayacağam. Bəs indi nə üçün üzüdönüklük edirsən?

- Axı, mən hardan biləydim ki, sənin atanı belə tezliklə işdən çıxaracaqlar, - deyə oğlan xudahafizləşmədən qızdan uzaqlaşdı.

## REPORTAJ

Oxucu:

- Reportaj nəyə deyirlər?

Jurnalist:

- İçərisində bir və ya bir neçə dialoq olan, başlığının altında "Reportaj" yazılan qəzet materialına.

## PİS YUXU

Rəis səhər tezdən durdu, yatağının içində gərnəşərək arvadına dedi:

- Bu gecə yuxumu yaman qarışdırmışam. İdarəyə zəng edib de ki, bu gün işə gələ bilməyəcəyəm.

## MƏHƏBBƏTİN KÖKÜ

Təzə nişanlanmış gəncdən nişanlısının necə adam olduğunu, təhsilini və işini soruşduqda, o, belə cavab verdi:

- Çox zəngin aildəndir. Anası kassir, atası isə müavindir.

## HAMISI ƏLA

Valideyn:

- Alo, alo, ay oğul, işlərin necədir?

Tələbə:

- Sağlığınıza, təhsil işindən başqa, qalan hər şey əla!

## TƏBRİK TELEQRAMI

İyduyanov dekabrın 30-da ötən yeni il üçün təbrik teleqramı vurduğu dost-əqrəbasının siyahısını nəzərdən keçirib iki adamın adını qaraladı. Mən:

- Niyə onların adını qaraladınız? – deyə soruşdum.

İyduyanov:

- Birini işdən çıxarıblar, o birinin də sözü təzə

müdirin yanında keçmir, - deyib siyahıya üç yeni ad əlavə etdi.

## ÖZÜMÜZƏ İŞLƏYİRƏM

İşdə tənbəllik edib, bir təhər gününü keçirən cavan kolxozçunun canıdillə işlədiyini görüb təəccüblə soruşdular:

- Bu gün nə yaman şirin cana qəsd edirsən?

O, başını qaldırmadan:

- Otu özümə biçirəm, - deyib kərəntini hərləyə-hərləyə cavab verdi.

## BƏNZƏMƏ

- Kişi, bu nədir vərdiş eləmisən? Axı, sən həmişə suyu bir nəfəsə içirdin? İndi isə qurtum-qurtum. Bu nə deməkdir?

- Arvad, mənim nə ixtiyarım var ki, böyük rəis Ədəbərkanov suyu qurtum-qurtum içdiyi halda, mən bütün nəzakət qaydalarını pozub bir nəfəsə içim…

## SALAM

Qəzənfər:

- Nə üçün Mirişə salam vermədin?

Banladı:

- Daha mənim ondan nə asılacağım var ki, havayı yerə ağzımı ağrıdım.

## DÜZÜ BELƏDİR

- Görünür, xeyli vaxtdır əməlli yeməmisən?
- Düzü belədir. Bir həftədən artıqdır ki, evimizdən başqa heç yerdə çörək kəsməmişəm.

## NƏ BİLƏYDİM Kİ

Müştəri satıcının qəndi əskik çəkdiyini görüb:

- Nə üçün belə göz görəsi oğurluq edirsiniz? – dedi.

Satıcı cavab vermək əvəzinə müştərinin kim olduğunu və harada işlədiyini soruşdu. Sonra irişərək dedi:

- Eh, mən biləydim ki, siz harada işləyirsiniz. Bəs adam kim olduğunu qabaqcadan deməz?!

## ÖLMƏMİŞƏM HA...

Tənqidçi:

- Hekayənizin məzmunu oxuyucuya çatmır.

Yazıçı:

- Ölməmişəm ha, çatmır qoy zəng edib özümdən soruşsun.

## SEVİNCİN SƏBƏBİ

Həvəskarovun çıxışı qurtarar-qurtarmaz salonda gurultu qopdu. “Çox razıyıq!” – deyə adamlar əl vurdular.

Mən yanımda oturan adamı dümsükləyib soruşdum:

- O, nə dedi ki? Nə üçün adamlar belə edir?
- Sevindiklərindən, - dedi, - çünki Həvəskarov ömründə belə qısa danışmamışdı.

## ÇIXIŞ YOLU

Qədir:

- Bu gün eyni vaxtda məni iki toya dəvət ediblər. Bilmirəm hansına gedim.

Namazlı:

- Adə, bu barədə heç düşünməyə dəyməz. Vəzifəcə səndən böyüyün toyuna.

## BƏRİ GƏL

Milis işçisi:

- Yoldaş leytenant, eşidirsinizmi, o tərəfdən qalmaqal səsi gəlir. Gedək görək nə var.

Leytenant:

- Bəli gəl, əşşi, adam havayı yerdən başını qalmaqala salmaz. Yuxarıdan tapşırarlar gedərik, tapşırmazlar da nə dərdinə.

## MƏNDƏN BETƏR

- Ayıbdır, az iç, bayıra çıxanda nəçənniyin Şərabkumov yoldaşla rastlaşa bilərsən.
- O, mənim içdiyimi hiss edə bilməz.
- Nə üçün?
- Çünki özü məndən betər içəndir.

## ADI Kİ, YÜKSƏKDİR

Münsiflər heyətində ciddi mübahisə başlandı.

- Bu əsərin səviyyəsi çox aşağıdır, - deyə hamı təkid etdi. Sədr isə:

- Nə olsun aşağıdır, müəllifin adı ki, yüksəkdir, - deyib əsərə birinci yer verilməsini lazım bildi.

-

## KİRVƏLİK

- Ay kişi, daha bəs deyil, bizi əldən-ayaqdan saldın. Gündə biri ilə kirvəlik edirsən. Nəyə lazımdır bu qədər kirvəlik?

- Lazımdır, arvad, lazımdır! Özü də hava ilə su kimi. Əgər bu kirvəliklərin siyahısını uzatmasam, vəzifəmin ömrü qısalar, - deyib kişi köksünü ötürdü, sonra da:

- Tez ol, - dedi, - tez ol, yığış gedək təzə gələn naçalnikin anadan olacaq uşağına kirvə durmağa razılıq alaq.

## YAZIÇI VƏ REDAKTOR

Redaktor gənc yazıçıya dedi:

- Nə üçün xeyli vaxtdır görünmürsünüz? Heç olmasa yazılarınızı göndərəydiniz.

Gənc yazıçı:

- Necə, - dedi, iş yerimi dəyişdirdiyimi, irəli çəkildiyimi məgər bilmirsiniz?!...

-

# İDMAN MÜƏLLİMİ

Bədən tərbiyəsi və idman müəllimimdən soruşdular:

- Basketbol komandasında neçə adam oynayır?
- Futboldakı qədər, - dedi, - cəmi 12 nəfər.

## BƏLƏDÇİ İLƏ

Kəndə gələn rayon rəhbərlərindən biri kolxoz sədrinə dedi:

- Dağda olan qoyun komalarınıza baxmaq istəyirəm. Əgər vaxtınız varsa, bərabər gedək.

Sədr bir qədər fikirləşdikdən sonra:

- İşimin adı nədir, - dedi. – Amma oraya bələdçisiz getmək mümkün deyil. Bir azca gözləyin, bir bələdçi tapım, sonra yola düşərik.

## CƏHD

- Əhməd, - dedim, - Səyyarov yoldaşın ailəsi bu gün köçünü aparır. Gedək xudahafizləşək.

Dostum Əhməd:

- Eh, sənin də başına iş qəhətdir, - dedi, - Kim bilir, onu bir də buraya rəhbər göndərəcəklərmi?

## CƏM ŞƏKİLÇİSİ

- Teleqramda necə yazsam yaxşıdır “müvəffəqiyyət və səadət”, yoxsa “ müvəffəqiyyətlər və səadətlər”?
- Kimə yazmağına baxır, gələcəkdə ona bir işin düşəcək və ya düşməyəcək?
- Düşəcək.
- Onda mütləq cəm şəkilçisi artır.

## REDAKTOR

Redaktora dedilər:

- Nə üçün tapşırılan kitabı vaxtında oxuyub nəşriyyata qaytarmırsınız?

O, udqunaraq:

- Düzü, hələlik elə münasib bir adam tapıb oxutdura bilməmişəm, - dedi.

## ƏLAVƏ MƏZUNİYYƏT

Ömründə bircə dəfə iməcliyə gedən işçi səhər tezdən direktorun yanına gəlib dedi:

- Tamam əldən düşmüşəm. Bir tərəfdən öz işim, o biri tərəfdən də əlavə işlər.
- Xahiş edirəm ki, məni bir ay da öz hesabıma məzuniyyətə buraxasınız.

## İDMANÇI

İstirahət evinin üçüncü mərtəbəsində dincələn bir nəfərin səhər tezdən liftə doğru yüyürdüyünü görüb soruşdular:

- Hara belə tələsirsiniz?

O:

- Səhər gimnastikasına, - deyib özünü liftə atdı.

## OBYEKTİV ADAM

Direktor müavinindən soruşdular:

- Nə üçün Qabili incidirsən? O ki, işgüzar, təşəbbüskar və mədəni oğlandır.

Müavin əlini dodaqlarına yapışdırıb:

- Suss, - dedi, şefin ondan zəhləsi gedir.

## TƏNQİDDƏN NƏTİCƏ

Əmircan Əmirzadəyə dedilər:

- Bəsdir kabinetdə bu qədər oturduğunuz, bir bayıra çıxın.

O:

- Düz deyirsiniz, - dedi, - daha havalar xoş keçir, küçədə gəzmək də pis olmaz.

## HAZIRCAVAB MÜƏLLİM

Alman dili müəlliminə bir məktub verib:

- ADR- dən gəlib, xahiş edirik oxuyub tərcümə edəsiniz, - dedilər.

Müəllim məktubu alıb:

- Alman dilindən dərhal tərcümə etməzlər, - dedi,- üç gündən sonra gəlib cavabını alarsınız.

## YEZNƏSİ İDİM

- Sən çoban Mahmudun yeznəsi deyilsənmi?
- Bəli, institutda oxuduğum vaxtlar.

## RİŞXƏND

- Arvad, mənim bütün dokumentlərimi topla gətir, gərək aparıb adımı, familyamı dəyişdirim.
- Ay kişi, ağlını itiribsən?! İllərdən bəri danışdığın adı niyə dəyişdirirsən? Bəs camaat bizə nə deyər?
- Nə deyər desin! İdarəyə girən kimi Vitali Əlimərdanıç, "Sahib Səməndər oğlu" – deyib rişxənd edir. Yox, arvad, gərək bunları sovremenniləşdirəm, yoxsa kişinin gözündən tamam düşərəm.

## MÜDİR HA DEYİL

- Nə üçün ağsaqqal atanın sözünə baxmırsan, onun dediklərinə məhəl qoymursan?
- Niyə, o da müdirim ha deyil, sözünə baxmasam məni işdən çıxara.

## TƏSDİQOV

- Yoldaş Təsdiqov, insan ləyaqəti dedikdə nəyi başa düşürsünüz?
- Rəis bilən yaxşıdır, o nəyi desə mən də onu.

## OXUMUŞ OLURAM

- Bilmirəm, nədənsə yerli qəzetin dördüncü səhifəsinə heç baxmırsınız.
- Oradakı yazıları qabaqcadan oxumuş oluram.
- Harada?
- Mərkəzi qəzetlərin səhifələrində.

## TƏRİF

- Ferma müdirini yaman tərifləyirsən ha!

- Neyləyim? Uşaqların yavanlığı tamam qurtarıb.

## TƏLƏSMƏ

Şagird:

- Müəllim. Bu işlətdiyimiz mürəkkəb nədən alınır?

Müəllim:

- Dördüncü sinif şagirdinin belə şeyləri bilməsi vacib deyil, tələsmə vacib deyil, tələsmə, 5-ci sinifdə fizikanı keçəndə öyrənərsən.

## MÜNASİBƏT RƏMZİ

- Nə üçün öz dilində heç qəzet-kitab oxumursan?
- Çünki Dönükzadə yoldaş özgə dildə oxuyub-yazanlara daha yaxşı münasibət göstərir.

## İNTİQAM

- Niyə o oğlana kinayəli baxdın?
- Demaqoqun biridir.
- Sənə nə edib?
- Mənə yox, Hayharayov yoldaşa. O gün iclasda kişinin bütün eyiblərini açıb tökdü ortaya.

## SƏBƏB

- Xeyli vaxtdır görünmürsən, heç olmasa zəng də etmirsən.
- Düzü, məni tamam başdan çıxarmışdılar, hamı deyirdi ki, sənin iş yerini dəyişirlər.

## RAZILIQ

Ata şəhərdə oxuyan oğluna zəng edib dedi:

- Razılıq ver, nişanını geri götürək.

Oğlu təəccü

blə soruşdu:

- Nə olub, ay ata?
- Özgə heç nə, qızın atasının vəzifəsini kiçildiblər.

## ÇÜNKİ

- Dikbaşov nədənsə son vaxtlar hamıya mehribanlıq göstərir, adamlara yaxşı rəftar edir.
- Çünki çəkinəcəkli yeri var, təzə gələn katibin evinə hələ yol tapa bilməyib.

## BİR HƏFTƏ QALIB

- Kişi, nədir yenə özünü əldən-ayaqdan salıb gecə-gündüz çalışırsan?
- Bəs indi də çalışmayım? Hesabat-seçki yığıncağına cəmi bir həftə qalıb.

## BƏDİİ KİTAB

- Sənin heç bədii kitab oxuduğunu görməmişəm.
- Havayı yerə özümü niyə əziyyətə salım. Onsuz da yuxarıdan gələnlərin heç biri bədii kitablara dair sual-cavab aparmır.

## YEDƏK VAXTI DEYİL

Maşının palçıqdan çıxmayacağını yəqin edən sürücü dedi:

- Yoldaş Başbilənov, yedək olmasa maşını çıxara bilməyəcəyik.

Başbilənov bomba kimi partladı:

- Ədə, yedək vaxtı deyil, - tez ol buksir dalınca qaç.

## KOLXOZ SƏDRİ

Sədrin anketini dolduran adam soruşdu:

- İxtisasınız?
- Kolxoz sədri!
- Milliyətiniz?
- Bu nə uzunçuluqdur. Bütün sualların qabağından birdəfəlik bir şey yazın: Kolxoz sədri.

## KİMİN OĞLUSAN

- Kimin oğlusan?
- Səfərovun bacısı oğlu.
- Nə üçün atanın adını demirsən?
- Dayımı daha yaxşı tanıyırlar.

## GÖSTƏRİŞ ALMIŞIQ

- Nə səbəbə vaxtı itirirsiniz, biçinə başlamırsınız?
- Hələlik yuxarıdan göstəriş almamışıq.

## FİZİKİ İŞ

Çərəkəni heç əlindən salmırsan?

- Həkim tapşırıb ki, arıqlamaq üçün fiziki işlə məşğul olum.

## AİDAT

Briqadir dedi:

- Yoldaş Dönməzov, axı biz axşamkı iclasda qərara aldıq ki, heç bir işçi evdə qalmasın. Bəs nə üçün arvadınız bayıra çıxmır?

Dönməzov:

- Ədə, belə qərarların sədr ailəsinə aidatı yoxdur, - dedi, - get camaatı işə çıxart.

## MÜƏLLİFİNİ DEYİN

Kitabxanaçıdan xahiş etdim ki, "Sirlər xəzinəsi" kitabını mənə verin.

Kitabxanaçı:

- Müəllifini deyin, yoxsa tapmaq mümkün olmaz, - deyib yazıq-yazıq boynunu bükdü.

## ƏMR

Kolxozun katibi anbarda bir kağız verib dedi:

- Əmrinizi alın, axşam işdən azad edildiniz.
- Kim məni azad etdi? Zorbalayev yoldaş ki, kənddə deyil.
- Nə olsun, arvadı ki, kənddədir.

## VAXTIM YOXDUR

- Namiq, bu gün beynəlxalq mövzuda mühazirə oxuyacaq, gəl biz də gedib qulaq asaq.
- Namiq:
- Çox sağ ol, - dedi, - vaxtım yoxdur, gedirəm uşaqlarla nərd atmağa.

**TƏLAŞ**

Xörəkpaylayan özünü təlaşla mətbəxə atıb aşbaza dedi:

- Ay usta, tez ol, təzə ət çıxart, əməlli bir şey hazırla.
- Nə olub, ay qız, yoxsa müfəttiş gəlib?
- Yox, yox! Torqun müdiridir, yanında da yeddi-səkkiz adam...

**KADR SEÇMƏK**

Həştadzadə ağzı köpüklənə-köpüklənə danışır, getdikcə səsini yüksəldirdi:

- Nə üçün bu yararsızı vəzifədə saxlayırsınız? İndi də kadro qəhətliyidir? Məgər bu maymağı daha savadlı, daha mədəni, daha işgüzar başqa birisi ilə əvəz etmək olmazmı?...

Büro üzvləri onun sözünü kəsib:

- Konkret olaraq deyin görək, onu kiminlə əvəz etmək olar? – deyə təkid etdilər.

Həştadzadə ağzının köpüyünü sildi, ani fikirdən sonra:

- Məsələn, - dedi, - bizim Qədirbilənlə, yaxud xaloğlu Mənişlə, bunları da razı olmasanız, bacanaq Çırpanla.

## BİZİMKİ

- Mükafata bizimkini də yazımmı?
- Kimlərinkini?
- Kimlərinkini yox, bircə bizim uşaqların anası Mülayimi deyirəm.
- Bəs nə üçün "bizim" deyirsən. Deyinən mənim arvadım Mülayimi...
- Yox, yox yoldaş Hətəmov, cəmiyyətin bərabər hüquqlu bir üzvünü özümə xüsusiləşdirməyə, "mənim" deməyə nə ixtiyarım var! Bu ki, fərdiyyətçilik olardı?!
- Bəs sizinkinin adına havayı yerdən yazmaq istədiyiniz mükafat?
- Siz ki, canlı insanla əl kiri olan pulu eyniləşdirirsiniz, onda mən daha nə deyim…

## GÖZLƏNİLMƏZ HAL

Yol nəzarətçisi:

- Vətəndaş sürücü, ayıb deyil, nöş bilə-bilə qaydanı pozursunuz?

Sürücü:

- Nəçənnik, elə yerdə dayanırsınız ki, burada nəzarətçi ola biləcəyinə heç adamın gümanı da gəlmir.

## SAYMAZOVUN SALAMI

Yanımızdan keçərkən Saymazovun bizə salam verməsi məni təəccübləndirdi.

- Bu niyə belə? Axı,o heç vaxt vəzifəcə özündən kiçiklərə salam verməzdi, - deyə yoldaşımdan soruşdum.

- Təəccüblənmə, - dedi, - bu seçkidə Saymazovun özünü də saya salmayıblar.

## XƏSTƏLƏNİRDİ

- Laləni də boşadın?
- Boşayası oldum.
- Niyə?
- Tez-tez xəstələnirdi.

## ÖZGƏ İŞLƏR

Kənd sovetinin sədrinə dedilər:

- Kəndinizdə abadlıq və yaşıllaşdırma işləri yaxşı vəziyyətdə deyil. Nə üçün bu barədə düşünmürsünüz?

- Əşşi, - deyə sovet sədri dilləndi, - biz öz işimizi görüb qurtara bilirikmi ki, özgə işlərlə də məşğul olaq?!

## CAVAB

- Sevdimalı, sənə bir sualım var.
- Nə sual?
- İxtisasına dair.
- Nə ixtiyarın var?! Sənə tabe işçi deyiləm ki, mənə sual verəsən.

## QOY TƏDBİR GÖRSÜN

Müəllim dərs hissə müdirinə dedi:

- Oğlunuz bu gün də məktəbə gəlməyib. Xahiş edirəm ki...

Müdir müəllimin sözünü kəsərək:

- Mən də xahiş edirəm ki, - dedi, - hərənin işini özünə deyin. Sinif rəhbəri çanaq içi çıxarmır, ölməyib ha, gəlməyib deyin, qoy tədbir görsün.

## BU GÜN DİNCƏLİR

- Fürsətəli Qurubaşoviç nə üçün işə gəlməyib?
- Bu gün dincəlmək günüdür, axı, dünən kəndə getmişdi.

## SƏHVİMİ DÜZƏLTDİM

Tələbə yoldaşım Dilqəmlə görüşüb hal-əhval tutduq.

- Səlimə bacı necədir, uşaqlar necədir? – deyə arvadını, uşaqlarını soruşdum.
- Əvvəla, səhvinizi düzəldin, Səlimə bacı yox, Əzizə bacı.
- Necə, mən yanılıram.
- Xeyr, mən yanılmışdım. Səhvimi düzəltdim, Səliməni Əzizə ilə əvəz etdim.

## ƏLİƏYRİLİK

- Anbardarı nədən ötrü işdən azad etdiniz?
- Əliəyrilik etdiyinə görə.

- Nə əliəyrilik edib?
- Ailəmiz üçün xəlvəti hazırlatdığım pendirdən iki kiloqram götürüb öz evinə aparıb.

## ÖLÇÜ VAHİDİ

- Əntər Əntəriç, işçilərinin sənə olan sədaqətini nə ilə müəyyən edirsən?
- Müxtəlif adlar altında mənə verdikləri hədiyyələrin miqdarı və dəyəri ilə.

## MÜBARİZƏ TƏDBİRLƏRİ

Mühazirəçi zəng edib, klub müdirinə dedi:

- Mühazirə oxumaq üçün sizin kəndə gələsi idim. Lakin vacib işim olduğu üçün gələ bilmədim. Putyovkamı göndərirəm, möhürlədib özümə qaytarmağınızı rica edirəm.
- Bağışlayın, mühazirəniz nə mövzuda olmalı idi?
- "Müftəxorluğa, gözbağlayıcılığa və aldadıcılığa qarşı mübarizə tədbirləri" barədə.

## SİMİCİN BİRİ

- Nə üçün Ədalət kişiyə nifrət edirsən?
- Çünki tamahkarın, simicin biridir.
- Məsələn, nə tamahkarlıq edib?
- Məsələn, məndə bir manat pulu qalmışdı. Onu yüz dəfə istədi, almamış əl çəkmədi.

## XƏBƏRİM YOXDUR

- Qənbər canı, məndən çəkinib eləmə, nə işin var de, gedib düzəldim. Siqəverdi Mövlamverdiyeviçlə can bir, qəlb birik. Kişi ilə uşaqlıq, gənclik, sonra da uzun illər iş yoldaşı olmuşuq. Bir-birimizdən ayrı tikə kəsməmişik. Evimiz ayrı olsa da, süfrəmiz həmişə bir olub.
- Bağışlayın, Naloş qardaş, Siqəverdi yoldaş evlidir ya subay?
- Evlidir, ya subay, evlidir, ya subay? – deyə Naloş bir neçə dəfə udqundu. – Düzü, bundan xəbərim yoxdur.

## PUL İSTƏMİRLƏR

- İştahın nə zaman daha açıq olur?
- Ehsan yeməyə gedəndə.
- Nə səbəbə?
- O səbəbə ki, ehsan yerində yediyimə pul istəmirlər.

## HƏRƏNİN ÖZ İŞİ

- Həkim, niyə kabinetinizin təmizliyinə fikir vermirsiniz?
- Hərənin işini özündən tələb edin! Təmizlik işinə mən yox sanitariya üzrə müavinim baxır.

## ƏLBƏTTƏ YOX

25-26 yaşlarında bir gənc komsomol iclasdan çıxarkən çığıra-çığıra deyirdi:

- Görürsənmi, mənə böhtan atırlar ki, guya tüfeyli həyat keçirirəm, özgəsinin hesabına yaşayıram.
- Düz demirlər?
- Əlbəttə yox! Məgər öz doğma ata-anasının hesabına yaşamaq özgəsinin hesabına yaşamaqdır?!

## QOY YAY GƏLSİN

Mühəndis, rayon kommunal xidməti və abadlaşdırma idarəsinin müdirinə dedi:

- Kirayənişinlər sizi "Calalı" məhəlləsinə dəvət edirlər.

Müdir əlini stola vuraraq qışqırdı:

- Görünür, məni ələ salırlar. Nujeli, onlar başa düşmürlər ki, bu aylarda oraya girmək olmaz. Zəng edib de ki, qoy yay gəlsin, küçələri quruyan kimi gələcəyəm.

## AND

Sədr ferma müdirinə dedi:

- Qonağımız gələcək, fermadan iki qoyun dəyişib bizə göndər.
- Qoyun lazımdır göndərim, daha dəyişmək nə üçün?
- Çünki bunadan sonra evə kolxoz əmlakı qoymayacağıma and içmişəm.

## BÖYÜKLÜK

Nadanbəyov vəzifəyə keçdiyi gündən qonum - qonşu ilə rəftarını dəyişdi. Onlarla rəsmi və amiranə danışmağa başladı. Anası onun nə üçün belə hərəkət etdiyini soruşduqda Nadanbəyov dedi:

- Əgər yenə də qabaqkı kimi rəftar etsəm, onda nədən bilərlər ki, artıq mənim vəzifəmi böyüdüblər.

## MƏGƏR MƏN

- Müəllim, niyə dərsi sinədən danışmırsınız, həmişə kitabdan oxuyursunuz?
- Məgər mən kitab yazandan artıq bilirəm ki, onun yazdıqlarını qoyub, özümdən deyəm?

## DEYİRLƏR Kİ...

- Yoldaş Pərsəngov, nə yaxşı bu gün işçilərinizin hamısı işə gəlib?
- Eşidiblər ki, bu gün yuxarıdan adam gələcəkdir.

## DOSTLUĞUN SƏBƏBİ

- İş yoldaşlarından sənin ən yaxın dostun kimdir?
- Nəcəfəli Mülayimov.
- Niyə?
- Ona görə ki, ömründə bir dəfə də olsun məni tənqid etməyib.

## AVROPA QİTƏSİNDƏ

- Deyə bilərsənmi Nil çayı hansı qitədədir?

- Onu da bilməyib, bəs nəyi biləcəyəm, Avropa qistəsində.

## NƏ İŞİNİZ

- Niyə üst-başını səliqəyə salmırsan?
- Üst-başımla nə işiniz? Bu da iş ha deyil ki, səliqəsiz görəndə vıqovor verəsiniz?

## MƏLUMAT BÜROSUNUN XƏBƏRİ

Əsən külək yağan qarı pəncərələrə çırpdığından içəri xeyli qaranlıqlaşır. Direktor gözlərini qarşıdakı kağıza zilləyib çətinliklə oxuyur:

- Hava məlumat bürosunun verdiyi xəbərə görə bu gün səhərdən axşama qədər hava aydın və günəşli keçəcəkdir. Həftənin orta hava temperaturu keçən ilin eyni vaxtındakından 3 dəfə isti keçəcəkdir.

## ZÖVQ

- Ə, başına su çıxıb? Kostyumun gözəl rəngini niyə dəyişdirmirsən?
- Mənim başıma su çıxmayıb, sənin başına kül ələnib ki, Fasonbazov yoldaşın hansı rəngi xoşladığını hələ də duya bilməyibsən!

## GÖRƏK

- Bu günkü yığıncaqda çıxış etmək istəyirsənmi?
- Görək, əgər bizə toxunmasalar, nə işimə.

## FARS YAZIÇISI

- Sahib Təbrizinin hansı əsərini oxumusan?
- Azərbaycan yazıçılarını çox oxudum, qaldı fars yazıçıları?

## BU DƏQİQƏ

Redaktor:

- Şehli kəndinin qabaqcılları haqqında bir oçerk yazın.

Ədəbi işçi:

- Baş üstə. Bu dəqiqə zəng edib faktları soruşum. Saat yarıma hazır olar.

## QALSIN SABAHA

- Həkim, anamın ürəyi sıxılıb, xahiş edirəm təcili köməyə çatın.
- Artıq iş vaxtı qurtarıb, qalsın sabaha, tezdən yadımıza salın, gələrik.

## "KİRPİ" QƏZETİ

- Ən çox oxuduğun qəzet hansıdır?
- "Kirpi" qəzeti.

## TƏLİQƏ YAZIN

- Fermalarımızda xəstəlik var. Xahiş edirəm gəlib baxasınız.

Baytar məntəqəsinin müdiri:

- Xahişsiz. Təliqə yazıb göndərin. Təliqəni alan kimi işçilərdən birinə tapşıraram gəlib baxar.

## TÖVBƏ

- Bəs tövbə etmişdin ki, bir daha araq içməyəcəksən?
- Mən başı daşlı haradan biləydim ki, Böyükkişiyev yoldaşla bir məclisdə oturmaq, onun ulu sağlığına badə qaldırmaq səadəti mənə də nəsib olacaqmış.

## MƏGƏR

- Oğul, adam bu qədər təkəbbürlü olmaz, daha gözün ayağının altını seçmir...
- Niyə də seçsin? Məgər ayağımın altına pul tökülüb?

## YALAN

Rayonun məsul işçilərindən birinə dedilər:

- Eşitmişik ki, dünən getdiyin kənddə ancaq fermalara baxıb geri qayıtmısan.
- Yalandır! Sovet sədrinin evində başımız elə qarışdı ki, bir də gördük qaranlıq düşüb. Odur ki, nə fermaya, nə də başqa obyektlərə baxa bilmədik.

## STOLUMU

Bir nəfər vəzifə sahibindən soruşdular:

- Özünü çox sevirsən, yoxsa stolunu?

O, dedi:

- Əlbəttə stolumu!
- Nə səbəbə?

- Balıq suyu, div şüşəni nə səbəb sevirsə, mən də o səbəbə.

## SAYANDA AZALAR

Müxbir:

- Yoldaş zootexnik, bu il hər qoyundan neçə quzu götürmüsünüz?

Zootexnik:

- Hələlik bilmirəm.
- Nə üçün?
- Çobanlar deyirlər ki, döl qurtarmamış saymaq ziyandır, quzunu nə qədər saysan, o qədər azalar.

## HÖNKÜRTÜ

Müəssisənin hesabdarı Xatircəmovun kabinetinə girib ağlamağa başladı. Xatircəmov bunun səbəbini soruşduqda o dedi:

- Eşitmisənmi, deyirlər səni işdən götürürlər...
- Götürürlər götürsünlər, daha sən niyə ağlayırsan?
- Necə ağlamayım? Sənsiz məni bir gün də burada qoymazlar, - deyib hesabdar daha bərkdən hönkürdü.

## EYBİ YOXDUR

- Pirqulu, bax odur, inək bostanı korlayır. Bir qaç onu bostandan çıxart.
- Eybi yoxdur, o biri briqadanın bostanındandır.

## PLANDI

- Məlik, niyə belə hirslənmisən?
- Əşi, niyə də hirslənməyəsən? Bu gün məni iclasa qoyublar ki, nədi-nədi kitab oxumursan, öz üzərində çalışmırsan…
- Düz deyiblər də!
- Necə yəni düz deyiblər? Kitab oxumaq da plandı ki, yerinə yetirməyəndə danlayalar?

**BAR TUTAN**

Sual-cavab zamanı şagirdlərdən biri dinməz - söyləməz oturub başını aşağı dikmişdi. Müəllim, onun nə üçün başını yuxarı qaldırmadığını soruşduqda həmin şagird dedi:

- Müəllim, atalar deməyibmi, ağacın bar tutanı başını aşağı əyər?...

**MƏZUNİYYƏTDƏYƏM**

Şəhərə birinci dəfə gəlmiş adam milis işçisinə müraciət edib, mehmanxananın yerini soruşdu.

Milis işçisi:

- Mən məzuniyyətdəyəm, - dedi, bir qədər qabağa gedin, qarşıdakı küçədən sonra dönüb irəliləyin. Orada həmişə milisioner dayanır, ondan soruşun, hara lazımdırsa, o sizə göstərər.

**İNTİZAMSIZ**

Şofer:

- Müfəttiş qardaş, nə üçün məni gecikdirirsən? Vəsiqəmi ver gedim.
- İntizamsız və qanmaz olduğun üçün verən deyiləm.
- Axı, mən nə intizamsızlıq, nə qanmazlıq etmişəm?
- Bilmirsən ki, vəsiqənin içinə 5 manatdan əskik pul qoymazlar.

## KÖHNƏLMİŞ SÖZLƏR

- Ata, Xanəli əmi zəng edib səni…

Ata uşağın sözünü kəsdi:

- Gədə, bir də belə qələt eləmə, ayıbdır, kişi bizdən küsər, "əmi", "dayı" köhnəlmiş sözlərdir. Kişiyə ya Xanəli Qulaməliyev, ya da Kərəməliyev yoldaş de.
- Belə nə üçün ata? Axı, mən ona həmişə əmi demişəm...
- Bala, həmişə vəzifəsi yox idi, kişi indi böyük idarənin başçısıdır. Nadan olma, oğlum, vəzifə sahiblərinə hörmət etmək lazımdır.

## İKİ TƏRƏFLİ QAZANC

Redaktor:

- Bu yazınızda öz fikirləriniz on faiz də təşkil etmir, başqalarını təkrar edirsiniz...

Müəllif:

- Bunun heç bir ziyanı yoxdur. Əksinə, faydası var. Oxucu burada iki tərəfli qazanır: həm mənim, həm də özgələrinin fikri ilə tanış olr.

## YAXŞI VƏ PİS

- Köhnə müdiriniz yaxşı idi, yoxsa təzə?
- Əlbəttə köhnə, bu təzə yaman tələbkardır.

## HEYF ALMAQ

Ata evə gələn kimi oğlunu yanına çağırıb dedi:

- Bu gündən İrşadın oğlu ilə əlaqəni kəsərsən, daha onunla dostluq etməzsən, özünə başqa yoldaş taparsan!
- Nədən ötrü ata?
- Daha ötrüsü-mötrüsü yoxdur, bu gün papası hamını təriflədi, mənim heç adımı da çəkmədi.

## BAX, BU OLDU

Kadr şöbəsinin müdiri ərizələri bir-bir götürüb, ancaq ad və familiyaları nəzərdən keçirdi. Sonra katibədən soruşdu:

- Mahir Məmmədov kimlərdəndir?
- Şölə qarının nəvəsidir.
- Ondan naçalnik olmaz. Bəs, Bahadur Azəri?
- Onların nəsli buralı deyil.
- Bu daha pis. Adamların əcdadını tanımadan onlara məsul iş etibar etmək olmaz. Üçüncü, Əflatun Atakişiyev?

- O, Cənnətəli Şahquliyevin tayfasındandır.
- Bax bu oldu! Get əmrini yaz. Cənnətəli Şahquliyevin telefon nömrəsini də öyrənib mənə de.

## DƏDƏSİNDƏN

Şagird:

- İnsan nədən əmələ gəlib?

Müəllim:

- Dədəsindən.

## MAŞIN ALIRAM

- Kitabxananı niyə satırsan?
- Maşın alıram, pulum azlıq edir.
- Sənin maşının yoxdurmu?
- Var, amma rəngi arvadın xoşuna gəlmir.

## VAXT VAR Kİ

- Yoldaş rəis, nə üçün planı yerinə yetirməyibsiniz?
- Əşi, bir işdən baş açıb vaxt tapırıq ki, planın yerinə yetirilib-yetirilməməsi ilə də maraqlana bilək?

## QOY GEDİB BİZİ TAPSIN

- Vəzifəyə keçdikdən sonra sizi camaatın arasında görməmişəm.
- Biz xalqçı deyilik ki, camaatın yanına gedək. Əgər camaatın işi varsa, qoy gəlib bizi tapsın.

## HARADAN BİLƏYDİK Kİ

- Xəstəxananı niyə bu hala salıbsınız? Hər tərəf zir-zibildir, bu gün sizə nə olub?
- Yoldaş baş həkim, axı biz haradan biləydik ki, siz bazar günü yoxlama keçirəcəksiniz?

## ƏYİLMƏYİN

Müştəri:

- Dərzi qardaş, şalvarı çox dar tikibsiniz, aşağı əyilmək mümkün deyil.

Dərzi:

- Mümkün deyil, əyilməyin.

## MƏNƏ AİD DEYİL

Şagird:

- Cumalı müəllim, həmişə "ruçka, ruçka" deyirsiniz. Məgər bu sözü azərbaycanca demək olmaz?

Cumalı müəllim:

- Riyaziyyat müəlliminə bunun aidatı yoxdur, ədəbiyyat müəllimindən soruşun.

## UZUN PENCƏK

Modabaz oğlan təzə aldığı paltosunu əyninə geyib atasına göstərdi. Atası:

- Mübarək olsun, ay oğul, - dedi, - çox yaxşı pencəkdir. Amma uzundu, kaş bir az ködək olaydı.

## NATİQLİYİN SİRRİ

Xeyli vaxtdan bəri tribunada görünməyən bir natiqdən soruşurlar:

- Nədənsə çoxdan bəri dinib-danışmırsan?
- Məgər mən günahkaram? Adam ancaq üç-dörd yüz qram atandan sonra dilə gəlir. Nə edəsən, ona da imkan vermirlər, - deyib restorana doğru addımladı.

## ƏVƏZ

Küçədə qarşılaşan gənclərdən biri dedi:

- Nadir, yoldaşımız Sadiq xəstədir. İşdən sonra gəl gedək yanına.

Nadir:

- Dəyməz, - dedi, - deyirlər çox ağırdır, diriləsi deyil. Elə bir qohum-əqrəbası da yoxdur ki, yanına getdiyimizi bilib bir gün əvəzini qaytara.

## SİYASİ SƏHV

- Monoqrafiyanda siyasi səhvə yol vermisən.
- Hansı səhvə?
- Yazıçının kimin təsiri altında formalaşmasını göstərmiyibsən, həm də onu başqa xalqların heç bir məşhur yazıçısına bənzətməyibsən.
- Nə üçün öz üzərində çalışmırsan, başını zora salmırsan? – dedim.

O, şişman qarnını gıstərərək:

- Qarnımı zora salıb bu hala qoydum. Daha bəsdir. Deyirsən başımı da bu hala salım.

## BEŞİNCİ DƏFƏ

Yelpənəyov işçilərindən birini danlayaraq deyirdi:

- Bəs utanmırsan, həya etmirsən? Beşinci dəfədir ki, iş vaxtı səninlə restoranda rastlaşıram.

## ŞİFAHİ TƏHSİL

- İngilis dilində oxuyursan, xahiş edirəm ingilis həmkarıma bir məktub yaz.
- Biz şifahi oxuyuruq, yazı ilə işimiz yoxdur.

## YAXŞI SƏSLƏNMİR

- Kəndinizin əvvəlki adı nə idi?
- Güllücə.
- Bəs həmin adı niyə dəyişdirdiniz?
- Ona görə ki, "Güllücə" sözü avropalıların dilində yaxşı səslənmir.

## ƏSL OXUCU

Bir gün qonşum bizə gəlib dedi:

- Qardaş canı, özümdə və kolxoz kitabxanasında olan bütün kitabları oxuyub qurtarmışam. Xahiş edirəm sizin kitabxanadan bir-iki kitab verin, aparım oxuyum.
- Yaxşı, dedim, - onda Demyan Bednının, yaxud Yeseninin əsərlərini aparın.

Dostum:

- Yox, yox, mən hələlik rus yazıçılarının əsərlərini oxuyuram, - dedi. – Xahiş edirəm, rus yazıçılarının əsərlərindən verin.

## YAĞLILIQ NƏDİR?

Sədr kolxoza yeni gələn zootexnikə dedi:

- Sabah ciddi bir yoxlama keçir, südün yağlılığını yoxla.

Zootexnik:

- Yağlılıq nədir? – deyə məzlum-məzlum sədrin üzünə baxdı.

## MÜHAZİRƏ

- Hazır konspektin var?
- Nəyə dair?
- Nəyə dair olur-olsun.
- Neyləyirsən?
- Gənclər klubunda mühazirə oxumağa çağırıblar, axşam oraya getməliyəm.

## KƏSDİLƏR

- Bu il necə, instituta qəbul ola bildin?
- Xeyr, kəsdilər.
- Nədən?
- Ədəbiyyatdan.
- Görünür, yenə yaxşı hazırlaşmayıbsanmış.
- Yox , hamısını bilirdim.
- Hansı suallar düşmüşdü?
- Əbilhüseynin “Dünyalar qopur” hekayəti, bir də bilmirəm kiminsə “Gənclik qvardiyası”. “Ana dili”n-dən də zad – “Zamam və budaq cümləsi”.

## DAHA PİS

Şair:

- Dost, qaş-qabağını niyə sallayıbsan, yoxsa bəd bir hadisə üz verib?

Yazıçı:

- Daha pis, yenə rayona görüşə çağırıblar.

## TELEFONUM İŞLƏMİR

- Nə yaxşı bu gün kabinetinizdən bayıra çıxıbsınız?
- Əşi, nə edim? İki gündür telefonum işləmir, heç kəslə danışa bilmirəm. Axırda ürəyim darıxdı, içəridə dayana bilməyib bayıra çıxdım.

## YARDIM ETSƏLƏR

Şöbə müdiri:

- Cavan oğlan, işin öhdəsindən gələ biləcəksənmi?

Mühəndis-mexanik:

- Çətinə düşəndə mexanizatorlar yardım etsələr niyə gələ bilməyim?

## NEYLƏYİM

- Siz dərsi danışanda sinifdə hədsiz danışıq olur...
- Buna mən neyləyim? Dörd gözüm yoxdur ki, ikisi konspektə baxanda, ikisi də sinfə baxa.

## ƏNƏNƏVİ BAYRAM

- Evinizin üstündən asdığınız bayraq nə münasibətlədir? Bu gün hansı ənənəvi bayramdır?
- Pah atonnan, onu da bilmirsən? Huşsuzun biri, yadından çıxarıbsan ki, Səxavətov keçən ilin bu günü idarəmizə başçı keçib?!

## İDARƏ BAŞÇISI

- Nöş tələsmirsən axı, hər gün işə gecikirsən?
- Üzr istəməli olacaqsınız, mən sıravi işçi deyiləm, idarə başçısıyam.

## FƏRQ

- Arvadının paltarını sən niyə yuyursan?
- Bəs kim yusun? Bura kənd yeri deyil ki, belə işləri arvad görə?

## SONDA ÇIXIŞ

- Nədənsə çıxış etmək istədikdə, həmişə sənə sonda söz verilməsini xahiş edirsən?
- Onu da bilmirsən? Sonda çıxış edənlərə o qədər də diqqətlə qulaq asmırlar.

## ÜSTÜNDƏN KEÇİRLƏR

- Həmişə özgə dildə çıxış edirsən, bunun səbəbi nədir?
- Səbəbi odur ki, öz dilimizi yaxşı bilmirəm, savadsız olduğum dərhal aşkar olur. Başqa dildə səhv də danışsam üstündən keçirlər.

## MƏNSƏ

- Tay-tuşun hamısı ev-eşik, arvad-uşaq sahibidir. Sən niyə subaylığın daşını ətəyindən tökmürsən?
- Eh, elə bilirsiniz tökmək olur? Birini tapırsan əməlli ev-eşiyi yox, ikincisinin yuxarıda bir adamı. Üçüncüsünün də nə bilim diplomu...

## BELƏ YAXŞIDIR

- Yuxarıdan gələn yoldaşı heç göz açmağa qoymursan? Orada yemək-içmək, burada yemək-içmək…
- Belə yaxşıdır. Yoxsa işimizə də göz gəzdirə bilər.

## XALQ DİLİ

- Bu povestinin dilinə qətiyyən fikir verməyibsən, oxumaq olmur.
- Eyb etməz, çətinə düşsə, deyəcəyəm ki, xalq dilində yazmışam.

## DAHA ÇOX BİLMƏK ÜÇÜN

- Ay bala bəsdir gəzdiyin, kitabını götür, bir dərsinə də bax.
- Ana, sən də hər şeyi tərsinə edirsən. Deməyiblər ki, çox oxuyan çox bilməz, çox gəzən çox bilər. Sənsə, mənim çox bilməyimi istəmirsən.

## FƏRLİ ADAXLI

- Bu il qızını oxumağa göndərmək istəyirsənmi?

- Fərli bir adaxlı tapmasam bəs mən nə edim? Məcbur olub gərək göndərəm də.

## DAHA MƏŞHUR

- Uşağını niyə öz familyanla yazdırmayıbsan?
- Arvadımın familyası daha məşhurdur.

## QONŞUMUZ DA ALIBDIR

- Televizorumu satıram, əgər alan olsa, de ki, yarı qiymətə verərəm.
- Xarab olub?
- Xeyr, təp-təzədir.
- Onda niyə satırsan?
- Artıq ondan qonşumuz da alıbdır.

## SƏBƏB

- Sazdan mənim heç xoşum gəlmir.
- Niyə?
- Nə qədər çalışıramsa, onda bir şey çala bilmirəm.

## MƏN KİMDƏN ƏSKİYƏM

- Sənin ki, dişlərin sağ-salamatdır, daha qızıl saldırmaq nə üçündür?
- Niyə, mən yoldaşlarımın hansından əskiyəm?

## MƏNƏ YEMƏK

- Ana, acından ölürəm, mənə yemək!

- Oğul, toydan gəlmirsənmi, bəs orada yemək yox idi?
- Nə olsun vardı, o qədər adamın gözü qarşısında özümü görməmiş kimi göstərəydim?

## HƏLƏLİK MÜZAKİRƏ EDİLMƏMİŞDİR

- İsitmə sisteminin açıq yerlərini niyə örtmürsünüz, qış qapını döyür axı?
- Biz neyləyə bilərik, qışlamanın mütəşəkkil keçirilməsi hələlik müzakirə edilməmişdir.

## ÖZÜNƏ İZAH EDİN

- Alo, alo, yanğınsöndürən dəstədir?!... Qonşunun evi yanıb qurtarır..., sizdən gəlib çıxan olmadı, təcili gəlin, alov yaxındakı yanacaq bazasına çatır...
- Vətəndaş, mən köməkçiyəm, məsul növbətçi çay içməyə çıxıb, on-on beş dəqiqədən sonra zəng edib, təfsilatı ilə özünə izah edin...

# ... İKİ SÖZLÜ[1]

Onun əsl adı Paşadır. Lakin hamı Paşka deyə çağırır. Paşaya son vaxtlar Paşik də deyənlər var. Nə isə, ad onun öz işidir. Paşa elə adamdır ki, yeri gələndə adını tamam dana da bilir. Odur ki, mən onun adı haqqında yox, başqa bir söhbət etmək istəyirəm.

Kolxozumuzda hesabat-seçki yığıncağı keçiriləcəkdi. Yığıncaq ərəfəsində Paşa çox narahat idi. O, başqalarının danışıqlarına diqqətlə qulaq asır, xəlvəti bir guşəyə çəkilir, kostyumun sağ və sol ciblərində yerləşdirdiyi şagird dəftərlərini çıxarır, qeydlər edirdi. O, həmişə üzərinə əski əlifba ilə "mədhiyyə" yazdığı dəftəri açdıqda, irişərək dişlərini ağardır, müti bir görkəm alır, qələmi qorxa-qorxa vərəqlərin üzərində gəzdirirdi. Üzərinə yenə də əski əlifba ilə "ittihamnamə" yazılmış dəftəri açdıqda isə çiyinlərini çəkir, ciddiləşir, üz-gözünü turşudur, hirslə yazıb-pozurdu.

Yığıncaqda adamlar söz alıb danışırdılar. Növbə Paşaya çatdı. Tez xitabət kürsüsünə qalxdı. əvvəlcə sədrə baxıb hırıldadı, sonra oxumağa başladı:

- Fövqəladə istedad və təşkilatçılıq qabiliyyətinə malik olan hörmətli və mərhəmətli sədrimizin uzaqgö-

---

[1] Bu əsərin adı ilk kitabında "İkiüzlü, ikisözlü" kimi getmişdir

rənliyi, tükənmək bilməyən qüdrət və Qüdrətin sayəsində biz, xəyala gəlməyən parlaq nailiyyətlər əldə etmişik. İrəliyə doğru müdrikcəsinə baxmaqda onun şahin gözləri heç vaxt yanılmamış, yanılmır və inşallah yanılmaz da...

Rayon mərkəzindən gələn nümayəndə onun sözlərini kəsərək:

- Yoldaş Paşa, - dedi, - unutmayın ki, yazıçı demişkən, adama layiq olmayan tərifi demək onu təhqir etməkdir. Necə olmuşdur ki, sədrin şahin gözləri onun qoltuğu altına soxulub kolxoz əmlakını dağıdanları görə bilməmişdir? Kolxoz inkişaf etmək əvəzinə xeyli zəifləmişdir. Nədir məqsədiniz? Yoxsa…

Paşa diksindi. İlan vuran kimi qıvrılıb açıldı. Əlindəki dəftər sürüşüb yerə düşdü. O, ikinci dəftəri çıxartdı. Üz-gözünü turşudub hirslə oxumağa başladı:

- Təsadüfən rəhbərlik siyahısına adı düşmüş, yaltaq və ikiüzlü sədrin yaramaz işləri bizim qədirbilən camaata baha başa gəlmişdir. O, nəinki işdən götürülüb, partiyadan kənar edilməli, mütləq ən ağır cəzaya məhkum edilməlidir.

Paşa dayandı. Gözlərini döyərək düşündü. Görünür, təzə sədrin kim olacağını təxmin edə bilmədi. Birdən əlini sıxıb dedi:

- Yeni seçiləcək möhtərəm sədrimiz bizə dəyən ağır yaraları sağaltmaq üçün, heç şübhəsiz, hər şeyi edəcəkdir. Çünki onun həm yüksək savad və mədəniyyəti, həm də müstəsna rəhbərlik metodları vardır.

Paşa yenə susdu. Özünü tamamilə fərəhli göstərməyə çalışdı. O, adəti üzrə yeni seçiləcək sədrin şərəfinə şüar demək istədikdə, yerdən səs-küy qalxdı. Paşanı daha danışmağa qoymadılar...

*Kəsəmən, 1957*

## FACİƏ

*Kaş sən sağ olaydın, Çexov!*

Mən onunla xəstəxanada tanış oldum. Yatdığımız palataya məndən üç gün sonra gətirilmişdi. Üz-gözü sıyrılmışdı. İki gün özünə gəlmədi. Üçüncü gün dili açıldı. Şiddətli qızdırma içərisində bərk sayıqlamağa başladı. Dediklərindən ancaq bircə ifadə anlaşılırdı: “Yoldaş Şərəfov”.

Xəstənin vəziyyəti yaxşılaşdıqca sayıqlamaları da anlaşılırdı:

- Mən qanmadım, məni əfv edin, yoldaş Şərəfov.

O, “Yoldaş Şərəfov” ifadəsini hər an, hər dəqiqə təkrar edir, gah şıltaq uşaq kimi gülümsəyir, gah da sadəlövhcəsinə irişir, gah da üz-gözünü vahiməli bir

hala salırdı. Düzü, mən təəccüb edirdim. Axı, bu Şərəfov kimdir ki, xəstə ölüm ayağında belə onun adını unuda bilmir? Həm də yoldaş sözünü ondan ayırmır: Yoldaş Şərəfov!

Yeddinci gün xəstə sərbəst qaydada danışmağa başladı. Ah, ölümün qorxunc pəncəsindən çətinliklə xilas olmuş bu adam, "Yoldaş Şərəfov" kəlməsini nə qədər də məlahətlə ifadə etməyə çalışırdı! Mən yuxu görürdüm? Yox, o məşq edən bir aktyor deyildi, qonşu kolxozun sədr müavini Mehmanzadə idi.

Mehmanzadə başına gələn qəzanı təfsilatı ilə mənə söylədi. Sən demə, kolxoz sədri Şərifov işləyib sıradan çıxmış, əzik, köhnə "ZİM"ini satıb yeni maşın almaq üçün şəhərə gedir. Çərəfov bir neçə gündən sonra zəng edib müavini Mehmanzadəyə təzə maşın aldığını və sabah axşam saat 5-də kəndə çatacağını deyir...

Mehmanzadə dərindən bir ah çəkdi:

- Vəd edilən gün idi. Saat dördə işləyirdi. Mənim rəhbərliyim altında ciddi hazırlıq görülürdü. Kəndin sərhəddindən sədrin evinə qədər bütün yolu daş-kəsəkdən təmizlətmişdim. Sədrin darvazasından maşın qarajına qədər olan 36 metr məsafəyə döşətmək üçün xalı-xalça toplatmışdım.

Gözlənilmədən uzaqdan gün kimi parıldayan bir maşın göründü. Elə bil məni ildırım vurdu. Axı, xalılar

yola döşənməmişdi. Tez əmr verdim. Xalı döşəyənlər işə başladılar. Maşın yaxınlaşır, iş qurtarırdı. Yaxşı demişlər ki, sən saydığını say, gör fələk nə sayır. Dəqiq hesablanılmadığından qaraja bir metr qalmış xalı çatmadı.

Nə etməli? Çox gec idi. Maşın darvazaya yaxınlaşırdı. Tez kostyumumu çıxarıb yerə sərdim. Yenə də bir tərəf açıq qaldı. Maşın siqnal verdi. Darvazadan içəri daxil oldu. Aman Allah, nə edim? Köynəyimi çıxarmaq üçün kənara çəkildim. Elə bu an maşın qaraja toxtadı. Nə edəcəyimi bilmədim. Maşına belə diqqətlə baxmadım...

Axşamkı böyük ziyafətdə məni deyil, hesabdar Qulamı seçdilər. Bunu nə demək olduğu aydın idi. Deməli, Şərəfov yoldaş məndən incimişdi.

Dostlar yeyib-içir, kef edirdilər. Mənim isə boğazım qurumuşdu. Bir qismət çörək kəsməyə belə taqətim qalmamışdı. Gözlərimi bir nöqtəyə zilləyib düşünür, heç olmasa maşına yaxşı tərif deməklə sədrin ürəyini yumşaltmaq üçün beynimdə əlvan cümlələr düzəltməyə cəhd edirdim. Düşündüklərimi tarixi bir sənəd kimi sonra sədrin ev-muzeyinə təqdim etmək məqsədilə kağız-qələm götürüb yazmağa başladım.

Mehmanzadə balıncın altından ipək dəsmala bükülmüş bir kağız çıxartdı, əvvəlcə öpüb gözünün üstünə qoydu, sonra ahəstə-ahəstə oxudu:

“Əlvida, ey əzik “ZİM”, mərhaba, ey müqəddəs “Volqa”! Bəli, dostlar, bu gün kəndimiz bir bayram içərisindədir.Hörmətli Şərəfov yoldaş bundan sonra “ZİM”də deyil, qu kimi yumşaq “Volqa”da gəzəcək. Bəli, “Volqa”da! Bu qapılar hər açılıb örtüldükcə başımıza ucalıq, idarəmizə qüvvət, qəlbimizə hərarət gələcəkdir. Bu qapılar gah geniş zəmilərdə, gah kolxoz fermalarında, gah da Şərəfov yoldaşın bilavasitə özünü təmsil edən möhtəşəm mədəniyyət sarayının qarşısında açılacaqdır. Oradan yerə enən yenilməz ayaqlar, mübarək qədəmlər torpağa bərəkət, gözlərə işıq verəcəkdir. Öpürəm o nəcib qapıları. Qoy o qapılar mütəmadiyyən açılıb örtülsün! Mən, bu badəmi qaldırıram kəndimizin sahibi, adı-sanı dillərdə dastan olan, kişiliyin adına yeni səhifələr yazan Şərəfov yoldaşın rahatlığını təmin edəcək fil gövdəli, raket sürətli nəhəng “Volqa”nın sağlığına! Qoy onun təkərləri bizim səadətimiz naminə daim işləsin! Qoy...

Mehmanzadə dayandı. Qol-qanadı sınmış kimi büzüşdü.

- Bəlalı başım qardaşıma söyləsin, - deyib davam etdi. – Zalım oğlu Qulam fikrimi tamamlamağa, yazdıq-

larımı dönə-dönə oxuyub əzbərləməyə imkan vermədi. Məni tələsdirdi. Özümü itirdim. Karıxdım. Dilim öyrənmədiyindən ilk cümlədə “Volqa” əvəzinə də “ZİM” dedim: “Əlvida ey əzik “ZİM”, mərhaba ey müqəddəs “ZİM”!...

Sədrin mənə zillənən gəc baxışlarından üz alan yaltaqlar pıqqıldaşdılar, mənim kimi kişinin sözünü kəsdilər. Özümü ələ almağa çalışdım. Aman Allah! Bir də karıxdım. Gör bir nə dedim:

“Qoy o qapılar mütəmadiyyən açılıb örtülməsin!”.

Söz ağzımdan çıxar-çıxmaz elə bil hər tərəfdən üzərimə od yağdırdılar. Fikrim qarışdı, qulaqlarım cingildədi. Dumanlanan beynimə sanki bu sözlər həkk etdilər:

- Bəs deyil Şərəfov yoldaşın qanını qaraltdığın!

- Şərəfov yoldaşın zəhləsini aparan “ZİM”-dir, nədir, onu yada saldığın bəs deyil?

- İndi o səni öz ziyafətindən qovsunmu?!

- Dur burdan çıx, sərxoşun biri!

Sonrası nə olduğunu bilmədim. Huşumu itirdiyimi, əmim oğlunun məni evə maşınla götürdüyünü özümə gələndən sonra öyrəndim...

Yataqdan qalxmağa taqətim yox idi. Elə bil yüz ilin xəstəsi idim. Qəlbimdən qara qanlar axırdı. “Axı, mən o xalı-xalçanı niyə yüz dəfə ölçüb-biçmirdim? Niyə bir-

iki xalı da artıq gətirmirdim? Mənim ki, evim xalı anbarıdır", - deyə xalılarımı yandırmaq üçün ayağa qalxmağa çalışdım. Birdən açıq pəncərədən otağıma dolan gur siqnal səsi məni çarpayıdan götürüb döşəməyə çırpdı. Divanə kimi bayıra atıldım. Evimizin yaxınlığından keçən yola tərəf yüyürdüm.

Məni xəstə eləyən "Volqa" sürətlə irəliləyirdi. Mənim ağılsızlığım ucundan "Volqa"nın yerə dəyən təkərlərini, tərifin verə bilmədiyim o doğma qapıları öpmək üçün maşının qabağını kəsmək, "Volqa"nın şəxsən özündən və ulu sahibindən rəhm diləmək istədim. Maşın səsləndi. Dayanmaq istəmədi. Ey, vay!... Faciə! Demək, Şərəfov yoldaş məndən tamamilə üz döndərmişdi...

Ayaqlarım əsdi, başım hərləndi, gözlərim alacalandı, özümü böyrümdən ötüb keçmək istəyən rəhmsiz "Volqa"nın ayaqları altına atdım...

*Kəsəmən, 1958*

# ÖZÜ YIXILAN AĞLAMAZ

*(Olmuş əhvalat)*

“Nahaq ah-uf eləyirəm. Başqalarını qınayıram. Necə deyərlər, “özüm-özümə elədim, külü də gözümə”. Elə məni bu yatağa öz nəfsim, tamahım salmadı? Burada kimin təqsiri var ki, özümlə bacara bilmədim. Sadəcə olaraq nəfs əqlimə, iradəmə, mənliyimə qalib gəldi. Yavaş-yavaç coşub həddimi aşdım. Deyən gərək idi ki, ay ağılsız, bu qədər boş təmtəraq nəyinə lazımdır, yığıb-yığışdırıb o dünyaya aparacaqdın? Əlimdə gül kimi sənətim vardı. Küyə düşdüm, müəllim-tərbiyəçi olduğumu unutdum. Dünya malından bərk-bərk tutdum.

Eh... Özü yıxılan ağlamaz. Qoy bircə bu xəstəxanadan çıxım. Hər şeyi olduğu kimi etiraf edəcəyəm. Qoy kimin nə sözü var, desin, payımı versin. Bəlkə, mənim işdəklərim başqalarınasa ibrət ola...”.

O, çarpayıdan qalxıb, səndələyə-səndələyə qapıya yaxınlaşdı. Tibb bacısını səslədi. Kağız-qələm istədi. Verdilər. Alan kimi də kiçik masanın arxasında əyləşdi. Ürəyindəkiləri ağ vərəqlərin üstünə tökdü.

“...İnstitutu qurtaranda təyinatımı dağ rayonlarından birinə verdilər. Tərəddüd etdim. Kənddə-kəsəkdə bərkə-boşa düşməkdən qorxdum. Min cür bəhanəyə əl atıb, şəhərdə qaldım. Neçə il oxuyub öyrəndiyim müəllimlik

bir tərəfdə qaldı, xalamın qaynı İltizamın köməyi ilə zavodda iqtisadçı vəzifəsinə düzəldim. Düz 6 ay ağır yük olub, kollektivin boynundan asıldım. Havayıca əmək haqqı aldım. Nəhayət, bekarçılıq məni bezdirib əldən saldı. Əvvəlcə işə gecikməyə başladım, sonra günlərlə zavodda görünmədim. Məsələmi müzakirə etdilər. Xeyri olmadı.

İkinci dəfə məni "meydana" çəkdilər. İşdən çıxarılmağıma qərar verdilər. Əlindən bircə o gəldi ki, məni "öz ərizəmə görə" işdən azad etdi. Özümə də müsbət xasiyyətnamə verdi... Daş yağaydı o günə. Elə bildim ki, həmişə belə olacaq. Nə eləyirsən elə, necə işləyirsən işlə, fərqi yoxdur. Dar ayaqda bir ərizə yazdırıb, əlində də daşdan keçən xasiyyətnamə verəcəklər.

Xülasə, beş ay boş-bekar gəzdim. Yenə İltizam kömək əli uzatdı. Arvadının Maarif Nazirliyində işləyən uzaq bir qohumu vasitəsilə məni şəhərdəki məktəblərdən birinə müəllim göndərdi. Sevindim. Vicdanla işə girişdim. Müəllimlik borcumu ləyaqətlə yerinə yetirməyə səy göstərdim.

Köhnə il başa çatdı. Uşaqlardan bir neçəsi gözləmədiyim halda yeni il münasibəti ilə mənə hədiyyə gətirdi. Götürmək istəmədim. 8 Mart gəlib çatdı. Hədiyyələrin sayı artdı. Mən də öz növbəmdə uşaqlara təşəkkürümü bildirdim. Onlar hər bayramda hədiyyə gətirməyə həvəs göstərdilər, mən də almağa. Hətta May bayramında hədiyyələri və onları verilən xüsusi siyahıya aldım.

Biri ilin gəlişi münasibəti ilə aldığım hədiyyələri bir-bir açıb ucadan elan etdim. Həm də yeri gəldikdə, yaxşı hədiyyə gətirənləri ağızdolusu təriflədim. Yadımdadır, onda mənə avtomat qələm gətirmiş Fəridə bərk pərt oldu. Dərsdən sonra qabağımı kəsib, utana-utana:

- Müəllimə, - dedi, - mümkünsə o qələmi özümə qaytarın, sabah mən də yaxşı şey gətirərəm...

Gətirdi: bir cüt əla corab. Üstündə də bahalı ətir. Amma sonradan öyrəndim ki, qız corabları ata-anasından xəlvət gətiribmiş. Üstünü vurmadım.

Müəllimliyimin üçüncü ili mənim üçün üçqat fərəhli keçdi. Ərimi böyütdülər, məsul işə keçdi. Mənzil aldıq və ilk uşağımız dünyaya gəldi.

Əslinə qalsa, aldığımız əmək haqqı bizi əməlli-başlı görürdü, hətta hər ay kurort, mebel üçün filan qədər də kənara qoyurduq. Amma nədənsə, istəyirdim ki, evimizdə hər şeyimiz olsun, həm də əlası. Özü də hamısı birdən. Yaxşı deyiblər ki, "qonşu qonşuya baxar, özünü oda yaxar". Fikirləşirdim ki, kimdən əskiyik, niyə onun-bunun evində olanlardan bizdə də olmasın?

...Evimizdə artıq şey-şüyə yer olmadığından, növbəti 8 Mart bayramı yaxınlaşanda uşaqlara dedim:

- Bilirsinizmi nə var, uşaqlar? Bundan sonra bir daha hədiyyə almayın...

- Niyə müəllimə? – deyib, uşaqlar bir ağızdan təəccüblə soruşdular.

- Niyəsi odur ki, hər bayram gələndə dərsinizi-istirahətinizi qoyub, düşürsünüz şəhərin canına, o mağaza mənim, bu mağaza sənin, hədiyyə axtarırsınız.

Qorxuram küçədə tramvay, maşın vura sizi. Yaxşı olar ki, elə aranızda siyahı tutun, kimin neçəyə gücü çatarsa, yığın verin, özüm xoşuma gələn bir şey alaram.

Uşaqlar razı qaldılar. Əvvəlcə üç də verən olurdu, beş də. Amma sonrakı uşaqlar bir-birinin bəhsinə "məzənnəni" lap on manata qaldırdılar. Hətta bir dəfə müfəttiş Xalıqverdinin oğlu 13 manat gətirdi. Mən də borclu qalmadım, əvəzini çıxdım. Əlaçı Əntiqənin əvəzinə onu sinif nümayəndəsi seçdim.

İş o yerə çatmışdı ki, heç özüm də hiss etmədən "simic" valideynlərin uşaqlarını dərsi bildi-bilmədi gözümçıxdıya salırdım. Bir dəfə Nazəninin anası Nənəxanım məktəbə gəldi.

- Müəllimə, - dedi, - məni bağışla, yanında üzü qarayam. Bilirəm ki, Nazənin bayramda-zadda o biri uşaqlarla ayaqlaşa bilmir. Üç uşağımız məktəbə, biri də bağçaya gedir. Mən işləmirəm, ərim də cəmi yüzcə manat maaş alır. Müəllim, ağrın alım, Nazənini incitməyin, kasıbçılığın üzü qara olsun...

Gecəni yata bilmədim. Bir neçə dəfə yuxumu qarışdırdım. Əcayib şeylər gördüm. Gördüm ki, məni müttəhim kürsüsündə əyləşdirib, mühakimə edirlər. Nənəxanım arvad da şahidlik eləyir:

- Beləsindən müəllim olmaz, - deyir, bunda insaf, vicdan, ləyaqət, qadın isməti yoxdur. Var-dövləti başından aşdığı halda, dilənçi kimi uşaqlara əl açır. Soyğunçuluq eləyir. Görün, iş o yerə çatıb ki, naəlac qalıb, xəstə qaynanamın dərman pulunu hədiyyə üçün buna – bu "mədəni" dilənçiyə göndərmişəm.

Arvad birdən qeyzlənib üstümə yeridi: damarları çıxmış arıq əlləri ilə boğazımdan yapışdı, qışqırdım...

Səksənib qalxdım, dəhşətdən bədənim uçundu. Lap o dünyaya gedib-gəldim.

Özümə söz verdim ki, bir daha belə qəbahətə yol verməyim. Ancaq piano almaq həvəsi təzədən işləri korladı, yuxu da yaddan çıxdı, Nənəxanım da. Şagirdim Əflatundan çoxdan xahiş etmişdim ki, atası bizə yaxşı bir piano düzəltsin. O da xəbər gətirdi ki, piano hazırdır. Uşaqlara sakit olmağı tapşırıb, evə qaçdım. Ora-buranı töküşdürdüm. Beşcə yüz manat pul qalmışdı. Axı olub-qalanımızı ötən yayda maşına vermişdik. Neyləməli? Əgər ərimə xəbər versəm, borc götürəcək, sonra sahiblərinə qaytarmaq lazım idi. Çox götür qoy etdim. Yenə əlac uşaqlara qalırdı. Sinfə qayıtdım.

- Uşaqlar, - dedim – yeni ilin başlanmasına cəmi bir həftə qalır. Olmazmı ki, onun hesabını elə indidən verərsiniz. Mənə bərk lazımdır. Piano alıram, pulum azlıq edir.

Razılaşdıq. Özüm siyahı yazdım, uşaqları tez evlərinə qaçırtdım. Kimin neçəyə gücü çatdısa, gətirdi.

Sinifdən çıxıb, qan-tər içində evə qaçdım. Tələsdiyimdən içəri girməyimlə, sürüşüb döşəməyə yıxılmağım bir oldu. Huşumu itirdim. Gözümü açanda özümü xəstəxanada gördüm. Həkim başımın üstünü kəsdirmişdi.

Dedilər ki, yıxılanda başım servanta dəyib partlayıb. Beynimə xətər toxunub".

Mülayim müəllimə öz tərcümeyi-halının ləkəli hissəsini niyə kağıza köçürtdü? İnzibati orqanlara təqdim etmək üçünmü? Kim bilir, bəlkə də...

O, qələmi kağızın üstünə qoyub, ürəyində öz-özünü danlamağa başladı:

"Mənə hələ bu da azdır. Axı, məni əyri yola düşməyə məcbur edən nə idi? Çala bilmədiyimiz, halda, nəyə lazım idi piano? Evimiz - eşiyimiz, bağımız, maşınımız, hara tələsirdim? Ölümə? Yox, mənə rəhm edilməməlidir, niyə də edilsin?! Ehtiyac ucundan etsəydim, heç olmasa dərd yarı idi. Bəlkə…Bəs mən niyə bu yola düşdüm? Mən ki, dünyaya əliəyri gəlməmişəm. Mən niyə təyinat aldığım yerə getmədim? Əslinə qalsa, məni "öz ərizəmlə" işdən çıxaran, üstəlik əlimə daşdan keçən xasiyyətnamə verən

zavod direktoru, qohumum İltizam bu günə qoyub. Görüm onları lənətə gəlsin! Bu da vasitəçiliyin, qəy-yuçuluğun axırı... Yaxşı deyiblər ki, özü yıxılan ağlamaz...”.

# NƏ TÖKƏRSƏN AŞINA

O, müəllimlər otağına çox əsəbi halda daxil oldu. Salam-kalam etməyi də unutdu.

- Səkkizinci "A" sinfinin riyaziyyat müəllimi lazımdır mənə, - dedi. – haradadır o?

Gənc müəllim nəzakətlə dilləndi:

- Əvvəla, məktəbimizə xoş gəlmisiniz. İkincisi, xahiş edirəm buyrun, əyləşin. Tənəffüsə az qalır, indi çıxarlar.

- Nə tənəffüs? Tənəffüs iş olan yerdə olar. Siz nə haqla tənəffüs edirsiniz?! İş görməyə-görməyə, dərs keçməyə-keçməyə.

Müəllim təmkinini pozmadan:

- Xahiş edirəm, - dedi, - mümkünsə, bir azca sakit danışın, siniflərdə eşidilir.

- Sakit danışmaq olmur?! Kor qoymusunuz balamı, bədbəxt eləmisiniz onu.

- Üzr istəyirəm, birinci dəfə görüşdüyümüzdən sizi tanımıram. Kimdir uşağınız?

- Sərvət Alıcanov. Səkkizinci "A"-da oxuyur.

- Deməli, siz Sərvətin valideynisiniz? Çox əcəb! mən də özümü təqdim edim. Məktəbin dərs hissə müdiriyəm. Direktorumuz uzun müddətli məzuniyyətə

çıxdığı üçün, həm də onu əvəz edirəm. İndi buyurun görüm, narazılığınıza səbəb nədir?

- Uşaq heç nə bilmir. Kor qalıb.Tamam kor.

- Bütün fənnlərdənmi?

- O birilərini bilmirəm. Məni narahat edən riyaziyyatdır. Özüm də riyaziyyatçıyam.

- Bağışlayın, siz hansı məktəbdə işləyirsiniz?

- Məktəbdə yox, institutda işləyirəm. Kandidatam, dosentəm, eşitmiş olarsınız: Qənimət Alıcanov.

- Eşitmişəm. Üç-dörd il bundan əvvəl qonşumuzun oğlu instituta girəndə dedilər ki, köməyiniz dəyib.

- Hə də. Ona-buna baş qoşub, öz balamı yaddan çıxarmışam. Uşaq üç ildir riyaziyyat keçir, necə deyərlər, qandığı qrafa yoxdur. Mən bədbəxt də arxayın olmuşam ki, məktəb var da, öyrədərlər. Sən demə, heç nə başa salmayırlarmış. Bəla orasıdır ki, uşaq deyir müəllimin özü məsələ-misalın çoxunu həll eləyə bilmir.

- Qənimət müəllim, mən riyaziyyat müəllimi haqqında danışmaq istəmirdim. Sizə bir institut müəllimi kimi deməyə məcburam. Uşaq düz deyir. Həmin müəllim həqiqətən çox zəifdir. Yuxarı siniflərdə dərs deyən riyaziyyat müəllimi olmasaydı, yəqin ki, çox pis vəziyyətə düşərdik. Sağ olsun onu, böyük köməklik göstərir, qabaqcadan məsələlərin, misalların çoxunu həll edib, ona başa salır.

- Yoldaş dərs hissə müdiri, bəs belə savadsızı niyə saxlayırsınız, qovmursunuz məktəbdən?

- Hansı birini qovaq. Belələri indi bir deyil iki deyil. Son illər ali məktəblərimiz neçə belə savadsıza diplom verir ki, get, uşaqlarımıza elm öyrət. Belə olmaz axı. Birinin dolanması, daha doğrusu, başını girələməsi üçün hər il neçə-neçə uşağın şikəst olmasına necə dözmək olar?

- Yox, yox, dözmək olmaz. Mən dözən də deyiləm. Od vuracağam beləsini ali məktəbə götürənə, ona dərs deyənə, diplom verənə... Balamı kor qoyubdur bu nadan. Vacib deyil ki, hamı ala-yarımçıq ali təhsil alsın. Yaxşı bir sənətkar olmaq, yarımçıq müəllim olmaqdan üstün deyilmi? Axı...

Zəngin səsi və sinif otaqlarından çıxan müəllimlərin içəri daxil olması Qənimət müəllimin danışığını kəsdi. Müəllimlər bir-bir salam verib əyləşdilər. Hamıdan gənc oğlan isə gözünə inanmırmış kimi, təəccüblə Qənimət müəllimi bir daha süzdü.

- Qənimət müəllim, siz hara, bura hara, - deyib, - hər iki əlini irəli uzatdı.

Deyəsən, Qənimət onu tanıya bilmədi.

- Görünür, huşsuzlaşmışam, - dedi. – Siz kimsiniz?

- Bıy, müəllim, tanımadınız? Sədəqəyəm də.

Qənimət müəllim gözlərini qıyıb, xeyli düşündü. Xatırlaya bilmədi.

Sədəqə ağzını onun qulağına yaxınlaşdırıb pıçıldadı:

- Səxavət Çinarovun bacısı oğlu... Qəbul imtahanlarında...

Qənimət müəllimi getdikcə tər basırdı. O, boğula-boğula soruşdu:

- Sənsən səkkizinci "A" sinfində riyaziyyatdan dərs deyən?

- Bəli, mənəm...

- Mən sənə dərs demişəm?

- Əlbəttə, müəllim! Nə tez yadınızdan çıxdım?!

Qənimət səndələdi:

- Əlim-qolum sınaydı, - dedi, - sənin kimi nadana əl tutan yerdə... Haqq eləyirsən mənim kimisinə. Atalar yaxşı deyib: nə tökərsən aşına...

# Biblioqrafiya

## Kitabları:

**1. Qəşəm Aslanov. Saymazovun salamı** (Miniatür və hekayələr), redaktoru İsmayıl İsmayılov // "Hayastan", Yerevan, 1968, 104 səh. 7000 nüsxə. Qiyməti. 8 q.

Mündəricat: Miniatürlər (176 kiçik miniatür), Ikiüzlü, iki sözlü, Faciə, Vicdanın hökmü, Rəna.

**2. Qəşəm Aslanov. Məğlub ölüm** (povest, hekayə, miniatür və məqalələr) //Tərtib edəni Qeyrət Qəşəmoğlu, redaktoru və öz sözün müəllifi Almaz Ülvi // Bakı, "Azərbaycan" nəşriyyatı, 1997, 168 səh. 1000 nüsxə. Pulsuz.

*Mündəricat: Ömürdən səhifələr, Povest və hekayələr:* Unuda bilmədiyim gün (povest),Vicdanımın hokmü, Rəna, Əgər layiqəmsə, Oğul istəyirəm, *Qeyrət haqqinda hekayələr, Eloğlunun dediklərindən:* Məqamında deyilən söz, Şəhər yenilikləri, *Məqalələr:* Azərbaycanın zümrüd qaşı, Torpaq deyir, Bu günün publisistikası, Adət və ənənələrimiz haqqinda, Təzadlar ölkəsində, Yaradıcı gənclərimizə nə arzulayiram? *Miniatürlər, satiralar:* (165 miniatür), Iki sözlü, Faciə, Özü yıxılan ağlamaz, Nə tökərsən aşına

**2. Qəşəm Aslanov. Məğlub ölüm** (povest, hekayə, miniatür və məqalələr) //Tərtib edəni Qeyrət Qəşəmoğlu, redaktoru və öz sözün müəllifi Almaz Ülvi // Bakı, "Azərbaycan" nəşriyyatı, 1997, 168 səh. 1000 nüsxə. Pulsuz.

**3.Qəşəm Aslan.** Seçilmiş əsərləri (povest, hekayə, miniatür və məqalələr).Redaktoru və ön söz filologiya elmləri doktoru Almaz Ülvinindir // Baki, "Nurlan", 2013. 252 səh.

### A. Ülvinin Qəşəm Aslan haqqında çap etdirdiyi məqalələri

1. Almaz ÜLVİ. Müharibə ağrılarım. Sənədli publisistik düşüncələr, ədəbi qeydlər - Bakı, Nurlan, 2005, 546 səh. (Qəşəm Aslan haqqında səh.301-320)

2. Almaz ÜLVİ. Göyçə mahalı - Kəsəmən: bir kəndin tarixindən səhifələr (elmi – tarixi qeydlər, portretlər, publisistik düşüncələr, şəcərələr). I kitab //Bakı, CBS, 2012, 592 səh. (Qəşəm Aslan haqqında səh.34-36; 324-338; 422-429)
3. Almaz ÜLVİ. Həyat məktəbim, qeyrət simvolum // "Məğlub ölüm" kitabına ön söz. Baki, 1997, s.3-7
4. Almaz ÜLVİ. Göylər təki sevgili // *"Ədəbiyyat qəzeti", 6 noyabr 1993-cü il*
5. Almaz ÜLVİ. Onu xatırlayanda çöhrələrə təbəssüm qonur // "Xalq qəzeti"**,** 8 aprel 2004-cü il
6. Almaz ÜLVİ. Bu torpağın hər qarışı mənim Kəbəmdir // *"Yeni Azərbaycan", 1997-ci il*
7. Almaz ÜLVİ. Azərbaycanına pərvanə vurğunluğu ilə yanan oğul // *"Yeni Azərbaycan", 1997-ci il*

## KİTABIN İÇİNDƏKİLƏR

**Ön söz əvəzi: Qəşəm Aslan -** *fitrətən fazil şəxsiyyət, gözəl publisist, düşündürən yazıçı (Prof.Dr.Almaz Ülvi)*................3
**Ömürdən səhifələr**..........................................................................**18**
**Povest və hekayələr** ......................................................................**29**
Unuda bilmədiyim gün (povest) ............................................30
Vicdanımın hökmü ...........................................................................94
Rəna ..................................................................................................103
Əgər layiqəmsə... ............................................................................109
Oğul istəyirəm.................................................................................112
**Qeyrət haqqında hekayələr**...............................................**117**
İşçi ari kimi .......................................................................................118
Dədə...................................................................................................118
Cəza ...................................................................................................119
Yumurta əhvalatı ............................................................................120
Qeyrət dağa getmədi.......................................................................121
Köynək ...............................................................................................123
Sonra yeyərəm ..................................................................................124
Məşqçi Qeyrət...................................................................................134
Məktub ...............................................................................................125
**Eloğlunun dediklərindən**..................................................**127**
Məqamında deyilən söz ....................................................................128
Şəhər yenilikləri..................................................................................138
**Məqalələr** ...........................................................................**141**
Azərbaycanın zümrüd qaşı.................................................................142
Torpaq deyir........................................................................................151
Bu günün publisistikası .....................................................................154
Adət və ənənələrimiz haqqında ........................................................157
Təzadlar ölkəsində..............................................................................161
Yaradıcı gənclərimizə nə arzulayıram? ...........................................168
**Miniatürlər, satiralar** ......................................................**171**
Qorxuram ...........................................................................................172

Arzu ....172
Bilirik ....172
Dost ....173
Müdir kimi....173
Tərbiyəçi....173
Inkişaf yolu....174
Abunəçi ....174
Hansi arvadım....174
Hələ keçməmişik ....174
Növbəli iş ....175
Keyfiyyət əlaməti ....175
Adam tapıb yazdıraram ....175
Qayğikeş müdir ....176
Razılıq ....176
Müntəzəm mütailə....176
Məndən böyük....177
Qonağiniz gəlib ....177
Ezamiyyət....177
Hesabdarın arvadı....178
Müdirin zövqü ....178
Vəzn nədir?....178
Adı ayrı, özü eyni xörəklər....179
Sədaqət ....179
Reportaj ....179
Pis yuxu ....180
Məhəbbətin kökü ....180
Hamısı əla....180
Təbrik teleqramı ....181
Özümüzə işləyirəm....181
Bənzəmə ....181
Salam....182
Düzü belədir ....182
Nə biləydim ki ....182
Ölməmişəm ha....183
Sevincin səbəbi....183
Çıxış yolu ....183

Bəri gəl........................................................184
Məndən betər........................................................184
Adı ki, yüksəkdir........................................................184
Kirvəlik........................................................185
Yazıçı və redaktor........................................................185
Bələdçi ilə........................................................185
Cəhd........................................................186
Idman müəllimi........................................................186
Cəm şəkilçisi........................................................186
Redaktor........................................................187
Əlavə məzuniyyət........................................................187
Idmançı........................................................187
Obyektiv adam........................................................188
Tənqiddən nəticə........................................................188
Hazırcavab müəllim........................................................188
Yeznəsi idim........................................................189
Rişxənd........................................................189
Müdir ha deyil........................................................189
Təsdiqov........................................................189
Oxumuş oluram........................................................190
Tərif........................................................190
Tələsmə........................................................190
Münasibət rəmzi........................................................190
Intiqam........................................................191
Səbəb........................................................191
Razılıq........................................................191
Çünki........................................................191
Bir həftə qalıb........................................................192
Bədii kitab........................................................192
Yedək vaxti deyil........................................................192
Kolxoz sədri........................................................193
Kimin oğlusan........................................................193
Göstəriş almamışıq........................................................193
Fiziki iş........................................................193
Aidat........................................................194
Müəllifini deyin........................................................194

Əmr....194
Vaxtım yoxdur....195
Təlaş....195
Kadr seçmək....195
Bizimki....196
Gözlənilməz hal....197
Saymazovun salami....197
Xəstələnirdi....197
Özgə işlər....198
Cavab....198
Qoy tədbir görsün....198
Bu gün dincəlir....199
Səhvimi düzəltdim....199
Əliəyrilik....199
Ölçü vahidi....200
Mübarizə tədbirləri....200
Simicin biri....200
Xəbərim yoxdur....201
Pul istəmirlər....201
Hərənin öz işi....201
Əlbəttə yox....202
Qoy yay gəlsin....202
And....202
Böyüklük....203
Məgər mən....203
Deyirlər ki....203
Dostluğun səbəbi....204
Avropa qitəsində....204
Nə işiniz....204
Məlumat bürosunun xəbəri....204
Zövq....205
Görək....205
Fars yazıçısı....205
Bu dəqiqə....205
Qalsın sabaha....205
"Kirpi" qəzeti....206

Təliqə yazın ....................................................................206
Tövbə...............................................................................207
Məgər ..............................................................................207
Yalan ...............................................................................207
Stolumu ...........................................................................208
Sayanda azalar.................................................................208
Hönkürtü..........................................................................208
Eybi yoxdur .....................................................................209
Plandı...............................................................................209
Bar tutan ..........................................................................209
Məzuniyyətdəyəm ...........................................................210
Intizamsız ........................................................................210
Köhnəlmiş sözlər.............................................................211
İki tərəfli qazanc..............................................................211
Yaxşı və pis .....................................................................211
Heyf almaq ......................................................................212
Bax bu oldu .....................................................................212
Dədəsindən......................................................................213
Maşın alıram....................................................................213
Vaxt var ki .......................................................................213
Qoy gedib bizi tapsın.......................................................213
Haradan biləydik ki .........................................................213
Əyilməyin........................................................................214
Mənə aid deyil.................................................................214
Uzun pencək....................................................................214
Natiqliyin sirri .................................................................215
Əvəz ................................................................................215
Siyasi səhv.......................................................................215
Beşinci dəfə.....................................................................216
Şifahi təhsil......................................................................216
Yaxşi səslənmir ...............................................................217
Əsl oxucu.........................................................................217
Yağliliq nədir?.................................................................217
Mühazirə..........................................................................218
Kəsdilər ...........................................................................218
Daha pis...........................................................................219

Telefonum işləmir ..........................................................219
Yardım etsələr ...............................................................219
Neyləyim .......................................................................220
Ənənəvi bayram ............................................................220
Idarə başçısı ..................................................................220
Fərq................................................................................220
Sonda çixiş ....................................................................221
Üstündən keçirlər ..........................................................221
Mənsə ............................................................................221
Belə yaxşıdır..................................................................221
Xalq dili .........................................................................222
Daha çox bilmək üçün ..................................................222
Fərli adaxlı.....................................................................222
Daha məşhur..................................................................222
Qonşumuz da alıbdır .....................................................223
Səbəb .............................................................................223
Mən kimdən əskiyəm ....................................................223
Mənə yemək ..................................................................223
Hələlik müzakirə edilməmişdir .....................................224
Özünə izah edin .............................................................224
... İki sözlü ....................................................................225
Faciə ..............................................................................228
Özü yıxılan ağlamaz.......................................................233
Nə tökərsən aşına...........................................................239
Biblioqrafiya..................................................................243
**K**itabın içindəkilər...........................................................246

**«Elm və Təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

*Kompüter dizayneri:* **Zahid Məmmədov**
*Texniki redaktor:* **Rövşanə Nizamiqızı**
*Kompyuterdə yığdı:* **Sədaqət Quliyeva**

Yığılmağa verilmiş **05.02.2013**
Çapa imzalanmış **04.03.2013**
Şərti çap vərəqi **15,7.** Sifariş № **47**
Kağız formatı **84x108 1/16.** Tiraj **500**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
**E-mail:** elm_ve_tehsil@box.az
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.


Гәшәм Асланов
ҸАЈМАЗОВУН


Гәшәм Аслан
МӘҒЛУБ
ӨЛҮМ